# SƏN AZADSAN, KƏLBƏCƏR!

Bu bir xalq qəzetidi

www.adalet.az

# ƏDALƏT

Qurucusu: Adil Minbaşıyev | Gündəlik hüquq qəzeti | Qəzet 1990-cı ilin iyulundan çıxır | № 35 (5867) 3 aprel 2021-ci il | Qiyməti 30 qəpik


## Bu ərazilərdə məktəblər bağlandı



*Mövcud pandemiya şəraiti ilə əlaqədar olaraq, növbəti həftədən etibarən tədrisin təşkili ilə bağlı yeni normaların tətbiqi planlaşdırılır. Təhsil Nazirliyindən Adalet.az-a verilən məlumata görə, aprelin 5-dən Bakı, Sumqayıt, Gəncə, Şəki şəhərləri və Abşeron rayonunun ümumi təhsil müəssisələrində tədris və təlim-tərbiyə prosesinin distant (məsafədən) formada təşkili nəzərdə tutulur.*

*Digər şəhər və rayonlarda isə tədris sanitar-gigiyenik tələblərə əməl edilməklə qismən əyani formada davam etdiriləcək.*

*Məlumat üçün bildiririk ki, distant tədris zamanı dərslər "Virtual məktəb", eləcə də digər onlayn platformalar üzərindən keçirilə bilər. Həmçinin şagirdlərə "Dərs vaxtı" teledərslərini izləmək tövsiyə olunur.*

*Qeyd edək ki, ümumi təhsil müəssisələrinin yaşı 50-dən yuxarı olan müəllim və texniki heyətinin martın ilk həftəsindən vaksinasiya prosesinə başlanılıb. Bu günədək proses çərçivəsində 55 faizdən çox müəllim və texniki heyət "COVID-19" əleyhinə peyvənd olunub. Təhsil prosesinin səmərəli təşkili üçün müəllim, o cümlədən texniki heyətin vaksinasiya prosesində iştirakı zəruridir. Təhsil Nazirliyi ictimaiyyətə sanitar-gigiyenik qaydalara əməl etməyi, maska taxmaqla və sosial məsafəni gözləməklə "COVID-19" virusundan qorunmağı bir daha tövsiyə edir. Bildiyimiz kimi, Nazirlər Kabinetinin "Xüsusi karantin rejimi dövründə Azərbaycan Respublikasının ərazisində fəaliyyət göstərən təhsil müəssisələrinin fəaliyyətinin təşkili ilə bağlı əlavə tədbirlər barədə" qərarına və Təhsil Nazirliyinin müvafiq əmrinə əsasən, fevralın 1-dən ölkə üzrə ümumi təhsil müəssisələrində karantin rejiminin qaydalarına əməl edilməklə ənənəvi tədris mərhələli şəkildə qismən bərpa edilib.*

## Selçuk Bayraktar "Qarabağ" ordeni ilə təltif olundu



**"Azərbaycan Prezidenti cənab İlham Əliyev tərəfindən "Qarabağ" ordeninə layiq görüldüyüm üçün böyük şərəf və qürur duyuram".**

Adalet.az xəbər verir ki, bunu ölkəmizdə səfərdə olan Türkiyənin "Baykar" şirkətinin texniki direktoru Selçuk Bayraktar "Twitter"də yazıb.

Qeyd edək ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyənin "Baykar" şirkətinin texniki direktoru Selçuk Bayraktarı və "ASELSAN" şirkətinin idarə heyətinin rəhbəri və baş direktoru Haluk Görgünü qəbul edib.

## Milli Məclis Ombudsmanın hesabatını təsdiq etdi



**Milli Məclisin dünən keçirilən iclasında Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin (Ombudsmanın) illik məruzəsi dinlənilib.**

Adalet.az-ın məlumatına görə, hesabatı Omudsman Səbinə Əliyeva təqdim edib. Hesabatda Ombudsmanın fəaliyyəti, insan hüquqları ilə bağlı vəziyyət və bir sıra təkliflər öz əksini tapıb.

Deputatlar çıxış edərək hesabatla bağlı təklif və rəylərini bildiriblər. Müzakirələrdən sonra hesabat səsə qoyularaq qəbul edilib.

## İnqilabın qüdrətli polkovniki Alparslan Türkeş

*Hulusi Turqutun xatirələri*

Bax:səh-6

## Siyavuş Novruzov: "Bayraqdan bu qaydada istifadə etməliyik"

**"Aprel döyüşləri Azərbaycanın qələbəsinin ilk qaranquşudur. Vətən müharibəsində qələbə çalan Ordumuz ərazi bütövlüyümüzü bərpa edib".**

Adalet xəbər verir ki, bunu Milli Məclisin deputatı Siyavuş Novruzov parlamentin dünən keçirilən iclasında deyib.

Onun sözlərinə görə, 44 günlük müharibə zamanı Azərbaycan xalqı birlik nümayiş etdirdi:

"Xalqımız müharibə dövründə bayraqlarımızı evlərində, maşınlarında gəzdirdi. Bizdə "Dövlət atributları haqqında" qanun var. Bəzən dövlət bayrağı eyvandan asılır və onun yanında digər şeylər də olur. Hesab edirəm ki, biz bayraqdan qanunda nəzərdə tutulmuş qaydada istifadə etməliyik".

## İradə Tuncay: 2014-cü ilin bu günü yazmışdım...



*...Bəlkə qeyri-adi, bəlkə də sıradan bir mənzərədi. İki dağın arasından kiçik bir çay axır... Göz yaşı kimi dumduru suyu var çayın... Amma səsi gurdu, bütün dağ çayları kimi.... Gecələr isə ancaq bu çayın şırıltısını eşidirsən. Çox vaxt yağışın səsi də qarışır çayın səsinə... Və bu duet avqustun yandırıcı dağ günəşinə musiqi fasiləsi gətirir. Burda iqlimi idarə edən dirijorun kəskin keçidləri var... Ritmlər qəribə və təzadlı dəyişir... Dağın bir yamacında oturub çayla sərhədlənən o biri yamacına baxıram. O biri tayda alaçıqlar, öz işində olan insanlar... Xatirimdə belə qalıb. Və o yaşımın möhtəşəm simfoniyası bu gün elegiya kimi səslənir... "Bəlkə bu yerlərə bir də gəlmədim" - demişdi Şair... Şeir orda gəlmişdi dilinə...*

*Kəlbəcər... İstisu... Bəlkə o yerlərə bir də gələsən?!*

***

*Sonra 2016-cı ilin apreli oldu. Addım-addım yol aldıq Kəlbəcərə. Və... 2020-ci il gəldi...*

## Azərbaycan və Türkiyə birgə investisiya fondu yaradacaq

Bax: səh.3

## GÜNÜN LƏTİFƏSİ

Bir gün gecə saat 2 olur, Mamed evə gəlmir. Arvadı zəng vurur qaynanasıgilə. Deyir:

**- Ay qaynana, saat 2-di, amma Mamed evə gəlməyib. Bəlkə başqa arvadı var, onun yanına gedib?**

**- Ay gəlin, niyə ağlına pis-pis fikirlər gətirirsən? Bəlkə bıçaqlayıblar, bəlkə maşın vurub?**

## Prezident Selçuk Bayraktarı qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 1-də Türkiyənin "Baykar" şirkətinin texniki direktoru Selçuk Bayraktarı və "ASELSAN" şirkətinin idarə heyətinin rəhbəri və baş direktoru Haluk Görgünü qəbul edib.**

Adalet.az xəbər verir ki, Selçuk Bayraktar Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlətimizin başçısına çatdırdı. O, Prezident İlham Əliyevi Vətən müharibəsindəki Qələbə münasibətilə təbrik etdi, şəhidlərimizin xatirəsini andı.

Rəcəb Tayyib Ərdoğanın salamlarına görə təşəkkürünü bildirən Prezident İlham Əliyev onun da salamlarını Türkiyə Prezidentinə çatdırmağı xahiş etdi.

Dövlətimizin başçısı Vətən müharibəsi zamanı Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın və Türkiyə xalqının Azərbaycana dəstəyini xüsusi vurğuladı. Prezident İlham Əliyev Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının martın 31-də keçirilən Zirvə görüşündə Türkiyə Prezidentinin Azərbaycanı bu Qələbə münasibətilə bir daha təbrik etməsini yüksək qiymətləndirdi.

Türkiyənin müdafiə sənayesinin əldə etdiyi nailiyyətlərə toxunan Prezident İlham Əliyev Selçuk Bayraktarın bu uğurların önündə getdiyini vurğuladı, "Baykar" şirkətinin istehsal etdiyi məhsulların torpaqlarımızın azad olunması zamanı düşmən texnikasının məhv edilməsindəki rolunu qeyd etdi. Dövlətimizin başçısı Azərbaycanla Türkiyə arasında qardaşlıq əlaqələrinin gücləndirilməsinə, əməkdaşlığın inkişafına, Azərbaycan Respublikasının ərazi bütövlüyünün və suverenliyinin təmin olunması istiqamətindəki haqq işinə verdiyi töhfəyə görə Selçuk Bayraktarın "Qarabağ ordeni" ilə təltif edildiyini bildirdi və ordeni Selçuk Bayraktara təqdim etdi.

Bu yüksək mükafata görə Prezident İlham Əliyevə təşəkkürünü bildirən Selçuk Bayraktar dedi: "Həqiqətən də bu, mənim üçün böyük bir qürur və şərəfdir".

## Dövlət Agentliyi "Baykar" şirkəti ilə əməkdaşlığı gücləndirir



**Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev "Baykar" şirkətinin texniki direktoru Selçuk Bayraktar ilə görüşüb.**

**Adalet.az xəbər verir ki, görüş zamanı "Baykar" şirkətinin və "Türkiyə Texnoloji Takımı"nın (T3) "Deneyap" proqramının Azərbaycanda icra olunması istiqamətində danışıqlar aparılıb. "Deneyap" proqramı uşaq və gənclər üçün 2 illik təlim və 1 il ərzində layihə hazırlanmasından ibarət texnoloji təhsil proqramıdır. Proqramın məqsədi texnologiyaların inkişafı üçün gənclərin tədqiqat və bacarıqlarının artırılmasıdır.**

**Müvafiq əməkdaşlıq çərçivəsində Dövlət Agentliyi ilə "Baykar" şirkəti, həmçinin "Türkiyə Texnoloji Takımı" (T3) arasında innovasiya və texnoloji təhsil sahəsində imzalanması nəzərdə tutulan Anlaşma Memorandumu barədə də fikir mübadiləsi aparılıb.**

**Qeyd edək ki, "Baykar" şirkəti ilə Dövlət Agentliyi arasında əməkdaşlıq 2020-ci ilin 4-6 dekabr tarixində Dövlət Agentliyinin "İnnovasiyalar Mərkəzi" tərəfindən təşkil olunmuş "Qlobal Müdafiə Texnologiyaları Hakatonu" çərçivəsində qurulub. "Baykar" şirkətinin rəhbəri və " Türkiyə Texnoloji Takımı"nın (T3) həmtəsisçisi və İdarə Heyətinin sədri Haluk Bayraktar Hakatonun rəsmi açılış mərasiminda iştirak edib, eyni zamanda jüri üzvü olub.**

# ZİRVƏ GÖRÜŞÜ TARİXİ GERÇƏKLİYİ TƏSDİQLƏDİ

**Martın 31-də Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının fəxri sədri, Qazaxıstan Respublikasının birinci prezidenti Nursultan Nazarbayevin təşəbbüsülə bu təşkilatın videokonfrans formatında qeyri-formal Zirvə görüşü keçirilib. 30 ilə yaxın erməni terrorçuları tərəfindən işğal altında qalan torpaqlarımızın, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Müzəffər Ordumuz tərəfindən azad olunması, artıq düşmən tərəfindən demək olar ki, tamamilə dağıdılmış ərazilərimizdə quruculuq - bərpa işlərinə başlanması ərəfəsində, məqsədi türk dünyasını ən vacib iqtisadi, mədəni məkanlardan birinə çevirmək olan Şuranın Zirvə görüşünün keçirilməsi vacib məqamlardan xəbər verir.**

**Türk Şurasının fəxri sədri Nursultan Nazarbayevin çıxışı** da Azərbaycan Prezidentini Qələbə münasibətilə təbriklə başladı. "Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi təbrik edirəm. Xüsusilə qeyd etmək istəyirəm ki, ərazi bütövlüyünün bərpa edilməsi məsələsində Türkiyə önəmli rol oynamışdır".

Nursultan Nazarbayev 2019-cu ildə Bakıda keçirilən VII Zirvə görüşündə Türk Şurasının fəxri sədri seçildiyini və bundan böyük şərəf duyduğunu bildirdi. Nursultan Nazarbayev bu dəfəki Zirvə toplantısının keçirilməsinin səbəblərindən biri kimi dünyada baş verən dəyişiklikləri, xüsusilə pandemiya ilə mübarizəni qeyd edərək "Türk dünyasının gələcəyi - 2040"adlı sənədin hazırlanmasını təklif etdi. O, Türküstan şəhərinin yüksək səviyyəli tədbirlərə ev sahibliyi etməyə hazır olduğunu bildirdi.

**Zirvə görüşündə çıxış edən Türk Şurasının hazırkı sədri, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilk növbədə, Zirvə görüşünün keçirilməsi ilə bağlı irəli sürdüyü təşəbbüsə görə, Nursultan Abışoviç Nazarbayevə təşəkkürünü bildirdi və qeyd etdi ki, Nursultan Abışoviç Nazarbayev Türk Şurasının fəxri sədri kimi çox fəal iş aparır və bu Sammitin keçirilməsi bunun bariz təsdiqidir.**

Daha sonra prezident İlham Əliyev bir il əvvəl, keçən ilin aprel ayında Bakıda Azərbaycanın təşəbbüsü ilə COVID-19-a həsr edilmiş Zirvə görüşü keçirildiyini xatırladaraq, bu görüşlərin üzv ölkələr arasındakı birliyə bunun çox böyük müsbət təsiri olduğunu xüsusi vurğuladı.

Azərbaycan Respublikasının prezidenti bu ilin sonunda Azərbaycan Türk Şurasındakı sədrliyini qardaş Türkiyəyə təhvil verəcəyini və Türkiyədə keçiriləcək rəsmi Zirvə görüşündə Azərbaycanın sədrliyi dövründə gördüyü işlərlə bağlı məlumat veriləcəyini görüş iştirakçılarının nəzərinə çatdırdı.

Prezident İlham Əliyev görüş iştirakçılarına 44 günlük Vətən Müharibəsi barədə geniş məlumat verdi:

"Bu gün isə fürsətdən istifadə edərək, II Qarabağ müharibəsi haqqında məlumat vermək istərdim. Bildiyiniz kimi, 30 ilə yaxın müddət ərzində Ermənistan Azərbaycanın beynəlxalq birlik tərəfindən tanınan ərazilərini işğal altında saxlayırdı. Bu işğal nəticəsində torpaqlarımızın təxminən 20 faizi Ermənistan tərəfindən zəbt edilmişdir, bir milyondan çox azərbaycanlı öz doğma torpağından didərgin salınmışdır, qaçqın-köçkün vəziyyətinə salınmışdır. Xalqımıza qarşı etnik təmizləmə siyasəti aparılmışdır. Ermənistan Azərbaycana qarşı soyqırımı törətmişdir. 1992-ci ildə törədilən Xocalı soyqırımı nəticəsində 600-dən çox günahsız, dinc insan vəhşicəsinə öldürülmüşdür. Onların arasında 106 qadın, 63 uşaq vəhşicəsinə qətlə yetirilmişdir.



Məsələnin həlli ilə bağlı 1992-ci ildə ATƏT-in Minsk qrupu yaradılmışdır və 28 il ərzində fəaliyyət göstərsə də, nəticə olmamışdır. Minsk qrupunun nəticəsi sıfra bərabər olmuşdur. Halbuki Minsk qrupuna həmsədrlik edən ölkələr dünyanın aparıcı ölkələridir, nüvə dövlətləridir, BMT Təhlükəsizlik Şurasının daimi üzvləridir. Əlbəttə ki, Ermənistana qarşı işğalla bağlı ciddi təzyiq göstərilsəydi və Azərbaycanın tələbi nəzərə alınıb sanksiyalar tətbiq edilsəydi, məsələ çoxdan sülh yolu ilə öz həllini tapa bilərdi".

Prezident vurğulamışdır ki, "Digər təxribat xarakterli addımlardan biri də qədim Azərbaycan şəhəri, bizim mədəni paytaxtımız olan Şuşada qanunsuz xunta rejiminin, keçmiş Dağlıq Qarabağ rejiminin başçısının andiçmə mərasiminin keçirilməsi idi. Bu, Azərbaycan xalqına qarşı təhqir idi. Qondarma "Dağlıq Qarabağ respublikası"nın qondarma parlamentinin Şuşa şəhərinə köçürülməsi və parlament üçün binanın inşa edilməsi də, - bu bina indi məhv ediləcək, yaxud söküləcək, - təxribat xarakterli addım idi. Yəni, bütün bu addımlar göstərirdi ki, Ermənistan bizi təxribata çəkir, bizdən sərt reaksiya gözləyir və ondan sonra günahı bizim üstümüzə yıxıb, yenə də məsələni daha 30 il uzatmaq istəyir. Biz təxribata uymadıq. Biz özümüzü təmkinli apardıq, beynəlxalq hüququn bütün norma və prinsiplərinə uyğun şəkildə apardıq və belə olan halda Ermənistan keçən ilin yayında bizə qarşı hərbi təxribat törətdi. Ermənistan-Azərbaycan dövlət sərhədində bizim mövqelərimiz atəş altına düşdü. Ermənistan hərbi birləşmələri bizim sərhədimizi keçməyə cəhd göstərdi, bir neçə hərbçimiz həlak oldu. Biz onlara layiqli cavab verdik və onları geri oturtduq. Ancaq biz Ermənistan-Azərbaycan dövlət sərhədini keçmədik. Bir neçə gün davam edən hərbi toqquşma dayandı. Çünki bizim Ermənistan ərazisində müharibə aparmaq niyyətimiz yox idi. Halbuki istəsəydik rahatlıqla Ermənistan ərazisinə daxil ola bilərdik. Ondan bir ay keçəndən sonra - avqust ayında yeni bir təxribat törədildi və Azərbaycana diversiya qrupu göndərildi. Diversiya qrupunun rəhbəri saxlanıldı və ifadə verdi ki, o, terror aktları keçirmək üçün Azərbaycana göndərilmişdir və bu, növbəti təxribat idi. Nəhayət, sentyabrın sonlarında bizim hərbi mövqelərimiz və yaşayış məntəqələrimiz artilleriya atəşinə məruz qalmışdır və bunun nəticəsində bir neçə hərbçi və bir neçə mülki şəxs həlak olmuşdur. Biz təbii olaraq buna adekvat cavab verərək, əks-hücum əməliyyatı keçirib düşməni layiqincə cəzalandırdıq və 44 gün davam edən II Qarabağ müharibəsi Azərbaycanın tam qələbəsi ilə nəticələndi".

İlham Əliyev xatırlatmışdır ki, "noyabrın 9-dan 10-na keçən gecə Azərbaycan və Rusiya prezidentləri, Ermənistanın baş naziri Bəyanat imzalayıblar. Bu Bəyanat əsasında bizim digər rayonlarımız artıq siyasi yollarla Azərbaycana qaytarıldı. Beləliklə, məsələ hərbi-siyasi yollarla həll olundu. Artıq tam əminliklə demək olar ki, Dağlıq Qarabağ məsələsi, Dağlıq Qarabağ münaqişəsi öz həllini tapmışdır. Dağlıq Qarabağ adında hazırda hər hansı bir ərazi vahidi yoxdur. Azərbaycan bu məsələni həll edib, tarixi Zəfər əldə edib və dağıdılmış ərazilərdə bərpa işləri başlayıb.

Biz müharibənin ilk günündən qardaş Türkiyədən böyük dəstək aldıq. Mənim əziz qardaşım, Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğan sentyabrın 27-də müharibə başlanan gün açıq şəkildə Azərbaycana dəstək ifadə etdi.

Bu siyasi və mənəvi dəstəyin çox böyük əhəmiyyəti var idi. Əziz qardaşım bildirmişdi ki, Azərbaycan yalnız deyil, Türkiyə Azərbaycanın yanındadır. Əlbəttə ki, bu, çox ciddi mesaj idi, ciddi siqnal idi. Bu, bizə imkan verdi ki, əks-hücum əməliyyatını uğurla keçirək, imkan verdi ki, hər hansı bir kənar qüvvə məsələyə müdaxilə etməsin. Mən həmişə demişdim ki, əgər xarici müdaxilə olmasa, Azərbaycan Dağlıq Qarabağ məsələsini qısa müddət ərzində həll edə bilər və belə də oldu. Bu dəstəyə görə qardaş Türkiyəyə və onun hörmətli Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğana dərin təşəkkürümü bildirmək istəyirəm".

Zirvə görüşünün aparıcısı, Qazaxıstan Respublikasının prezidenti Kasım-Jomart Tokayev İlham Əliyevə, geniş məlumat və mənalı nitqi üçün təşəkkürünü bildirərək qeyd etdi ki, Azərbaycan və Ermənistan arasında razılaşma çox vacib amil rolunu oynayır, onun uğuruna inanırlar.

Zirvə görüşündə çıxış edən Türkiyə Cümhuriyyətinin Prezidenti Rəcəb Tayyib Ərdoğan Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının fəaliyyətinin əhəmiyyətini vurğuladı, pandemiyaya qarşı birgə mübarizənin vacibliyindən danışdı. Türkiyə Prezidenti ölkələrimizin müstəqilliyi, ərazi bütövlüyü və suverenliyi ilə bağlı məsələlərdə də təşkilatın həmrəylik nümayiş etdirdiyini bildirdi:

- Bu münasibətlə əziz qardaşım, hörmətli İlham Əliyev başda olmaqla bütün azərbaycanlı qardaşlarımı Dağlıq Qarabağdakı Zəfərləri ilə bağlı şəxsən öz adımdan və xalqım adından bir daha təbrik edirəm. Qırx dörd gün davam edən, dastana bənzər mübarizədən sonra 30 illik işğal sona çatıb, Dağlıq Qarabağ Ana Vətənlə yenidən qovuşub. Ancaq deməliyəm ki, Qarabağ bölgəsindəki 67 məsciddən 63-ü dağıdılıb, həmçinin kilsələr də yerlə-yeksan edilib.

Həmçinin bu gün 1918-ci ildə azərbaycanlı qardaşlarımızın məruz qaldıqları soyqırımın anıldığı gündür. Biz Xocalı qətliamını heç vaxt unuda bilmərik. Biz bu qətliamın növbəti ildönümünü bir müddət əvvəl qeyd etdik. Mən qətlə yetirilən 10 minlərlə qardaşımıza rəhmət diləyirəm.

Qarabağdakı türk irsinin bərpası və qorunması üçün bütün imkanlarımızla Azərbaycanın yanında olmağa davam etməyimiz hamımız üçün əhəmiyyət daşıyır. Eyni qaydada bu addımı atarkən tezliklə Azərbaycanın bu bölgəsini inkişaf etdirmək üçün bütün məcburi köçkün qardaşlarımızın yenidən doğma torpaqlarına qayıtmalarına önəm verirəm. Arzum odur ki, ən qısa zamanda - Ramazan bayramından sonra qardaşımla birgə Şuşanı ziyarət edək, inşallah, burada yeni bir bayram yaşayaq.

**Zirvə görüşündə Özbəkistan Prezidenti Şavkat Mirziyoyev, Türk Şurasının Baş katibi Bağdad Amreyev, Qırğızıstan Prezidenti Sadır Japarov, Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov, Macarıstan Baş naziri Viktor Orban da Zirvə görüşündə çıxış edərək, Zirvə görüşlərinin mütəmadi olaraq keçirilməsinin əhəmiyyətini vurğuladılar.**

**Hazırladı:**
**Rüstəm Hacıyev**

# Azərbaycan və Türkiyə birgə investisiya fondu yaradacaq

**Azərbaycanla Türkiyə birgə investisiya fondunun yaradılması üzrə iş aparır.**



Adalet.az-ın məlumatına görə, bunu iqtisadiyyat naziri Mikayıl Cabbarov Azərbaycan-Türkiyə iqtisadi əlaqələri barədə "dəyirmi masa" zamanı deyib. Onun sözlərinə görə, hazırda Azərbaycan-Türkiyə Hökumətlərarası Komissiyası çərçivəsində əldə edilmiş razılığa əsasən, "Azərbaycan İnvestisiya Şirkəti" ASC ilə Türkiyənin Rifah Fondunun nümayəndələri arasında birgə investisiya fondunun yaradılması ilə bağlı müzakirələr davam edir. Nazir əlavə edib ki, indiyə qədər Türkiyə şirkətləri Azərbaycan iqtisadiyyatına 13 milyard dollar, Azərbaycan şirkətləri isə Türkiyə iqtisadiyyatına 19 milyard dollar məbləğində investisiya qoyub:

**"Türkiyə Azərbaycan iqtisadiyyatının qeyri-neft sektoruna investisiyalara görə liderlik edir. Hazırda Azərbaycanda Türkiyə kapitalı ilə 4,2 min şirkət fəaliyyət göstərir. 300 mövcud layihə üzrə Türkiyə şirkətlərinin işinin dəyəri 16,3 milyard dollar təşkil edir".**

# Komitə sədri: "Suriyadan qaytarılan vətəndaşlarla bağlı hərtərəfli araşdırma aparılmalıdır"



**"Pandemiyadan qabaq Azərbaycan cəmiyyətində aparılmış tədqiqatın nəticəsinə görə cihad adı ilə Suriya və İraqa gedənlərə haqq qazandıranlar arasında gənclər üstünlük təşkil edirdi".**

Adalet.az məlumatına əsasən, bunu Milli Məclisin iclasında İnsan hüquqları komitəsinin sədri Zahid Oruc Ombudsmanın 2020-ci il üzrə illik hesabatının müzakirəsi zamanı deyib. O qeyd edib ki, 18-29 yaş aralığında olan hər 100 gəncdən 30-u dindarların siyasi partiyalarda birləşməsini məqbul hesab edir. "Bu rəqəmlərdən çıxış edərək Ombudsmanın illik məruzəsində Suriyada münaqişənin girovuna çevrilən vətəndaşların ölkəmizə qaytarılması ilə əlaqədar çağırışa ehtiyatlı yanaşma, hərtərəfli araşdırılma ilə qərar verilməsini zəruri hesab edirik", - deyə Z.Oruc əlavə edib.

**Nicat**

# Ombudsman: "Ermənistan rəhbərliyi barədə beynəlxalq təşkilatlara müraciət edilib"

**"Ötən il qazanılan şanlı qələbə münasibətilə Cənab Prezidentimizi, Şanlı Ordumuzu, uzun illərdən o torpaqlardan köçkün düşmüş məcburi köçkünlərimizi təbrik edirəm".**



Adalet.az xəbər verir ki, bunu Milli Məclisin bu gün keçirilən iclasında deputat Ombudsman Səbinə Əliyeva deyib. Ombudsman bildirib ki, ötən il Ali Baş Komandanın rəhbərliyi altında işğalda olan torpaqlarımızın azad olunması istiqamətində rəşadətli Azərbaycan Ordusunun qazandığı möhtəşəm qələbə şanlı tariximizdə əsl qəhrəmanlıq salnaməsidir: "Müharibə dövründə Ermənistanın təcavüzü nəticəsində dağılan cəbhə xəttindən uzaq rayon və şəhərlərə mütəmadi səfərlər etmişəm, faktaraşdırıcı missiya həyata keçirmişəm. Azərbaycanın haqq səsini dünya ictimaiyyətinə çatdırmaq üçün beynəlxalq qurumlara müsahibələr verilib, müraciətlər ünvanlanıb. Həmin müraciətlərdə Ermənistanın Azərbaycan əsirlərinə qarşı qeyri-insani rəftarına beynəlxalq təşkilatlar tərəfindən qiymət verilməsi, Ermənistanın siyasi rəhbərliyinə qarşı beynəlxalq hüquqi tədbirlərin görülməsi tələbləri yer alıb".

**Nicat Novruzoğlu**

# Kəlbəcər, yenə də bizimsən!



*Əzizə İsmayılova*

***Zarafat deyil. Biz bu günlərə gəldik! Əziz KƏLBƏCƏR, bu il biz sənin işğal gününü artıq qeyd etmirik. Çünki, sən artıq yenə də bizimsən!***

***30 illik tarixin qısa xronikası:***

***1993-cü ilin mart ayı bu bölgəyə qara gəlmişdi. Düşmənlər strateji əhəmiyyətli bir neçə yüksəkliyimizi tutmuş, Təkəqaya, Zağalar, Çıraq kəndlərinə soxulub evlərə od vurmuş, dinc əhalini diri-diri yandırdırmışlar. Ən əhəmiyyətli #Keçiliqaya yüksəkliyinə sahib çıxdmışdılar.***

***Aprelin 2-də Kəlbəcər artıq erməni quldurlarının əlində idi.***

***İşğal nəticəsində Kəlbəcərdə: 511 nəfər şəhid verdik, 231 nəfərimiz itkin düşdü, 100-lərlə vətəndaşımız şikəst oldu. 130 yaşayış məntəqəmiz, dünya şöhrətli, "İstisu" sanatoriyamız, 500-dən artıq sənaye, tikinti, məişət, ticarət obyekti, 172 mədəniyyət obyekti, 96 ümumtəhsil məktəbi, 76 səhiyyə obyekti, 1 muzey darmadağın edildi. 100 min baş qaramal, 500 min baş qoyun-quzu, 100-lərlə maşın, texnika, avadanlıq talan olundu.***

***AMMA bunlar hamısı tarixdə qaldı. Şanli Azərbaycan ƏSGƏRi tarixin bu qaranlığından bizi çıxartdı. Azərbaycan Ordusu Kəlbəcərimizi bizə qaytardı!***

***Əziz KƏLBƏCƏR, sən azadsan! Əziz KƏLBƏCƏR, sən yenə də bizimsən və tarix boyu bizim olacaqsan! Biz səni cənnətə çevirəcəyik!***

***Yaşasın Azərbaycan! Yaşasın Azərbaycan Ordusu! Şəhidlərimizə hörmət, qzilərimizə şəfqət diləyi ilə!***

*Müharibə gündəliyi*

# Ölən erməninin sevgilisi



***Illərdi gecələr yuxudan təngənəfəs oyanırdım. Bəzən tər içində, bəzənsə boğulmaq üzərəykən...Bu oyanmalar 2010-ci ilin əvvəlindən 2020-ci ilin sentyabrına kimi davam etdi. Əvvəlki illər hər gecə, sonra həftədə bir, sonrasa, ayda 1-2 dəfə yuxularıma haram qatan bir qız idi. Üzünü görmədiyim, heç zaman rastlaşmadığım bir qız. Daha doğrusu, bir qızın səsi. O, heç nə danışmır, hesabını bilmədiyim sayda "alo, alo, alo...". Yuxularıma haram qatan bu "alo"lar idi. Axı, kim idi bu qız, niyə hər gecə yuxularımda "alo" deyərək qışqırır və mənə əzab verir?!***

***Vətən müharibəsi məni bu əzabdan qurtardı. Daha o yuxuları görmürəm, kimsə yuxumda "alo" deyə qışqırmır. Indi öz əzablarım, öz yaşantılarım, bu müharibədə gördüklərim yuxumu qarışdırır. Vətən müharibəsi təkcə Qarabağı deyil, məni o qızdan, o səsdən xilas etdi.***

***2010-cu ilin qışı...Ağdam. İşğal olunmuş kəndlərin qarşısı...Səngər həyatımız davam edir. Burada başını səngərdən qaldırmaq ya hansısa snayperin sinəsinə medal taxmaqdır, səngərdən qırağa çıxmaqsa, ayaqlarını minalar üstündə unutmaq. Niyə 2010-cu ilin hadisələrindən indi bəhs edirəm-deyə bilərsiniz. Keçmişdə etdiyim qaralamalarıma maraq Vətən müharibəsi zəfərindən sonra maraq oyatdı. Həm də əvvəl bunlara elə də həvəsli deyildim. Çünki məğlub bir ölkənin səngər həyatından bəhs etməyi ya özümə yaraşdırmır, ya da utanırdım. Axı, kimə nəyi sübut edəcəkdim? Utanırdım...Məğlub bir ölkənin zabiti kimi xatirələr dərc etməkdən. Eləcə səngər şeirlərimlə ovunurdum. Hə, bu müharibə məni həm şeirlərlə ovunmaqdan, həm də yuxularımdakı qızın səsindən xilas etdi...***

***Müşahidə postunda duran əsgər anidən qışqırdı; -" komandir, erməni" . Dərhal müşahidə postuna çıxdım. Postda ermənini görmək sizə nə qədər qəribə gəlsə də, arzuladığın əzizini görməklə müqayisə edə bilərdim. Yox, yox, o ermənini bağrımıza basmaqçün deyil, gülləyə tuş etməkçün.***

***Tr-8-lə müşahidə apardıq. Bir əli cibində, birindəsə telefon qulağına söykəyərək hərəkət edir. Hərəkət edir deyirəmsə, gövdədən yuxarını görürük. Özünü o qədər itirib ki, düşmən valının arxasından çıxdığının fərqində deyil. Axı, adam kiminlə belə danışıb dünyanı unudub öz səngərini tərk edə bilər? Anasımı, sevgilisimi, bacısımı? Onun özündən razı, tərki dünya olaraq harda olmasını unutması adamın ağlına yalnız sevgilisini gətirə bilir. Insan onun etdiklərini sevgilisi ilə danışanda edə bilər...***

***Bu qədər danışmağıma baxmayın, bu qədər düşüncə bir neçə saniyə ərzində baş verir. Vuraq? Ani olaraq beynimin içindəki düşüncələr mənə imkan vermir? Bəlkə danışdığı adam anasıdır? Və həmin vurulsa... Ya da sevgilisi? Bu elə ən böyük sevgi qətliamı olar. Telefonun qarşısındakı şəxsin o vurulduğu an keçirəcəyi hisləri ağla gətirmək belə mümkün deyil. Bəs, o əsgərin yerində biz olsaydıq? Danışdığımızsa sevgilimiz, anamızdırsa?***

***Bəlkə də bütün bu düşüncələr bir saniyəlik zaman intervalı olmadan ildırım sürətiylə beynimin bir guşəsidən keçir. Amma...***

***Erməni əsgəri ordadırsa, əminəm ki, bizi görsə, böyük sevinc hissi ilə vurardı. O burdadır ki, o ona görə vurar ki, bir azərbaycanlının vurulması onunçün medaldır, məzuniyyətdir, özügüvən hissidir, gələcəkdə karyerada yüksəlişdir, məclislərdə özünün və qohumlarının bu hadisədən genələ-genələ danışması, erməni tv-lərində bol-bol öz qəhrəmanlığından danışmaqdır.***

***Vuraq? Snayper başından nişan aldığını bildirir. Vur!...***

***Səngərdə əsgərlərimiz atışdan sonra ura deyə qışqırır, sevinir, sonrasa ani boşluq. Rabitə ilə koordinatı verib, məruzə edirik. Atəşkəs dövründə belə atışlar zamanı koordinat məruzə olunur, vurulmanın dəqiq olub, olmadığını gözləyirdik. Bizə lazım olan xəbərin tsədiqlənib, təsdiqlənməməsidir. Bir neçə saat gözləyir, bu hadisənin nə ilə sonuclanacağından səbrsizlənirdik. Amma nə deyilsə də, atışdan sonra onun necə yerə sərildiyinin gözümüzlə şahidi olduq, axı-deyirəm özüm-özümə.***

***Axşama yaxın rabitə ilə xəbər verilir ki, verdiyiniz xəbər təsdiqini tapıb, vurmusunuz. Sevinclər yenidən artır... Qeyd olunası xəbərdir. Həmin gecəni aşağıdan gətirtdiyim yeyib-içməklə qeyd edirik. Bir növ səngərdə bu xəbərə əsl qonaqlıq verirəm. Ölüm xəbərinə sağlıqlar deməklə. Səhv etmirəmsə, Dövlət radiousunun axşam buraxılışdır. Verilən xəbər sağlıqlarımıza qoşulur. Atəşkəs pozulub, dümən təxribatının qarşısı alınıb, düşmən hərbi qulluqçusu "..."məhv edilib.***

***(Əlbəttə, istəyən şəxslər bu adı, yeri və.s arxiv materialına əsasən əldə edə bilər. Burada bu məlumatı, adı olduğu kimi vermək həm etik, həm də bəzi məsələlərə görə, doğru olmadığından hallandırılmır)***

***Səngərin bir köşəsinə çəkilirəm. Kimsənin məni görməyəcəyi bir küncünə. Özümdən aslı olmadan ağlayıram. Bütün gecəni. Həm sevinmək, həm də ağlamaq. Axı, mən kimə ağlayıram belə? Məni ağladan kimdir, hansı hislərdir? Kimə ağlayıram belə? Ölən erməniyə, ölən sevgiyə, yoxsa nəyə? Bəlkə elə özümə? Içimdə qopan fırtınaya cavab tapa bilmirəm...***

***O gündən sonra yuxularımda kimsə, daha doğrusu, bir qız "alo, alo" deyərək qışqırır. Mənsə, təngənəfəs, tər içində oyanır, mətbəxə keçir, su içir, bəzən ağlayır, bəzənsə, siqaret yandırırdım... 2020-ci ilin sentyabrına kimi... Məni kölgə kimi izləyən, o qız, o səs qeybə çəkilib. Artıq öz əzablarımı görürəm, öz əzablarım yuxudan oyadır məni...***

***...Yenə belə əmr verə,yenə belə edərdimmi? Mütləq ki, bəli. Yenə öldürərdik, yenə bu ölüm xəbərinə qonaqlıq verərdim, yenə də səhərə kimi ağlayardım...***

Ermənistan-Azərbaycan, ərazilərin işğaldan azad olunması haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

№ 35 (2216) 3 aprel 2021-ci il

# VİDEOKONFRANS PROBLEMİN ÇÖZÜLDÜYÜNÜ BİR DAHA TƏSDİQLƏDİ



**Bu gün dünyada cərəyan edən hadisələrə nəzər salanda onda daha çox diqqəti qarşıdurmalar, siyasi dartışmalar və xüsusilə qaynar nöqtələr çəkir. Bu mənada Ukrayna və Rusiya arasındakı, Gürcüstanla Rusiya arasındakı, eləcə də Avropa Birliyi ilə Rusiyanın, Amerikanın yeni prezidenti ilə İranın və Rusiyanın, o cümlədən də Türkiyənin də cəlb edildiyi Suriya-Əfqanıstan-İraq məsələlər... eləcə də digər problemlər demək olar ki, hər gün dünya mediasının diqqət mərkəzində saxladığı mövzulardı. Doğrudur, ayrı-ayrı regional və məhəli məsələlər də medianın hər zaman gündəmində olubdu.**



Çox təəssüf ki, bizim 44 günlük müharibəmiz ilə çözümünə son qoyduğumuz Dağlıq Qarabağ problemi bu gün ayrı-ayrı qüvvələr tərəfindən yenə gündəmə gətirilib və iddia olunur ki, guya Azərbaycan ermənilərin hüquqlarını tapdalayıb, onlara təyziqlər göstərib, onlara hərbi müdaxilə edib və erməni mədəniyyət nümunələrinə, xüsusilə kilsələrə böyük ziyanlar deyibdi. Maraqlıdır ki, bu iftira mahiyyətli məqamlar Azərbaycanın əleyhidarları tərəfindən mediada da tirajlanır, hətta efirlərdə, diskusiyalarda təşkil edilir. Həmin "şou diskusiyalarda" ermənipərəst siyasətçilər nəfəs dərmədən tarixi faktları görməməzliyə vurur, özlərinə sərf edən bir şəkildə Azərbaycanın ərazi bütövlüyünə, Azərbaycan xalqının tarixinə basqılar edirlər. Bax, bütün bunlar da demokratiyanın beşiyi kimi özünü tanıtmış ABŞ-ın, həmçinin böyük dövlətlərin gözləri qarşısında baş verir. Ona görə də Azərbaycan prezidenti cənab İlham Əliyev özünün son çıxış və görüşlərində tirajlanan həmin məsələlərə münasibət bildirərək vurğulamışdı ki, "Biz öz torpaqlarımızı işğaldan azad etmişik, biz tarixi ədaləti bərpa etmişik, biz həmçinin ATƏT-in Minsk qrupunun, eləcə də beynəlxalq güclərin icra etməli olduqları vəzifəni yerinə yetirmişik. Bununla da Dağlıq Qarabağ problemi həll edilibdi. Məsələ bitib!"

Bəli, cənab presidentin də vurğuladığı kimi, kimlərinsə yenidən qabartmağa, gündəmə gətirməyə çalışdığı Dağlıq Qarabağın işğalı məsələsi artıq yoxdur. Və ötən ilin noyabr ayının 10-da imzalanmış üçtərəfli razılaşmaya əsasən Bəyanatla həm dünyaya, həm də bu məsələnin uzunömürlü olmasına çalışanlara açıq mesaj verilmişdi. Bildirilmişdi ki, bu gün Azərbaycan öz ərazi bütövlüyünü bərpa edib və özü öz ordusuyla sərhədlərini qoruyur. Elə mart ayının 31-də azərbaycanlıların soyqırımı gününə təsadüf edən Türk Dövlətləri Əməkdaşlıq Şurasının Zirvə görüşündə çıxış edən dövlət başçılarının söylədikləri fikirlərdə də bizim ifadə etdiyimiz fikir öz əksini tapmışdı. Həmin konfransda Türkdilli dövlətlərin Əməkdaşlıq Şurasının təşəbbüsçüsü olmuş Qazaxıstanın birinci prezidenti, elbaşı, Türk Şurasının fəxri sədri Nursultan Nazarbayev Azərbaycan prezidentini və Azərbaycan xalqını təbrik edərək demişdi: "Bu gün mən həm də Azərbaycan Respublikasının prezidenti İlham Heydər oğlu Əliyevi təbrik edirəm. Xüsusilə qeyd etmək istəyirəm ki, ərazi bütövlüyünün bərpa edilməsi məsələsində Türkiyə önəmli rol oynamışdı. Bu Zəfər Qələbəsi Azərbaycanın və Azərbaycan xalqının uzun illərdən bəri davam edən mücadiləsinin yekunudur. Ona görə də biz hamımız bu prosesi həyəcanla izləyir və nəticələri gözləyirik. Ələbttə ki, Azərbaycanın öz ərazi bütövlüyünü bərpa etməsi və Rusiyanın dəstəyilə Bakı və Yerevan arasında imzalanmış sülh razılaşması B öyük İpək Yolunun çiçəklənməsi üçün yeni imkanlara yol açır."

Bəli, Azərbaycana və Azərbaycan xalqına həmişə sevgi və sayğı ilə rəğbətini ifadə edən dünyanın tanıdığı siyasi liderlərdən olan Nursultan Nazarbayevin söylədiklərindən də aydın olur ki, erməniпərəstlərin bütün canfəşanlıqlarına baxmayaraq, Azərbaycan xalqı özünü Vətən müharibəsiylə torpaqlarını azad edibdir. Deməli, istər telekanallarda, istər mediada, istər sosial şəbəkələrdə belə aparılan təxribatlara baxmayaraq, artıq dünya məsələnin bütün mahiyyətini görüb və bilir. Bu mənada həmin Zirvə görüşündə çıxış edən Azərbaycan Prezidentinin də vurğuladığı kimi, "Bu gün fürsətdən istifadə edərək İkinci Qarabağ müharibəsi haqqında məlumat vermək istəyirəm. Bildiyiniz kimi, 30 ilə yaxın müddət ərzində Ermənistan Azərbaycanın beynəlxalq birlik tərəfindən tanınan ərazilərini işğal altında saxlayırdı. Xalqımıza qarşı etnik təmizləmə siyasəti aparmışdı. Ermənistan Azərbaycana qarşı soyqırım törətmişdi. 1992-ci ildə törədilən Xocalı soyqırımı nəticəsində 600-dən çox günahsız dinc insan vəhşicəsinə öldürülmüşdü. Onların arasında 106 qadın, 63 uşaq vəhşicəsinə qətlə yetirilmişdi".

Ölkə başçısı çıxışı zamanı məsələnin tarixi köklərinə istinad edərək xatırlatmışdı ki, BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi 4 qətnamə, eləcə də ATƏT-in, Qoşulmama Hərəkatının, İslam Əməkdaşlıq Təşkilatının, Avropa Parlamentinin, Avropa Şurası Parlament Assambleyasının və digər nüfuzlu qurumların Azərbaycan həqiqətlərini tanıyıb haqlı mövqeyini qəbul etsələr də, bütün bunlar işğalçıya təsir etməmişdi. Onlar işğal etdikləri torpaqlardan çəkilməmişdilər. Əksinə, xalqımıza qarşı barbar siyasəti yeridərək bu ərazilərdəki tarixi abidələrimizi, maddi-mədəni sərvətlərimizi talan etməklə bahəm, həm də onları uçurub dağıtmış, yerlə yeksan etmişdilər. Elə məsələnin bu məqamında Ali Baş Komandanımız qeyd etmişdi ki, "1992-ci ildə ATƏT-in Minsk qrupu yaradılmışdı. 28 il fəaliyyət göstərən Minsk qrupunun nəticələri sıfıra bərabər olmuşdu. Halbuki Minsk qrupuna həmsədrlik edən ölkələr dünyanın aparıcı ölkələridir, nüvə dövlətləridir, BMT Təhlükəsizlik Şurasının daimi üzvlərdidir. Əgər onlar Ermənistana qarşı ciddi təyziqlər göstərsəydilər və Azərbaycanın tələbini nəzərə alıb sanksiyalar tətbiq etsəydilər, məsələ çoxdan sülh yolu ilə öz həllini tapardı".

Həmin konfransda çıxış edən Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan birmənalı şəkildə bildirmişdi ki, "22 gün davam edən dastanabənzər mübarizədən sonra 30 illik işğal sona çatıb. Dağlıq Qarabağ ana vətənlə yendən qovuşub. Ancaq deməliyəm ki, Qarabağ bölgəsindəki 67 məsciddən 63 dağıdılıb, həmçinin kilsələr də yerlə yeksan edilibdi" fikirlərinin davamı kimi Türkiyə prezidenti onu da vurğulayıb ki, arzum budur ki, ən qısa zamanda - Ramazan bayramından sonra qardaşımla birgə Şuşanı ziyarət edək, İnşallah, burada yeni bir bayram yaşayaq!".

**Bəli, elə bu Zirvə görüşünün materialları ilə dünya mediasında tanış olan hər kəs problemin bütün mahiyyətinin və çözümünün başa çatdığını yəqin ki, anlaya bilər.**

*Əbülfət MƏDƏTOĞLU*

AZƏRBAYCAN RESPUBLİKASININ MEDİANIN İNKİŞAFI AGENTLİYİNİN MALİYYƏ YARDIMI İLƏ

# Ağdamlı "Fidel Kastro"

## Keçmiş döyüşçü Nemət İbrahimovun müharibə xatirələri

**Azərbaycan tarixinin bütün dövrlərində baş verən müharibələr, o cümlədən Qarabağ savaşı göstərdi ki, Azərbaycanın igid və cəsur oğulları, qeyrətli və qorxmaz qızları yenə də yetərincədir. Bir sözlə, hər zaman torpağımıza diş qıcartmış düşmənə cavab verəcək, onu yerində oturdacaq vətənpərvər igidlərimiz olub, olacaqdır. Bu günki, müsahibim Nemət İbrahimov da I Qarabağ müharibəsində xüsusi igidlik, şücayət göstərən eloğullarımızdandır. Hesab edirəm ki, onunla söhbətimiz sizində marağınıza səbəb olacaq:**

**-Nemət bəy, əvvəlcə özünüz haqqında qısa bir məlumat verin ki, oxucularımız sizi tanısınlar...**

- Mən 1952-ci ildə Ağdamda anadan olmuşam. Orta təhsilimi bitirdikdən sonra 1972-1975-ci illərdə Odessada hərbi xidmət keçdim. Əsgərlikdən qayıtdıqdan sonra 1990-cı ilədək Yevlax şəhərində 4 nömrəli avtobazada yük maşını sürücüsü işlədim. Həmin il avtobaza fəaliyyətini dayandırdıqan sonra Ağdama qayıtdım.





**- Və müharibə başladı...**

-Azərbaycanlı olan, qarabağlı, ağdamlı çağırılan heç bir kişi erməni kimi miskin, qorxaq, dilənci bir millətin başından yekə torpaq iddiasına etinasız qala bilməzdi. Biz də qala bilmədik. Qarabağda ”Karate Şahbaz” ləqəbi ilə tanınan qardaşım Şahbaz, onun oğlu Ceyhun, bacımoğlanları Tahir və Məzahirlə birlikdə Milli Qəhrəman Allahverdi Bağırovun könüllülər dəstəsinə qoşulduq. Ağdamın bir çox kəndlərinin, o cümlədən, Aranzəmin, Pircamal və Naxçıvanik kəndlərinin ermənilərdən təmizlənməsində və müdafiəsində iştirak etmişik. Həmin döyüşlərdə qardaşım Şahbazla mən qəlpə yarası adıq, bacımoğlu Məzahir Bayramov şəhid oldu.

**- Müharibə dövründə başınıza elə bir hadisə gəlibmi ki, indi də yadınıza düşəndə həyəcan, qəzəb hissi kecirirsiniz, təəssüflənirsiniz?**

-Müharibə müharibədi. Ölümdü, dağıntıdır, itkidir, faciədir.1992-ci ildə Pircamal kəndi uğrunda gedən döyüşlər zamanı 13 nəfər mühasirəyə düşdük. Həmin döyüşdə 3 nəfər yaralandı, bir döyüşçü yoldaşımız isə şəhid oldu. Qeyri-bərabər qüvvələrlə döyüşmək çox çətinidi. Ona görədə,geri çəkilmək məcburiyyətində qaldıq. Qərara gəldik ki, döyüşçü dostumuzun nəşini sonra gəlib aparaq. Yaralıları düzəltdiyimiz xərəklərə uzadıb və uzun məsafəni taxıl zəmilərinin içərisindən sürünə-sürənə keçməklə, öz mövqelərimizə çatdıq. Həmin vaxtlarda Allahverdi Bağırov şəhid olduğu üçün bizim könüllülər batalyonuna ”Baba”ləqəbli Barat Quliyev komandirlik edirdi. Onun əmriilə 12 nəfər döyüşçü şəhid yoldaşımızı götürmək üçün yenidən Pircamala getdik. Əraziyə bir neçə metr qalmış pusquda durmuş ermənilərlə rastlaşdıq. Amma biz çökəklikdə olduğumuz üçün onlar bizi görə bilmədilər. Lakin şəhid olmuş döyüşçümüzün cəsədinə yaxınlaşa bilmədik. Çünki ermənilər meyitin yaxınlığındakı ağaca it zəncirlənmişdilər ki, biz gələndə it hürsün və ermənilər bizi mühasirəyə alsınlar. Ona görə də, geri qayıtdıq. Sonradan şəhidimiz erməni meyitiilə dəyişdirildi.. .Hər dəfə bu hadisə yadıma düşəndə özümü günahkar hesab edirəm, təəssüf hissi kecirirəm. Amma təəssüflərim təkcə bununla bitmir ki...

**-Daha nələr sizə ağır təsir edib?**

-Əslində bizə düşmənçilik edən ermənilər deyildi. 70 il ”böyük qardaş” bildiyimiz bir millətin nümayəndələri idi. Qarabağın, Ağdamın ermənilər tərəfindən zəbt edilməsi fikri ilə razılaşmıram. Hamımız bilirik ki, ermənilərin buna cəsarəti çatmazdı. Biz Aranzəmin, Pircamal və Naxçıvannik kəndlərini ermənilərdən təmizlədikdən sonra orada öz mövqelərimizi möhkəmlətdik. Amma sonra bizim postlarımız, səngərlərimiz olan ərazilər tank, BMP və minamyotlarla atəşə tutuldu. Əslində mərmilər bizim postlara və səngərlərə deyil, onların sağ, sol və arxa tərəflərinə atılırdı. Bununla da bizə xəbərdarlıq edirdilər ki, postları tərk edək. Ermənilər heç vaxt bunu etməyiblər. Əllərinə imkan düşəndə səngərlərimizi hədəf alırdılar.Bu erməni üsulu deyildi. Biz onların ruslar olduğunu sonradan anladıq. Mərzili kəndi uğrunda döyüşlərdə bir erməni tankını partlatdıq. Onun içərisində bir rus polkovniki və xarici ölkədən gəlmiş bir erməni cəsədi var idi. Onların üzərlərində tapdığımız sənədlərdə adları, soyadları, yaşadıqları ölkələr və hərbi rütbələri yazılmışdı. Bir dəfə də Mərzilidəki döyüşlərdə 14 nəfər döyüşçünü öldürdük. Onların komandirini isə əsir götürdük. Hərbi məktəb bitirərək, baş leytenant rütbəsi almış bu komandir rus idi. Deyirdi ki, həyat yoldaşı da rusdur və ailəsi İrəvanda yaşayır.

**- Maraqlıdır, ölümlə necə deyərlər, göz-gözə dayanmısınızmı?**

-Döyüşdə olanlar bilir, ölüm hər an gözləniləndir. Müharibədəsənsə, demək ki, ölümün qucağındasan. Hər şey qalır əzrayilin mərhəmətinə, ya qucağındakını aparır, ya da müvəqqəti buraxır.(gülümsəyir) Mərzili kəndi işğal olunan ərəfədə kənd əhalisini traktorlara mindirərək, dərə boyunca ərazidən uzaqlaşdırmağa çalışırdıq. Bu vaxt təpənin üstündə dayanan BMP lüləsini bizim traktora tuşladı. Düşündüm ki, hər şey bitdi. Amma nədənsə atəş açılmadı. Bir neçə dəqiqədən sonra BMP qəfil dönərək, Mərzili kəndini atəşə tutmağa başladı. Sonra yenə lüləsini bizə sarı tuşladı. Bu hal bir neçə dəfə təkrarlandı. Biz anladıq ki, BMP-nin ekipajındakılar ruslardır və onlar sadəcə, bizi öldürmək yox, kəndi tərk etməyimizi istəyirlər. Əlimdə avtomat olanda ölüm ağlımın ucundan da kecməyib. Amma orda ölümün soyuqluğunu dərindən dərk etdim.

**-Ağdamlıların coxu sizi ”Fidel Kastro” ləqəbi ilə tanıyır. Bu ləqəb nəylə bağlıdır?**

-1992-ci ildə bizim batalyona Bakıdan mədəniyyət işçiləri konsertlər verməyə gəlmişdilər. Aralarında rəssamda vardı. Adını unutmuşam. Mən o vaxt saqqalı olduğumdan həmin rəssam məni Kubanın əfsanəvi lideri Fidel Kastroya bənzəti, dedi ki, sən Fidel Kastroya çox oxşayırsan. Elə o vaxtdan döyüşçü yoldaşlarım məni bu adla çağırdılar. Həmin rəssam şəklimi rəhmətlik kinorejissor və aktyor Ceyhun Mirzəyevə göstərib. O da məni filmə dəvət etdi. Goranboy rayonunda çəkilən ”Fəryad” filmində erməni rolunu oynadım.

**-Nemət bəy, silahdaşlarınızdan biri söylədi ki, döyüş vaxtı ermənilərin bir UAZ-ını ələ keçirmisiz, doğrudurmu?**

-Hə, doğrudur! Döyüş vaxtı ermənilərin bir zabitini məhv etdik və onun xidməti maşını olan UAZ-ını hərbi qənimət kimi ələ keçirdik. Hətta 1 il həmin avtomobili batalyonun xidməti işlərində istifadə edildi. Sonra komandir həmin UAZ-ı mənə bağışladı. Düz 17 il həmin UAZ-I sürdüm. Sonra satıb ”QAZel” aldım və onunla çörək pulu qazanıram.

**-Nemət bəy, yaşamağa eviniz, dolanışığınız, bir-birindən nümunəvi 3 övladınız var.Həyata kecməyən arzunuz qalıbmı?**

-Əslində bütün şəxsi arzularıma catmışam. Məni xoşbəxt insan adlandırmaq olardı. Amma düz 28 il torpağı düşmən tapdağında, günahsız soydaşları əsirlikdə, şəhidlərin qisası alınmadığı halda mən özümü xoşbəxt hiss edə bilərdimmi? 28 ildə hər gün ən böyük arzum yenidən əlimə silah almaq oldu, itirdiklərimizi: Ağdamı, Şuşanı, Lacını, Kəlbəcəri, külli-Qarabağı yenidən qazanmaq oldu! Həm də sülh yolu ilə deyil, müharibə gücü ilə! Mən inanırdım ki, o gün gələcək. Həm də lap tez gələcək! Şükür bu günə!

**- Maraqlı müsahibəyə görə təşəkkür edirik!**

**Əntiqə Rəşid**

---

***İlham İsmayıl***



# Rusiyadan gəlmisən, keç yuxarı başa...

*Yenə gəldi aprel ayı, erməni hamıya naz eyləyir. Hər aprel ayı gələndə ermənilərin çox sevdiyi "genosid" sözü gözləri yağır edir. Hava proqnozundan məlumatı verəndə də hansısa şəkildə olmayan "genosid"lə əlaqələndirirlər. Amma, bu aprel əvvəlkilərdən fərqlənir. Qarabağı işğalda saxlamağın 30 illik keyfinə son qoyulandan sonra ermənilər daha çox əzabkeş roluna girməyə başlayıblar. Buna səbəb həm də ABŞ-ın yeni prezidenti Baydendir. Ermənilər ABŞ-da hər təzə prezident seçiləndə ümid edirlər ki, yeni prezident qondarma "genosid"i tanıyacaq.*

*"Genosid" şousu erməni xəstəliyinin tərkib hissəsidir, bu öz yerində, Türkiyə də, biz də buna adət etmişik. Bizi, konkret olaraq keçmiş Dağlıq Qarabağda baş verənlər daha çox narahat etməlidir. Və bu narahatlığı yaradan, qəribə olsa da, birbaşa erməni deyil.*

*Keçmiş Dağlıq Qarabağ hərbi şəhərciklər məskəninə çevrilir. Rusiya Müdafiə nazirinin müavini Bulqakov Xankəndinə gəlib hərbi şəhərciyin açılışında iştirak etmək üçün. Laçın dəhlizi bütün Rusiya vətəndaşlarına açıq olduğundan buradakı dövlət sərhədindən Solovyov da gələ bilər, Marqarita Simonyan da müdafiə nazirinin müavini Bulqakov da... Sabah ikili vətəndaşlığı olan Lapşin də Laçın dəhliuzindən keçib Xankəndinə gəlsə heç təəccüblənməyin. Əvvəllər Qarabağa bizdən izinsiz gələn qara siyahıya salınardı, indi o da yoxdur, indi deyirlər ki, Rusiyadan gəlmisən, "keç yuxarı başa".*

*Əsas odur ki, hamı ora gedə bilir, biz gedə bilmirik. Sülh yaratmağa gələnlər bizlə ermənilər arasında sülh yaratmaq üçün heç nə etmirlər, əksinə qızışdırıcılıq elementləri daha çoxdur. Rusiya 44 günlük müharibədən sonra ermənilərlə Ruysiya arasında yaranmış narazılığı aradan qaldırmaq üçün dəridən qabıqdan çıxır. Ermənilər Rusiyanı guya xəyanətdə suçlayır, Rusiya da bəraət qazanmaq məqsədilə bizi, bizim maraqlarımızı güdaza verir. Məsələn, Azərbaycana qeyri-rəsmi tapşırılıb ki, qaçqınlarınızın keçmiş Dağlıq Qarabağa köçürülməsi məsələsini dilinizə də gətirməyin, erməni inciyər, köçüb gedər. Yoldan istifadə etməyin, erməninin də şərti var. Ümumiyyətlə, qarşıdakı beş ildə azərbaycanlıların Şuşaya, Ağdərəyə, Xocavəndə, Xocalıya köçməsi olmaz. Növbəti beşillikdə bu barədə müzakirə etmək olar. O zaman da status məsələsini Minsk Qrupu ilə birlikdə həll edərlər. Bu nə deməkdir? Rusiya sülh yaratmır, bizə etimadsızlıq, özünə etimad formalaşdırır. Sabah Rusiya pasportları Qarabağ ermənilərinə paylansa təəccüblənməyin.*

*Rusiyanın bu qayğısı nəticəsində Araik Arutunyan "ən azı keçmiş DQMV-in ərazi bütövlüyü" bərpa olunmalıdır bəyanatını bu gün verib. Ermənistanın Baş qərargah rəisi Artak Davtyan sülhməramlıların komandiri Rüstəm Muradovu çağırıb "hərbi əsirlərin qaytarılması" məsələsini müzakirə edir. Rüstəm Muradov atəşkəsə nəzarət edir, yoxsa Beynəlxalq Qırmızı Xaç Komitəsinin rolunu oynayır? Belə sülh yaradandırsa bizim maşın karvanının Ağdərədən keçməklə Kəlbəcərə getməsini niyə təmin etmirlər? Adı sülhməramlı olanlar bizim maşın karvanını müşayət etməkdə bu qədərmi gücsüzdürlər? Yox, bu şəraiti elə onlar özü yaradıb.*

*Artak Davtyan bu gün Rusiya Müdafiə Nazirliyinin Baş Qərargah rəisi Valeri Gerasimovla da telefon danışığı aparıb və hər iki tərəf " sülhməramlı əməliyyatların keçirilməsinin zəruriliyini" qeyd ediblər. Sülhməramlı əməliyyat harada sülh yaradacaq? Bu əməliyyatın kimə qarşı keçirilməsi planlaşdırılır?*

*İndi də bu " İsgəndər" qalmaqalı. Bu raketin Şuşaya atıldığını həm Nikol Paşinyan, həm general Movsesyan, dolayısı ilə Serj Sarkisyan da təsdiq etdi. İndi də bizim ANAMA. Bəs, "İsgəndər-M" raketi Ermənistana verilməmişdi? O zaman məlum olur ki, biz hansı təhdidlərlə üzləşmişik və gecə ilə atəşkəs bəyanatı imzalanıb. Bunun başqa adı varmı?*

*Rusiya Zatulinin dili ilə desək "Qarabağa əbədi qayıdıb" və bu prinsip ilə siyasət aparır. Azərbaycan üçün bu siyasətin qarşısını almaq tamamilə mümkündür və qardaş Türkiyə ilə birgə fəaliyyət bu istiqamətdə uğur gətirə bilər. Amma, "Monitorinq Mərkəzi" ndəki fəaliyyət kimi yox.*



Faiq QİSMƏTOĞLU
faiqqismetoglu@box.az

# SÜLH GÖYƏRÇİNİ

... Oxucu elə bilməsin ki, mən hansısa bir təmsil qələmə alıram, yaxud da məhşur təmsilçilərin təmsilini xatırlayıram. Yox, bu əsla belə deyil! Və əgər bir hadisəni görməsəydim, şahidi olmasaydım, heç bu yazı da qələmə alınmazdı. Gördüyüm hadisə məni necə silkələdisə, necə narahat etdisə, necə düşündürdüsə, qərara aldım ki, bu yazını qələmə alım və sevgili oxucularıma da çatdırım...

... Hər gün evimizin yanındakı stadiona gedir, orda sürətlə yeriyir, yekəlik olmasın, idman hərəkətlərini təkrarlayır, düz bir saat hərəkətdə oluram. Və bu bir saat həmişə məni gün ərzində çox gümrah və şux saxlayır. Hətta bu idman hərəkətlərindən sonra özümü cavan oğlan kimi hiss eləyirəm. Burda bir "tfu" deyim ki, göz dəyməsin!

Qonşumuzda Ədalət adlı bir dostum var, çəkisi də 170 kiloqram olar. O da deyir ki, müəllim, sən Allah, idman eləyəndə mənə de, gedim səninlə bir yerdə yeriyək. Mən də hər dəfə gedəndə qonşumu səsləyirəm, o isə "get, gəlirəm!" - deyir. Ancaq gözləyirəm, gəlib çıxmır ki, çıxmır. Sonra da mənimlə görüşəndə gülür və səslənir ki, müəllim, iradəm çox zəifdi, sən Allah məni bağışla! Neçə dəfə söz vermişəm, gəlməmişəm. Görürəm arıqlamaq əvəzinə çəkim bir az da artıb. Məsələn, bayramdan sonra olmuşam 175 kiloqram.

Indi mənim dostum Ədalətə lap yazığım gəlir. Əgər yeriməsə, hərəkət eləməsə, bu çəki bir az da artacaq, bir az da ağırlaşacaq, bir az da yeriyəndə, duranda əziyyət çəkəcək. Hər halda, Allah onun köməyi olsun!..

... Axı stadionda gördüyüm hadisəni danışmaq istəyirdim. Hə, gəldim stadiona, bir neçə dövrə vurdum və həmin günü də orda adam çox az idi. Səhv eləmirəmsə, bir qız var idi. Mən də o qızdan qabaqda gedirdim. Bir də gördüm bir qarğa altına salıb bir quşun başını dimdikləyir. Əvvəl elə bildim dən yeyir. Bir az yaxınlaşanda gördüm ki, bu dən deyil, qarğanın ayaqları altında qalan və dimdiklənən göyərçindi. Tez özümü ora çatdırdım. Bir daş götürüb qarağaya atdım, qarğa qarıldayaqarıldaya uçub yaxınlıqdakı hündür ağacın lap hündür budağına qondu və başladı orda yenidən qarıldamağa...

... Göyərçinsə al qanın içindəydi, güclə çabalayırdı. Qarğa onun boynuna o qədər dimdik vurmuşdu ki, boynu dərmə-deşik olmuşdu. Hətta asfaltın üstündə nə qədər qan vardı. Quşu ovcuma alıb kənarda sarmaşıqla ot qarışıq yumuşaq bir yerə qoydum. Hələ mən nə az, nə çox düz 50 dəqiqə gəzməliydim. Quşu kənara qoysam da gözümü ondan çəkmirdim. Göyərçini dimdikləyib ölümcül vəziyyətə salan qarğa isə yenə hündür ağacın budağında dayanıb qarıldayırdı. Yerdən bir daş götürüb ağaca sarı tulladım. Qarğa uçub getdi. Hər dəfə fırlanıb həmin yerə çatanda görürdüm ki, o qarğa yaralı göyərçini axtarır. Yenidən daşı götürüb ona sarı atırdım.

... Bu dəfə o qarğa gedib bir az aralıdakı ağaca qondu. O qarıldadıqca digər qarğalar da onun səsinə səs verir, ətrafda uçur, sanki o quşun qanına yerikləyirdilər. Beş-altı qarğa məktəbin üstündəki dama qonub orda yenidən qarıldamağa başladı. Bu dəfə də daş götürüb onlara sarı atdım. Sanki bu yazıq göyərçinin bütün qarğalar ölümünü gözləyirdi. Hələ indiyə qədər belə bir hadisə görməmişdim...

... Bir saat başa çatandan sonra sarmaşığın və otların arasında gizlətdiyim göyərçini götürüb evimizə yollandım. Dedim bəlkə onun yarasını yuyub, yod vurub təmizləyərik və göyərçin sağalar. Yolda qabağıma usta Tahir çıxdı. Dedi ki, "Mirzə, bu nədi belə, səhər-səhər əlində aparırsan? Göyərçindir, qarğa bunu qanına qəltan eləyib. Aparıram ki, bəlkə evdə onu müalicə edib sağaldaq". O da təəssüf hissilə dedi ki, yazıq göyərçin, gör səni ala qarğa nə günə salıb...

... Quşu gətirdim evimizə. Xanımım onun vəziyyətini görüb çox məyus oldu. Hətta nəvəm Sədaqət də dedi ki, yazıq göyərçin qanın içindədi. Dədə, gəl bunu dərmanla yuyaq, sonra da yod vuraq, bəlkə sağaldı. Göyərçini dərmanla yuduq, yaralı boynuna yod sürtdük, hava da soyuq olduğu üçün eyvanda deyil, elə mətbəxdə bir yer düzəldib qabağına da dən qoyduq. Qanadı tərpəndikcə nəvəm sevinirdi. Dədə, elə bil quş tərpənir. Qoy bir az da qabağına su qoyaq. Qabda su da qoydular. Göyərçin bir neçə dəfə dəni dimdiklədi, sudan içdi və sonra da yorulubmuş kimi hərəkətsiz qaldı. Dedik yəqin bir azdan özünə gələr...

... Axşamüstü isə hamımızın qanı qaraldı. Quşa gəlib baxanda gördük ki, canını tapşırıb. Xanımım, oğlum, nəvəm, hamımız kədərləndik. Öncədən xanımım quşa baxanda dedi ki, bunun salamat yeri yoxdu. Qarğa o qədər başından dimdik vurub ki, hər tərəfi dərmə-deşik olub. Amma ümidimizi üzmədik, dedik əlimizdən nə gəlir, onu eləyək...

... Göyərçin quşların ən sevilənlərindəndir. Çünkü bu quşlar həm də sülh rəmzi kimi tanınır. Düzdür, evimizə gətirdiyim o yaralı quş ağ deyildi, göyə və qaraya çalırdı. Amma yenə ölən göyərçin idi. Daha doğrusu, qarğa tərəfindən dimdiklənib öldürülən göyərçin! Nəvəm Sədaqət həmin gündən qarğalara nifrət eləyir. Deyir dədə, bu qarğa göyərçini öldürürsə, deməli, o həm də işığın, sülhün, azadlığın düşmənidi. Nəvəmin həddindən çox kədərləndiyini görüb dedim:

- Sədiş, həyat belədi, həmişə güclülər zəifləri ya basıb yeyib, ya da öldürüb. Yəni kim güclüdürsə, həyatda o qalır. Xüsusən də heyvanlar aləmində biri başqasını yeməsə, ya acından öləcək, ya da vəziyyəti ağır olacaq.

... Bütün canlılar yaşamaq uğrunda mücadilə eləyir. Amma elə canlılar var ki, onları insanlar qorumalıdır. Və çox vaxt da bunun şahidi oluram. Ən azından hər gün işdən evə qayıdanda AMEA-nin qarşısında çoxlu sayda göyərçinlərin o yan, bu yana uçduğunu görürəm. Yaşlılar, gənclər, yeniyetmələr o göyərçinlərə elə gün olmaz ki, dən verməsinlər və qabaqlarına qida səpməsinlər.

...Və o göyərçinlər də çox böyük sevgiylə səpilən dəni bir-bir dənləyir, hətta insanların çəkinməyərək düz onların ayaqlarının altına qədər gəlirlər. Bilirlər ki, heç kim onlara dəyməyəcək... bilirlər ki, onlara dən səpən adamlar o quşları çox sevir... bilirlər ki, göyərçinlər sülh və sevgi rəmzidir! Ən azından ona görə ki, o göyərçinlər səmada uçanda, yerdə olanda dünyaya bir gözəllik gətirir.

... Gəlin, dünyaya bu gözəllik gətirən təbiətin bütün heyvanlarını və quşlarını qoruyaq və sevək. Xüsusən də biz insanlara daha çox yaxın olan və hətta gəlib ayağımızın altında dayanan göyərçinlərə sevgimiz və məhəbbətimiz bir az da artmalıdır. Çünki bütün canlılar kimi, onlar da insanlardan nəvaziş, sevgi və mərhəmət istəyirlər. Mərhəməti olan insan isə həmişə sevilir...

# Alparslan Türkeşin ölümündən 24 il keçir

## Hulusi Turqutun xatirələri

**Alparslan Türkeş... 27 May 1960 İnqilabının Qüdrətli Polkovniki və sonrakı illərdə Türk siyasətinin ən rəngli simalarından biri idi.**

**Türkeş idealist, milliyyətçi, yurdsevər bir siyasət adamı idi.**

Ankara radiosunda "Silahlı Qüvvələr"in rəhbərliyi ələ keçirməsini açıqlayan "İnqilab bəyannaməsi"ni qalın və gur səsilə Türkeş oxumuşdu.

O, artıq İnqilabın Qüdrətli Polkovniki olmuşdu.

***Ancaq bir müddət sonra inqilabçılar iki qrupa bölündülər. 13 noyabr 1960-cı il bazar günü basqın edilən qrup 14 inqilabçı dostunu həbs etdi. Ardınca sürgün etdilər. Türkeş sürgün edilənlərin başında idi və Hindistanın paytaxtı Yeni Dehliyə sürgün edilirdi.***

Türkeş 3 il sürgündə oldu. 1963-cü ildə Vətənə qayıdan kimi xüsusi dəvətlə Respublikaçı Kəndli Millət Partiyasına üzv seçildi. Partiyanın sədri Osman Bölükbaşı sədrlikdən istefa verdiyi üçün qurultay keçirildi və nümayəndələr İnqilabın Qüdrətli Polkovniki Türkeşi sədr seçdilər.



Türkeş bir müddət sonra partiyanın adını Milliyətçi Hərəkat Partiyası olaraq dəyişdi. "Üç hilal" emblem edildi və Türkeş "Başbuğ" oldu.

***Bu gün AKP-nin ortağı olan və iqtidar partiyasını dəstəkləyən milliyətçi MHP 58 il əvvəl belə quruldu.***

***Alparslan Türkeş 1917-ci ildə Kiprdə doğulmuşdu.***

Türkeşin ailəsi 1930-ci illərin əvvəllərində Kiprdəki iki evini sataraq Türkiyəyə köçməyə qərar verdi. Kipr ingilis hegemonluğu altında olduğu üçün ailə Türkiyəyə ingilis pasportu ilə girdi. Qəzetçi-yazar Hulusi Turqut Türkeşi yola gətirib onun xatirələrini yazmağı bacaran ilk qəzetçidir. Türkeş Hulusi Turquta Türkiyəyə necə köçdüklərini belə danışmışdı: "Bir sərnişin gəmisilə Kiprin Larnaka limanından ayrılarkən göyərtəyə çıxıb adaya baxaraq içimi çəkdim, "Buranı əlbəttə bir gün azad edəcəyik" deyə dodağımın altında mırıldandım.

***Vətən torpaqlarına ilk addımımızı Topxana ətraflarında atdıq və dincimizi Sirkəçidəki Səadət Otelində aldıq. Heç vaxt itirmədən ailəmizin ev tutub İstanbula yerləşməsini və dərhal Kuleli Hərbi Liseyinə yazılmağımı istəyirdim.***

İstanbuldakı keçən ikinci gün Çəngəlköyə gedib "Qeyd Qəbul Komissiyası"nı tapdıq. İşçisi Muzafferettin bəy ilə aramızda bu dialoq baş tutdu:

***- Siz Türk deyilsiniz. Sizi qəbul edə bilmərəm!***

***- Bəy əfəndi, biz Türk oğlu Türkük!***

***- Amma pasportunuz ingilis pasportudur.***

***- Qəbahət sizdədir. Bizi ingilislərin əlinə verdiniz!***

***- Övladınızı qeydə ala bilmərik, buyurun, gedin!***

Bu hadisə mənə çox pis təsir etdi. Dostlarımız işə qarışdı. CHP İzmir müavini Sırrı bəylə tanış olduq. O, Baş qərargah rəisi marşal Fevzi Çakmak ilə görüşmüş, Çakmakın əmrilə ingilis vətəndaşı olmağıma rəğmən "müvəqqəti" qeydilə Kuleli Hərbi Liseyinə qəbulum baş tutmuşdu. Daha sonra Türkiyə Respublikasının vətəndaşı olunca əsl qəbulum da reallaşdı.

Alparslan Türkeş sürgünə göndərildiyi Hindistandan qayıtdığı günlərdə palkovnik Talat Aydəmir onu "yeni bir inqilab edəcəyik, sən də bizə qoşul" deyə xuntaya girməyə dəvət etdi. Türkeş təklifi rədd etdi.

Bir il əvvəl 22 fevralda uğursuz inqilab cəhdi edən və dövrün Baş Naziri İsmət İnönünün səyləri nəticəsində Məclis tərəfindən əfv edilən polkovnik Talat Aydəmir 21 may 1963-cü ildə (Türkeşin qoşulmağı rədd etdiyi) ikinci çevriliş təşəbbüsünə əl altdı. Yenə uğursuz oldu və həbs olundu. Həbs olunanlar arasında Alparslan Türkeş də vardı. Mamakdakı Hərbi Tribunalda edam cəzası ilə mühakimə olundular.

Uzun həbsxana həyatından sonra Türkeş azadlığa çıxdı.

***Hərbi Akademiyanın komandiri olan inqilabçı polkovnik Talat Aydəmir isə edam edildi.***

1980-ci ildə 12 sentyabr hərbi çevrilişi baş tutdu. Türkeş daha sonra "Kenan Evrən çevrilişi" deyə anılan bu çevrilişdən necə xəbər aldığını Hulusi Turquta belə danışır:

"MHP-ni ölkə çapında inkişaf etdirərkən koalisiya hökümətlərində də vəzifə aldıq. 11 sentyabr çərşənbə axşamı Bahçelievlərdəki partiya binasından çıxdım, evimə gedirdi. Bir hərbi maşın bizi saxladı. Əsgərlər məni tanıyırdılar. İçlərindən biri:

"Komandir, Kenan Evrən bu axşam inqilab edəcək"- dedi.

Həqiqətən gecə yarısı çevriliş hərəkatı başladı. Bütün siyasi liderləri tuturdular. Evimdən 500 metr o yanda yaşayan bir dostumun evində 3 gün qonaq olduq. Daha sonra təslim oldum. Məni təyyarə ilə İzmirə apardılar. Oradan helikopterlə Uzunadaya yolladılar. Adada 20 gün qaldıq. Bu müddətdə Ərbakanla da qarşılaşdıq.

Daha sonra bizi yenidən Ankaraya apardılar. İstintaq başladı, sorğuya girdim. Qarşımda 22 dövlət ittihamçısı var idi. Bunlardan sadəcə 6-sı sivil idi. Ərbakanı buraxdılar, məni tutdular!".

Alparslan Türkeş 12 sentyabr çevrilişinin ardınca 3 il yarım həbs cəzası çəkəndən sonra azadlığa çıxdı, yenidən siyasi həyata qayıtdı.

4 aprel 1997-ci ildə vəfat edəndə 80 yaşı var idi.

**Dəfn mərasimində Türk dünyanın bütün öndə gedən insanları var idi.**

**Dilimizə uyğunlaşdıran Eminquey**

**Mənbə: "Sözçü" qəzeti, Rahmi Turanın "Ölümünün 24-cü yılında ALPARSLAN TÜRKEŞ" yazısı**

## "Duzdan istifadə məhdudlaşdırılmalıdır"



**Bir çox insanlar yüksək təzyiqdən əziyyət çəkirlər. Elmi dildə arterial hipertenziya adlandırılan bu xəstəlik ürək-damar patalogiyalaından biri olub, kəskin baş ağrıları, baş gicəllənmələri, bəzən isə burundan qanaxmalarla müşahidə edilir. İnsanların normal təzyiqi əsasən 120-80 mm civə sütunu səviyyəsində olmalıdır. Əgər təzyiq davamlı olaraq bu göctəricidən yüksəkdirsə, bu hipertenziyanın əlamətlərindən biri hesab edilə bilər. Bəs necə etməliyik ki, təzyiqimiz yüksək olmasın? Azərbaycan Tibb Universitetinin Tədris Terapevtik Klinikasının kardioloqu Sona Qəhrəmanovanın sözlərinə görə, yüksək təzyiqin olmaması üçün ilk növbədə duzdan istifadə məhdudlaşdırılmalıdır: "Ölkəmizdə insanlar xörək duzunu çox miqdarda istifadə edirlər. Duzdan istifadə gün ərzində 1 çay qaşığından çox olmamalıdır. Bu cür dietik tədbirlərin aparılması bir çox hallarda, hətta heç bir medikamentoz terapiya etmədən qısa müddətdə təziqin 15-20 mm civə sütunu qədər düşməsinə səbəb olur. Bir dəfə mənim bir tələbəmin təzyiqi qalxmışdı. Biz onun təzyiqini ölçdük və gördük ki, həddən artıq çoxdur. Araşdırma etdikdə məlum oldu ki, o, bir gün əvvəl-axşam duzlu balıq yeyib və bol maye qəbul edib. Maddələr mübadiləsi yaxşı getmədiyi üçün onun təzyiqi qalxmışdı.**

Bütün dünyada qəbul olunmuş normativlərə əsasən normal arterial təzyiq 120-80 və ya 140-90 mm civə sütunu səviyyəsində hesab olunur. 140-90 mm civə sütunundan yüksək təzyiq artıq arterial hipertenziyadır. 140-90-dan yuxarı olan təzyiq mütləq medikamentoz terapiya tələb edir. Amma ilkin olaraq hər hansı xəstəyə diaqnoz qoymaq ki, o, arterial hipertenziyadan əziyyət çəkir, bu düzgün deyil. Birinci növbədə biz xəstəyə sedativ terapiya təyin etməliyik, daha sonra lazımdırsa, dietik tədbirlər həyata keçirməliyik. Duzun, suyun miqdarının məhdudlaşdırılması, yəni dietik, daha sonra sedativ terapiya bir fayda verməzsə, biz medikamentoz terapiyadan istifadə etməliyik".

El arasında tez-tez istifadə olunan işçi təzyiq barəsində də danışan kardioloq deyir ki, belə ifadənin işlədilməsi düzgün deyil: "İşçi təzyiq anlayışı yoxdur. Normal təzyiq 120-80 mm civə sütunundan 140-90 mm civə sütununadək olmalıdır. Bir sıra hallarda görürsən ki, insanın təzyiqi 170-120-dir, həmin adam bunu boş verir və deyir ki, bu, işçi təzyiqdir. Amma bu arterial hipertenziyadır. Arterial hipertenziyanın yaranmasına səbəb olan amillər çoxdur. Burada qalxanvari vəz problemi ola bilər, böyrək, böyrəküstü vəz problemi və digər endokrin problemlər yüksək təzyiqə səbəb ola bilər".

**Son illər yüksək təzyiq nəinki yaşlılarda, eləcə də cavanlarda da müşahidə olunur. Səbəbləri isə çoxdur: stress, gərginlik, yuxu pozuntusu, düzgün qidalanmama və bu kimi hallar. Lakin unutmayaq ki, sağlam, aktiv həyat tərzi bizi bir çox xəstəliklərdən qoruyur, eləcə də yüksək təzyiqdən. Odur ki, sağlam həyat tərzi keçirmək lazımdır.**

**Rövşən Tahir**

## *Rusiya:* Ukrayna ilə savaşda maraqlı deyilik



**Rusiya Ukrayna ilə konfliktdə maraqlı deyil. Bunu Rusiya xarici işlər nazirinin müavini Andrey Rudenko deyib. "Əminəm ki, Ukrayna ilə Rusiya arasında hansısa konfliktlə bağlı bütün danışıqlar növbəti yalanın nümunəsidir, hansı ki, ilk növbədə Ukrayna hökuməti tərəfindən yayılır. Rusiya Ukrayna ilə hansısa konfliktdə, özəlliklə də hərbi konfliktdə maraqlı deyil", - deyə o bildirib.**

**MEHRİBAN**

**Seyfəddin Altaylı**



# ZİYA GÖKALP VƏ DÜŞÜNCƏ DÜNYASI

**Ötən mart ayının 23-cü günü Ziya Gökalpın ad günü idi. Məkanı cənnət olsun. Onun ad gününü fürsət bilərək Gökalpla bağlı düşüncələrimi açıqlamaq qərarına gəldim. Çoxdandır onunla bağlı bir yazı yazmaq istəyirdim, deməli, bu günə qismət imiş. Gökalp, Türkçülük əqidəsinin böyük şəxsiyyətlərindən biridir və Diyarbəkir vilayətinin Türk dünyasına bəxş etdiyi nəhəng bir milli dəyərimizdir.**

Osmanlı Dövlətində Fateh Sultan Məmmədədən sonra elmi anlamda başlayan yavaşlama və dövlət idarəsində yoluxan rüşvət, soyğun, yerlibazlıq, qohumbazlıq kimi mənfi vəziyyətdən asılı olaraq, yaranan durğunluq Qanuni Sultan Süleyman dövründə sonuncu mərhələsinə gəlmiş və bu dönəmdə xalq ilə dövlət bir-birindən tamamilə aralanmışdır, ancaq baxmayaraq ki, bu dönəm Osmanlının ən qüdrətli çağıdır.

Deməli, iqtisadi və hərbi yöndən güclü olmaq bir dövlətin taleyini müəyyənləşdirəcək əsas göstəricilər olmur.

### *XIII yüz ildə*

***Avropada Orta əsrinn qaranlıq dövrü yavaş-yavaş geridə qalmağa və aydınlanma addımları atılmağa başlamışdır. Bir yandan kilsələr və monastrlar tikilərkən digər tərəfdən də üniversitetlər yaradılmağa başlanmışdır. Xristian Avropasında o dönəmlərdə Fransisken təriqətini 1209-cu ildə François d'Assis, Dominiken təriqətini isə 1215-ci ildə Dominikue yaratmışdır. Hər iki təriqət də dilçilik, məntiq, bəlağət, musiqi, riyaziyyat, həndəsə və astronomiyadan dərs keçərək üniversitetlərdə kürsülər işğal etmişdir.***

Renessansdan öncə Avropada elmin yaranması və inkişafı üçün tələb olunan mühiti bu iki təriqət yaratmışdır. Grosteste XIII-cü yüzildə fizika sahəsində sınaqlar aparmış, tələbəsi Roger Bacon isə Oxford və Parisdə dərslər keçərək sınaqsız və riyaziyyatsız dəqiq elmlərə malik olmağın qeyri-mümkün olduğunu aşılayaraq elmin dinə hər hansı ziyanı olmayacağını bildirmişdir. əslən yəhudi olan və Fransada dünyaya gələn Levy ben Berson  dünyanın kainatın mərkəzi ola bilməyəcəyini irəli sürərək Kopernikə iz açmışdır.

### *Onların davamçısı olan*

Jean Gutenbergin 1450-ci ildə ixtira etdiyi mətbəə Avropada elmin sürətlə irəliləməsinə səbəb olmuşdur. Osmanlıda isəəl Harəzmi, əl Biruni, İbni Sina kimi Türk alimlərinin əsərlərini oxuyub açdıqları yolu daha da irəli aparacaqların yalnızca əsərlərinin xülasəsinə şərhlər, haşiyələr yazmışdır. Osmanlıya mətbəə isə ancaq 1727-ci ildə daxil olmuşdur.

***Fransisken və Dominiken təriqətləri aydınlanma çağını başladaraq kilsənin kanonik hökmranlığını dağıdıb tarixə öz möhürünü basmışdır. Dörd əsr boyunca elmi özünə rəhbər götürən qərb dünyası yeni texnologiyalar ixtira etmiş, bunun yardımıyla çağdaş vasitələr və silahlar buraxaraq, dünyada müstəmləkə imperiyaları qurmaq yarışına girişmiştir.***

Avropada bunlar yaşanarkən, Osmanlı Dövlətində İslam alimləri "Xızır Peyğəmbər sağdır ya ölü, siqaret çəkmək küfrdür, yeməyi qaşıqla yemək İslam dininə görə caizdirmi, hər hansı bir sənətlə məşğul olmaq haramdırmıə" kimi mövzuları mübahisə etmiş, mədrəsə təlimi keçməyən bir çox şəxsə elmi rütbə verilmiş, "beşik uləması" adlı qurum yaradılmış, alimlərin yeni dünyaya gələn uşaqlarına elmi rütbə verilərək maaş bağlanmış, cahillər yığnağından ibarət olan alimlər sinfi törəmiş və bu sinfin mənsubları ciblərini doldurmaq hesabına bəzən Yeniçəri əsgərlərilə əlbir olub saraya hücum çəkib sultanı və ya sədrəzəmi aşağı salmış, hətta onlara ölüm hökmü vermiş, bəzən də sarayın tərəfini tutub əsgərlərlə vuruşmuşdur.

### *Türk tarixinin*

***ibrətamiz vəsiqələrindən biri isə XVI-II yüzildə Həzərfan əhməd Çələbinin başına gələnlərdir. Həzərfan əhməd Çələbi arı pətəyinin şamından düzəltdiyi qanadla Qalata qülləsindən tullanaraq qarşı sahildəki Üsküdar səmtinə kimi uçmuşdur. Padşah IV Murad, bu yolda verdiyi əməklərinə görə, ona bir kisə qızıl vermiş, sonra da "sən başımıza bəla açacaq birinə oxşayırsan" deyərək bu hadisədən heç də məmnun olmadığını bildirmiş və Şeyxülislam da "Allah istəsəydi insanlara da qanad verərdi, sən Allahın hökmünə qarşı gəlirsən və fitnə törədirsən" deyə fitva verərək onu sürgünə yollamışdır.***

Dəqiq elmlərə önəm verməyən və yönünü teokratiyaya çevirərək yalnızca fiqh, kəlam və təfsirlə məşğul olan Osmanlı dövləti XVII yüzildə Karlofça sazişiylə torpaq itirdiyində şok vəziyyətinə düşmüş, ziyalılarla dövlət xadimləri Avropa və rus orduları qarşısında üzləşilən məğlubiyyətlərin səbəblərini axtararaq yüzillər boyu adam yerinə qoymadığı Avropanın günü-gündən elmdə, texnologiyada divləşdiyini görərək, üzünü qərbə sarı çevirmiştir. Ancaq Avropanın elm və texnologiyasını alacağına yalnızca yaşam tərzini, davranışlarını, mədəniyyətini təqlidə başlamış, beləliklə, nə özü olmuş nə də tam anlamıyla qərbli ola bilmişdir.

***Bəs indi nə haldayıq?!***

***XIX yüzilə gəldikdə, fransız inqilabıyla gəmi azı dişinə salan qərbli dövlətlər yüzillər boyu əsla məğlub edə bilmiyəcəklərinə inandıqları Osmanlının üzləşdiyi yazıq halını gördükdə iştahaları qabarmış, Osmanlı hakimiyyəti altındaki qeyri Türk xalqları üsyana təşviq edərək dəstəkləmiş, Şimali Afrika, Balkanlar, Krım, ərəb Yarımadası və digər yerlərdəki hakimiyyətini axıra çatdırmışdır.***

Belə bir dönəmdə Osmanlı Dövləti içində Osmanlıçılıq, İslamçılıq, Türkçülük və başqa fikir cərəyanları yaranmışdır. Öncələri İslamçılıq düşüncəsini mənimsəyən Ziya Gökalp daha sonra bu düşüncənin həyata keçməsinin mümkünsüzlüyünü görərək, Türkçülüyə yönəlmişdir.

İttihad və Tərəqqi Partiyasının qurucuları arasında yer tutan Gökalp siyasi sahədə olduğu kimi, sosioloji və ədəbi sahədə də adına layiq bir yer tutmuşdur. Türk yazıçı və şairlərinin əsər yaradarkən onların özülünü Türkün mifik çağlardan etibarən yaratdığı əsərlərə söykəmələrinin vacib bir məsələ olduğuna işarət etmişdir. O, Ala Geyik, Altın Işıq, Qızıl Alma və digər əsərlərini bu düşüncədən hərəkətlə yazmışdır.

### *Gənc Qələmlər dərgisi*

***ilə başlayan millilişmə cərəyanı Türk Yurdu, Millə Tətəbbular, Yeni Məcmüə mühitində yaranıb inkişaf edən və Türklüyü ancaq Türkçülük ülküsünün qurtara biləcəyini başa düşən Gökalp, Hüseynzadə əli Bəyin bir düşüncə olaraq dilə gətirdiyi "Türkləşmək, İslamlaşmaq, Qərbliləşmək" prinsipini Türk Yurdu dərgisində eyni adlı məqaləsiylə ictimaiyyətə çatdırmışdır. O, bu əqidəni sistemləşdirərək, Türkiyə Cumhuriyyətinin yönünü də təyin etmişdir. Dövlətin yaranmasından sonra "Türkçülüyün əsasları" adlı əsərini yazaraq gələcək nəslə möhtəşəm bir töhfə buraxmışdır.***

Osmanlı Dövləti zamanında Türkçülük cərəyanı o qədər tərəfdar tapmasa da, bu düşüncə Mustafa Kamal Atatürk və silahdaşları tərəfindən həyata keçirilərək, Osmanlının dağıntıları arasından Türkiyə Cumhuriyyətini yaratmış və onu Türk Millətinin əbədi ümid qalasına çevirmişdir.

Gökalpın Türkçülüyü "Turan" idealına söykənir. Onun Türkçülüyü yalnızca şovinist duyğularla yaranmamış və təməlini Türk Kültür Birliyindən almışdır.

*"Vətən nə Türkiyədir Türklərə nə Türkistan*
*Vətən böyük və məhəbbət bir ölkədir Turan"*

diyən Gökalpın bu düşüncəsi yaşadığı dönəmdən etibarən Türk Dünyasında öz əksini tapmışdır. Örnək olaraq Azərbaycanın görkəmli şairi və ruslar tərəfindən Buzlu Cəhənnəmə yollanaraq orada öldürülən Hüseyn Cavidi göstərə bilərik. 1912-ci ildə Qara dənizə tamaşa edərkən tarixin keçmiş dönəmlərinə qərq olan şair;

"Oxunur çöhrəsində Turanın Şanlı tarixi, keçmiş ənənəsi" deyərək Hüseyn Zadə əli Bəy və Gökalpın Türkçülük əqidəsinin təqipçilərindən biri olduğunu göstərmiştir. "Qoca Bir Türkün Vəsiyyəti" adlı şeirində isə;

*"Bir millətin tarixidir kökü, yurdu, yuvası*
*Tarixiniz baş ucundan hərgiz əskik olmasın.*
*"Altay" dağı, "Makan" çölü, həm də "Yasın Ovası"*
*Birər aydın səhifədir, hər Türk gərək anlasın"*

deyərək, tariximizi öyrənmənin və bilmənin nə qədər önəmli olduğunu vurğulamışdır.

**Mərhum şairimiz, sosioloq və ideoloq Ziya Gökalp fiziki olarak ölmüş ola bilər, ancaq düşüncəsi və ülküsü əbədiyyətə kimi yaşayacaqdır. Onun yolunu bugün Türk Dünyasında izləyən ordular vardır. Örnək olarak Azərbaycanlı şair Rüstəm Behrudinin bu bəndini göstərmək kifayətdir:**

*"Qırğızam, Özbəyəm, Qazax, Türkmənəm*
*Başqırdam, Kərkükəm, elə görk mənəm.*
*Sənin gözlədiyin qərib Türk mənəm,*
*Salam Dar Ağacı!*
*Əleyküm salam"*

*Fazil Mustafa*



## "Biz diqqətimizi daha çox gələcəyə yönəltməliyik"

*Soyqırım üzərində çox konsentansiya olunmağımızın bir mənası yoxdur:"Hazırda dünyanı tarix çox da maraqlandırmır. Təbii ki, təbliğat nöqteyi-nəzərindən bu təbliğatda erməni tezislərini söndürmək üçün və 100 il öncə şəhid edilən həmvətənlərimizin xatirəsini əziz tutmaq üçün biz bunu yüksək səviyyədə qeyd etməliyik. Bu bizim birmənalı vəzifə və mənəvi borcumuzdur.*

*Lakin bunu bir təbliğat vasitəsinə çevirmək yerinə bütün gücümüzü Qarabağda məskunlaşma, ordu quruculuğunun üzərində qurmalıyıq. Bir vaxta qədər biz gücsüz idik və Qarabağa yalnız Lələtəpədən boylanıb, baxa bilirdik və torpaqları qısa müddətə geri qaytara biləcəyimizlə bağlı hər hansı bir ümidimiz də yox idi. Amma 44 günlük müharibənin sonunda biz bu zəfəri əldə etdik və bu bizim üçün yeni bir eranın başlanğıcıdır. Ona görə də Xocalı, 20 Yanvar, 31 Mart siyasətimizdə də müəyyən dəyişikliklər olmalıdır. Yəni rituallar müəyyən qədər dəyişməli və biz diqqətimizi daha çox gələcəyə yönəltməliyik.*

*Təbii ki, biz o insanları anmalıyıq. Ancaq müəyyən dərəcədə turist kimi ölkəmizə gələnlərin yaddaşında erməni vəhşiliyini göstərmək üçün təbliğat vasitəsi kimi istifadə etməliyik. Beynəlxalq əlaqələrdə, təşkilatlarda bunu gündəmə gətirməliyik ki, erməni tezislərini zərərsizləşdirək və eyni zamanda özümüzün haqlı mövqeyimizi göstərək. Lakin bunu əvvəlki illərdən daha fərqli, yüksək səviyyədə qeyd etməyimizin izahını vermək bir qədər çətindir. Çünki qeyd etdiyim kimi, bu həm də bizim diqqətimizi əsas məsələdən yayındırır. Bu gün biz düşünməliyik ki, 5 ildən sonrakı dövrdə hansı addımlar ataq ki, bu bizim üçün təhlükəyə çevrilməsin. Yəni soyqırım məsələsinin təbliğindən də vacib Qarabağda məskunlaşma, orada suverenliyimizin bərpası və ermənilərlə yeni münasibətlərin diktə olunmasıdır. Bunu həll edə bilməmək tariximizdə oyalandığımız dövrlərə təkrar geri dönmək deməkdir və bu bizə yaxşı heç nə vəd etmir".*

## *Bakı Xoreoqrafiya Akademiyasına yeni kadr təyinatı olub*

**Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin Bakı Xoreoqrafiya Akademiyasında (BXA) kadr islahatları davam edir. Bununla əlaqədar olaraq, Azərbaycan Respublikası Mədəniyyət nazirinin müvafiq əmri ilə tanınmış rəqqas-xoreoqraf Tahir Eynullayev Bakı Xoreoqrafiya Akademiyasının Orta ixtisas təhsil pilləsinə (Kollec) direktor təyin olunub.**

**BXA-ya yeni təyin olunmuş direktor Tahir Eynullayev kollektivə təqdim edilib. Təqdimatda BXA-nın Tədris işləri üzrə prorektoru, rektor vəzifəsini müvəqqəti icra edən Əziz Qarayusifli çıxış edərək, Tahir Eynullayevi akademiyanın kollektivinə təqdim edib və ona fəaliyyətində uğurlar arzulayıb.**

**Daha sonra Tahir Eynullayev BXA əməkdaşlarını salamlayaraq, ona göstərilən etimada görə Mədəniyyət Nazirliyinə minnətdarlığını bildirib.**

**Sonda BXA-nın aparıcı müəllimləri də çıxış edərək, T. Eynullayevi yeni təyinat münasibətilə təbrik edib və onun xoreoqrafiya sahəsində böyük təcrübəyə malik olduğunu bildiriblər.**

**Qeyd edək ki, Tahir Ramiz oğlu Eynullayev 1975-ci ildə Bakı şəhərində anadan olub. O, 1993-cü ildə Bakı Xoreoqrafiya məktəbini, 1999-cu ildə isə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetini bitirib. T. Eynullayev 2002-2004-cü illərdə Sankt-Peterburq Dövlət Teatr Akademiyasının rejissor-baletmeyster ixtisası üzrə aspiranturanı bitirib. 2020-ci ilin noyabrın 30-da "HUMAY" Milli Mükafatı ilə təltif edilib. Bu ilin yanvar ayından T. Eynullayev Azərbaycan Televiziyasının, Mədəniyyət kanalında yayımlanan "Rəqslərimiz" adlı yeni verilişinin məsləhətçisi və aparıcısıdır.**

# Azıx mağarası Adəmlə Həvvanın yataq otağıdır və orada...

## *Seyran Səxavətlə müsahibə*

**- Alo, Seyran müəllimdir? Jurnalistdir, Tural Turan...**

**Sözümü ağzımda qoyur:**

- Bala, indi acam, danışmağa halım yoxdur. Ac adam nə danışacaq ki... Bir şeylər yeyim, sonra zəng edərsən. Təxminən 15-20 dəqiqəyə... (DUD... DUD... DUD)

***Bu dəfə onunla 75 yaşın bu biri sahilində söhbətləşdik. Yubiley müsahibəsi elədik. Telefondakı səsi də gülürdü. Doğulduğu kəndi 30 ildən sonra işğaldan azad edilib. 75-i ayaq üstə keçirir, üstəlik bu yaşında erməni vandallarının daşını daş üstə qoymadığı kəndini də gedib görüb.***

***Yenicə ömrünün 75-ci baharına ayaq basan yazıçı Seyran Səxavətin Publika.az-a müsahibəsini təqdim edirik:***

**- Seyran müəllim, 75 illik yubileyinizi necə və harada keçirdiniz?**

- Doğum günümü deyirsən də, eləmi? - Bəli. - Adam doğum gününü doğulmadığı yox, doğulduğu yerdə qeyd edər. Doğum günümdə Füzulidə idim. Ayın 21-i başımı götürüb getmişdim. Yox, yalan söylədim, 23-ü yollanmışdım. Yerin məlum, yaxşı keçdi. Orda olanda zəng eləsəydin, deyərdim ki, bir taksiyə min, gəl. Qəşəng qeyd elədim. Mən idim, tərcümeyi-halım və mənim ətrafımda olan adamlar idi. Qohum-əqrəba da başıma yığışmışdı. Belə götürəndə az idik, amma o "az"ın arxasında Füzuli boyda torpaq dayanmışdı; 130 min əhali, mən bir də... Yəni çox gen-bol keçdi.

**- Yəqin işğaldan azad olunan kəndinizə də getmişdiniz...**

- Yox, indi işğaldan azad olunmuş kəndimizə getməyə qoymurlar. Bir dəfə getmişəm. Orada heç nə yoxdur, heç nə qalmayıb. Sadəcə ünvan qalıb, yəni bura Yağlıvənd kəndidir.

**- Gedəndə heç olmasa, evinizi tapa bildinizmi orada?**

- Sənin başına dönüm, olmayan şeyi necə tapım?! Tapmaq mümkün deyil... Qurban sənə, ev yoxdu, onu nətər tapım.

**- Seyran müəllim, bəs burada, Bakıda yubileyiniz qeyd olunacaqmı? "Ədəbiyyat qəzeti"ndə elanla, yazı ilə sizi təbrik eləmişdilər. Amma...**

- Elan vermədilər e, "Ədəbiyyat qəzeti" düz altı səhifə məndən yazdı. Sonra "Şərq", "Ədalət", "525-ci qəzet", "Üç nöqtə" qəzeti, nə bilim, "Beş nöqtə" qəzeti... Çoxları yazıb, hamısını tapıb əldə edə bilmədim. Saytlar da vermişdi.

**- Sizin yubileyiniz dövlət səviyyəsində qeyd olunacaqmı?**

- Bala, mənim yubileyim, 75 illiyim pandemiya səviyyəsində qeyd olunacaq. Yəni pandemiyanın imkan verdiyi səviyyədə. Amma dostlarım, tanışlarımla qeyd etdik, onlar unutmadı. Mənim tərcümeyi-halım torpaqdır,



adamın kəndinə yaz gəlir ha, bax elə... istənilən vaxt cücərir, çiçəkləyir, məhsul verir. Mənim yubiley marafonum üç-dörd ay bundan qabaq başlayıb. Hələ də davam edir. Deyirlər ki, hələ bir-iki ay da davamı gələcək.

**- Seyran müəllim, yaşlılardan, gənclərdən bir neçə yazıçının kitabları xaricdə çap olunub. Sizdə vəziyyət nə yerdədir?**

- Mənim kitablarım xaricdə çap edilib. İndi də çap olunur. Daha doğrusu, çapa hazırlanır. Hətta mənim kitablarım dünyanın elə aparıcı dili yoxdur ki, həmin dilə çevrilməsin. Rus, ukrayn, ingilis, alman, ispan, fransız, ərab, fars, əfqan, türk dillərinə tərcümə edilib. Hamısını saya bilərəm...

**- Bu sualı sizə bir dəfə də vermişdim. Nədənsə tənqidçilər sizdən qaçırlar. Mənə görə ən yaxşı əsəriniz olan "Yəhudi əlifbası" ədəbi tənqidçilər tərəfindən öz layiqli qiymətini almadı.**

- O sualı sən vermişdin? Sən həmin oğlansan?

**- Bəli.**

- Sənə quzu kəsərəm, öz adamımızsan ki, sənin başına dönüm, belə de də... *(gülür)*. Mən bunu bilirdim ki, ən yaxşı əsərim "Yəhudi əlifbası"dır. Bunu sənə qədər başqa heç kəs deməyib. Heç yazmayıblar da... Görünür sənlə mənim dünyaya baxışımızda bir əkizlik, doğmalıq var. Sovet dövründə muzdlu tənqidçilər var idi, Allah qoymasa, indi də günəmuzd tənqidçilər var. Apar on manat ver, sənin haqqında nə desən, nə istəsən yazsınlar. Sənin dediyin kimi, "Yəhudi əlifbası" romanının bəxti gətirmədi. Çünki onu başa düşən olmadı. Mənim roman haqqında tənqidçilər mənə şifahi şəkildə fikir bildirdilər. Yalandan, üzəki dedilər ki, bu roman dahiyanədir, şedevrdir. Soruşurdum ki, nəyi şedevrdir, qayıdırdı ki, sonra deyərəm. Sonra da demirdilər, yəni şifahi formada fikir, münasibət bildirirdilər, vəssalam. Azərbaycan tənqidinin mənim yaradıcılığıma münasibəti hər zaman səthi olub. Mənim üçün Azərbaycan tənqidinin, ümumiyyətlə, tənqidin heç bir mənası yoxdur. Tənqid Azərbaycan ədəbiyyatından uğursuz bir törəmədir. Üstəlik, bu gün Azərbaycan tənqidi bu gün çox yazıq və miskin bir vəziyyətdədir. Ona görə də gəl, tənqidimizin üstünə çox getməyək. Mənim üçün Azərbaycan tənqidi yoxdur, olmayan şeyin üstünə niyə gedim?!

**-Müəllim, kəndiniz işğaldan azad olunanda hansı hissləri keçirdiniz?**

- Heç bir hiss keçirmədim. Kəndim azad olunan gün nə hiss keçirməli idim ki... Mənim hisslərim Şimal Buzlu okeanı kimi donmuşdu. Hisslərim Antraktida kimi donmuş vəziyyətdə idi. Mənim hisslərimin buzu hələ indi-indi açılır, əriyir. Axı biz birdən-ikiyə belə sevinmək görməmişdik. İlk dəfədir ki, biz torpaq almışıq. Bu hadisəyə ürək dolusu sevinmək üçün illər lazımdır. Bu, peşəkarcasına sevinmək tələb edir. Birini qucaqlayıb öpmək, qonşunla oturub bir araq içmək, "güldüm getdi...", "ayə, Qarabağ alınıvee, gəl kef eliyək" anlayışı başqa şeydir, o bizlik deyil.

**- Ev tikəcəksinizmi Yağlıvənddə?**

- Bəli, tikəcəyəm. Kəndələnin qırağında altı sot yerim var. Bu biri tərəfi Quruçaydır. Quruçay mədəniyyətini də bilirsən, SSRİ-də ən qədim mədəniyyətdir. Söhbət 7500 ildən gedir... Onun da qırağında Azıx mağarasıdır. Üç kilometr yaxınlığındadır. Bu yaxınlarda bir yazı yazmışam, çap etdirməmişəm, amma kitabda gedəcək. Orada yazmışam ki, Azıx mağarası Adəmlə Həvvanın yataq otağıdır. Orada nəsə ediblər və bütün bəşəriyyət, insanlar yer üzünə oradan səpələnib.

**- Şuşada Vaqif poeziya günləri keçiriləcək. Belə bir təklif var ki, Yazıçılar Birliyinin 13-cü qurultayı da elə Şuşada keçirilsin. Siz necə baxırsınız bu təklifə?**

- Çox yaxşı baxıram. Belə bir təcrübə Yazıçılar Birliyinin taleyində var. Deməli, Qarabağ hadisələri hələ başlamamışdı. Təxminən 1987, ya da 1988-ci il idi. Biz Ağdamda o zamankı Yazıçılar İttifaqının səyyar plenumunu keçirmişdik. İnşallah, indi də qurultay keçirmək qismətimiz olar. Oğlum, Şuşa elə bir yerdir ki, dünyada unikaldır. Deyirlər ki, dünyada 11 iqlim qurşağı var, onun da 9-u bizdədir. Həmin 9 iqlim qurşağından altısı Şuşa və ətrafının payına düşür. Yerdə qalanı Quba, Naxçıvan, Qəbələ və digərlərinin payına düşür. Naxçıvanı da xüsusi qeyd edərsən. Deməli, yüksəkliyə qalxdıqca, oksigen şehlənir. Atmosfer təzyiqi yaranır - demək istəmirəm. Oxucu onu haradan bilsin. Yuxarı qalxdıqca hava seyrəlir, yəni oksigen azalır. Allah Pənahəli xana rəhmət eləsin, bu adam akademik imiş... Şuşa elə bir yerdir ki, orada dərənin dibində, Daşaltıda havanın sıxlığı nədirsə, yuxarısında da o cürdür. Yəni havanın təzyiqi dəyişmir, dərənin dibində nədirsə, yuxarıda da odur.

***P.S.*** ***Oğul, bax, indi antrikot gəldi, yanımdakılar basıb yeyəcək, ac qalacam - deyib gülə-gülə sağollaşır. Təklif edir ki, işdən çıxıb oturduqları yerə gəlim... Təşəkkür edib, 75 yaşlı sözlə sağollaşıram. Seyran müəllim düz deyirmiş, yubiley marafonu bu gedişlə hələ 3-4 ay davam edəcək.***

**Tural Turan**

# "Diplomat şikayət edirsə..."

***Bir müddət öncə Azərbaycanın Niderlanddakı səfiri ilə görşmək və müsahibə almaq qərarına gəldim. Məqsədim həm iki ölkə arasındakı əlaqələrin hazırkı durumu haqqında, həm də Niderlanddakı diasporumuz barədə danışmaq idi. Heç cür vaxt edə bilmirdim və nəhayət, səfirliyin emailinə bu istəyimi yazdım.***

***Cavab özünü çox gözlətmədi. Görüş təyin etdik və görüş günü üz tutdum Azərbaycan Respublikasının Niderland Krallığındakı səfirliyinə, fövqəladə və səlahiyyətli səfir Fikrət Axundovdan müsahibə almağa. Yaşadığım yerdən səfirliyimizin yerləşdiyi Den-Haaq şəhərinə təxminən bir saat yarımlıq yoldur. Maşında gedə-gedə düşünürdüm ki, necə edim ki, söhbəti mümkün qədər açıq formatda apara bilim. Fikrət müəllimin tərcümeyi-halından xəbərdar idim (istəyən burdan tanış ola bilər: https://hague.mfa.gov.az/az/content/35/sefirin-tercumeyi-hali), təcrübəli diplomatdır. Uzun illərin təcrübəsi var. Düşündüm ki, mən yenə də düz bildiyimi deyəcəm və buna uyğun da suallar verəcəm. Diplomat nə cavab verəcək, bu da artıq başqa məsələdir. Yadıma Türkiyəli diplomat Yaqub Qədri Qaraosmanoğlunun "Zorən diplomat" əsərindən "Diplomatlar məclisində həqiqəti söyləməkdən daha betər nadanlıq ola bilməz" fikri düşdü və öz-özümə gülümsədim...***

***... Elə söhbətə də belə başlamağa qərar verdim və yuxarıdakı seçməni Fikrət müəllimə dedikdən sonra ilk sualımı ünvanladım:***

**- Bu fikirlə razısınız? Həqiqət bildiyimi deyib buna uyğun sual versəm, çox nadanlıq etmiş olmaram?**

***Fikrət müəllim gülərək:***

- Yox, necə istəyirsinizsə, elə də söhbət edək. Diplomat sözün düzünü deməlidir - dedi və tez də - ancaq öz təmsil etdiyi dövlətə zərər vermədən - deyə əlavə etdi.

**- Fikrət müəllim, söhbətimizə bir əsərdən seçmə ilə başladıq, növbəti sualımı da başqa bir əsərdən, Ceyms Oldric "Diplomat" əsərindən " Diplomatiyanın yarısı şikayətlərdən ibarət olur" fikri ilə davam edim. Bu fikirlə necə razısınız? Niderland Azərbaycan əlaqələrindən şikayətçi deyilsiniz?**

- Hesab etmirəm ki, diplomat işini şikayətlər əsasında qurmalı, yeri gəldi-gəlmədi şikayət etməlidir. Edirsə, demək ki, işini yaxşı qurmayıb. Niderlandla Azərbaycan arasında diplomatik münasibətlər 1992-ci ildən mövcuddur. Niderland ölkəmizdəki kənd təssərrüfatı layihələrində aktiv iştirak edir. Bir müddət öncə Böyük Şorun təmizlənməsində də iştirak etdilər. Səhv etmirəmsə, hazırda Azərbaycanda 130-a yaxın Nidderland şirkəti fəaliyyət göstərir. Əlbətdə ki, biz çalışırıq ki, bu əlaqələr artan xətt üzrə inkişaf etsin...

**- Müharibə ərəfəsində Niderlandın tutduğu mövqe Azərbaycanı qane etdimi?**

- Mütləq ki, istəyirsiniz şikayət edim, yuxarıdakı sitatınıza uyğun olsun, etməyəcəm (gülür). Təbii ki, zarafat etdim. Bilirsiniz, məsələyə bir qədər fərqli yanaşmaq lazımdır.

Niderland hökuməti başqadır, parlamenti başqa. Doğrudur, hökumət parlamentə seçilmiş deputatlardan təşkil olunur, ancaq yenə də fərqli münasibət sərgilədilər. Bundan öncəki parlament (mart ayında Niderlandda yeni parlament seçkiləri keçrildi - V.A) xüsusən son 44 günlük müharibə ərəfəsində Azərbaycana qarşı ədalətli mövqe sərgiləmədi. Qısa zaman ərzində əleyhimizə 13-ə yaxın qətnamə qəbul etdilər. Bununla bağlı XİN-ə (Xarici İşlər Nazirliyi), Parlamentin rəhbərliyinə etiraz məktubları göndərdik. Həmçinin bu qətnamələrin bir çoxunun təşəbbüskarı və ya həmmüəllifi olan, o dövrdə deputat olmuş Martin van Helvert *(CDA - Xristian Demokrat Partiyasından deputat olmuş Martin van Helvert nəzərdə tutulur - V.A)* ilə görüşülmüş, bu qətnamələrin ədalətsiz, birtərəfli, əsassız olması onun diqqətinə çatdırılmışdır. Eyni zamanda, Azərbaycan diasporunun fəalları da qeyd olunan deputatla görüşərək, etirazlarını bildirmişlər. Yeri gəlmişkən, qətnamə müəlliflərindən biri Martin van Helvert Ermənistan tərəfdən təltif də olunub. Hökumət isə bu ərəfədə demək olar ki, bitərəf, neytral mövqe sərgilədi. Hesab edirəm ki, əvvəlki parlamentin Azərbaycana qarşı tutduğu mövqe ədalətli deyildi.

**- Fikrət müəllim, bilirsiniz ki, Azərbaycan parlamentində Azərbaycan - Niderland parlamentlərarası dostluq qrupu var. Bu qrupun əvvəli rəhbərini vaxtaşırı Niderlanda gəlirdi. Artıq illərdir ki, qrupun yeni rəhbəri var, deputat Eldar Quliyev. Necə düşünürsünüz, Niderlandlı deputatların Azərbaycan parlamentində belə bir qrupun olmasından xəbərləri var?**

- Bildiyim qədər Niderland parlamentində cəmi bir neçə buna bənzər qrup var. Onlar belə qrupların olmasında maraqlı olsa idilər, mənə elə gəlir ki, başqa, keçmiş sovet ölkələrinin çoxu ilə bu cür qruplar qurardılar. Azərbaycan parlamentində isə belə ənənə var, dünyanın əksər ölkələrinin parlamentləri, həmçinin Niderland parlamenti ilə dostluq qrupu var.

***Haşiyə. Səfirlə müsahibədə Azərbaycana girişə icazə verən vizalardan, təyyarə biletlərinin bahalığından danışmaya bilməzdim. Gündəlik, vaxtaşırı ünsiyyətdə olduğum soydaşlarımız söhbət əsnasında hər vaxt bu məsələlərdən şikayət edirlər. Odur ki, növbəti sualım bu barədə oldu.***

**- Fikrət müəllim, bir neçə il öncə mən Azərbaycanın bütün aidiyyatı qrumlarına, XİN- də daxil, yazmışdım ki, yaxşı olar ki, xaricdə yaşayan, Azərbaycan vətəndaşlığı olmayan soydaşlarımıza şəxsiyyətlərini təsdiq edən nəsə bir sənəd versinlər ki, onunla ölkəyə vizasız daxil ola bilsinlər. Hətta 2016-cı ildə, Dünya Azərbaycanlılarının dördüncü qrultayı ərəfəsində bu barədə təkliflərimi aidiyyatı təşkilatlara qovluqda da göndərdim. Sonra eşitdim ki, nəsə "Soydaş" adlı belə bir sənəd üzərində işləyirlər, lakin sonradan xəbər çıxmadı. Biz niyə ölkəmizə viza ilə gedək?**



- Sizi anlayıram. Ancaq bilirsiniz ki, indi "Asan viza" deyilən bir sistem var ki, oranın xidməti ilə evində oturaraq bir neçə saata belə viza almaq olur. İrəliləyən zamanlarda bəlkə dediyiniz kimi nəsə ola bilər, bilmirəm. Vizanın qiymətinin də münasib olduğunu düşünürəm…

***Bu yerdə müdaxilə etmədən dura bilmirəm, "Bir nəfər üçün bəlkə münasib ola bilər, ancaq ailədə bir neçə dəfə olarsa, heç də az məbləğ alınmır" deyir və dərhal da xaricdə yaşayan (elə ölkədə yaşayanlar üçün də maraqlı olduğunu düşünürəm) soydaşlarımızın çoxu üçün maraqlı ola biləcək digər məsələ, təyyarə biletləri ilə bağlı sual ünvanlayıram.***

**- Təyyarə biletlərinin qiymətinə nə deyə bilərsiniz? Qiymətlərin baha olması ölkəyə turistlərin cəlb olunmasına da mane olur. Bura gəlməmişdən öncə də kiçik bir araşdırma etdim, buradan Azərbaycana olan qiymətlər Gürcüstana olan qiymətlərdən ən azı 100 - 150 avro bahadır. Bunu da bir neçə nəfərdən ibarət ailə üçün hesablasanız kifayət qədər yüksək məbləğ alınar. Bir səfir kimi xaricdə yaşayan soydaşlarımızın bu narahatçılığını aidiyyatı yerlərə çatdırmağınız yaxşı olar deyə düşünürəm. Xaricdə yaşayan soydaşlarımızın əksəriyyətinin istəyi həm də budur ki, xaricdə yaşayanlar ancaq onlara ehtiyac olanda yada düşməsinlər…**

- Hesab etmirəm ki, xaricdə yaşayan soydaşlarımız ancaq siz deyən vaxtlarda yada düşür. Xeyir, məsələn, bizim səfirliyin qapıları soydaşlarımızın hər biri üçün açıqdır. Biletlərin qiymətləri isə həm də bazara uyğun tənzimlənir. Bakıya gedən təyyarələr demək olar ki, bir qayda olaraq dolu gedir. Ancaq əlbəttə ki, Azərbaycan tərəf çalışır ki, bazara yeni avia şirkətlər daxil olsun. Bura Buta şirkətini, Macarıstanın Wizzair şirkətini və s. aid etmək olar. Təbii ki, soydaşlarımız baxımından qiymətlərin hər kəsə münasib olması çox önəmlidir.

**- Növbəti sualım qapalı sualdır, mümkünsə "hə," yaxud da "yox" cavabı verin. Buradakı Azərbaycan diasporunun fəaliyyəti size qane edir?**

- Bu suala birmənalı cavab vermək olmaz. Çatışmamazlıqlar təbii ki, var, ancaq son müharibə ərəfəsindəki fəaliyyət məni tam qane etdi…

**- Yəni deyirsiniz ki, hər vaxt daha yaxşısı mümkündür. Birmənalı söz demək olmaz fikrinizlə razıyam. Ancaq belə fikirlər də var ki, Azərbaycan diasporu Azərbaycanın aidiyyatı qrumu, səfirliklər tərəfindən idarə olunur. Yəni diasporumuz idarə olunur. Bu da fəaliyyət göstərməli olduqları ölkədə onların nüfuzuna xələl gətirir. Bununla bağlı nə deyə bilərsiniz?**

- Bu fikirlə heç razı deyiləm. Diaspor canlı orqanizmdir, daim yenilənir. Azərbaycan diasporunu isə idarə etmək fikrimiz olmayıb, belə bir şey yoxdur. Soydaşlarımızla, diaspor fəaliyyəti ilə məşğul olanların bəziləri ilə görüşürük, ancaq buna idarə etmək demək düzgün deyil. Vaxtaşırı müxtəlif diaspor təşkilatlarının rəhbərləri ilə görüşlərimiz olur. Soydaşlarımız yaşadıqları yerlərdə Azərbaycan hakimiyyətinin deyil, doğulduqları ölkələrin maraqları baxımından çıxışlar edirlər. Bunun üçün isə kimisə idarə etməyə ehtiyac yoxdur. Söhbətlərimdən görümüşəm ki, soydaşlarımız bunu özlərinə mənəvi borc hesab edirlər…

**- Yeri gəlmişkən, qeyd etdiniz ki, vaxtaşırı bəzi diaspor təşkilatları ilə görüşürsünüz. Ancaq Azərbaycan mətbuatında bu xəbərlər "Azərbaycan diasporu ilə görüş keçirildi," "Azərbaycan diasporu mükafatlandırıldı" və s. başlıqlarla gedir. Bunu "Bir qrup diasor təşkilatı, fəalı" kimi təqdim etsəniz daha düzgün olmazmı? Axı gərəkəndə meydana yüzlərlə diaspor fəalı çıxır. Qeyd etdiyim kimi təqdimat digər fəalları incidə bilər…**

- Doğrudur, burda diasporumuzun fəal üzvləri çoxdur. Onlardan bəziləri bu yaxınlarda mükafatlandırıldılar və bu mükafatı təşkilatlarındakı hər kəsin adına aldıqlarını dedilər…

***Bu yerdə nədənsə mənə elə gəldi ki, cənab səfir ötəri saatına baxdı və odur ki, müsahibəyə yekun vurmaq istədim. Onsuz da bəzi suallara cavabın diplomatik cavab olacağını təxmin edirdim və bu da qeyri təbii deyil. Bəzi sualları verməkdə, etiraf edim ki, məqsədim həm də cənab səfirin diqqtini həmən məqamlara çəkmək idi. Çox inanmaq istəyirəm ki, cənab səfir, məsələn, viza, bilet kimi məsələləri lazım olan yerlərdə səsləndirəcək. Odur ki, son sualımı verirəm.***

**- Fikrət müəllim, sonda belə bir sual. Diplomatiya termini ilə bağlı maraqlı təriflərdən biri belədir: "İnsanın öz vətəni üçün yalan deməsi bir sənətdir. Buna Diplomatiya deyilir". Bəlkə qeyri etik sualdır, ancaq sualı verəcəm. Diplomatik fəaliyyətiniz dövründə yalan danışmaq məcburiyyətində qaldığınız oldumu? Yoxsa məşhur "Həqiqəti demək istəmirsənsə, yalan danışmaq məcburiyyətində deyilsən, sussan yetər" məsəlinə əməl etmisiniz?**

- *(Gülümsəyir)* Diplomatiyanı vəkilliklə də müqayisə edərdim. Diplomat hər bir halda ölkəsinin maraqlarını qorumalıdır.

Hesab edirəm ki, diplomat yeri gələndə susmağı, yeri gələndə danışmağı bacarmalıdır. Bəzən susmaqla da çox söz demək olar və bəzən danışmaqla da heç nə deməyə də bilərsən. Ümid edirəm ki, bu söhbətimizdə həm bir diplomat kimi, həm də bir soydaşınız kimi nəsə deyə bildim.

**- *(Gülərək)* Bunu oxucular müəyyən edəcəklər. Bizə ayırdığınız vaxt üçün təşəkkür edirəm.**

**Vüqar Abbasov.**
**Niderlanddan xüsusi olaraq "Ədalət" üçün**

## *Rafael Cəbrayılov həbs edildi*



**Daşıdıqları vəzifə ilə bir araya sığmayan öz qanunsuz əməlləri ilə vətəndaşların hüquqlarını pozan, qarşılıqlı etimad əsaslı məmur-vətəndaş münasibətlərinə zərər vurmaqla dövlətin nüfuzuna kölgə salan şəxslərə qarşı prokurorluq orqanları tərəfindən kompleks tədbirlər davam etdirilir.**

**Baş Prokurorluğun Mətbuat xidmətindən Adalet.az-a verilən məlumata görə, belə tədbirlərdən biri kimi, Azərbaycan Respublikası Milli Məclisinin III, IV və V çağırış deputatı olmuş Cəbrayılov Rafael Kamil oğlunun öz qulluq mövqeyindən istifadə edərək külli miqdarda ziyan vurmaqla dələduzluq törətməsi və digər faktlar üzrə Cinayət Məcəlləsinin müvafiq maddələri ilə Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində cinayət işi başlanmaqla ibtidai istintaqı aparılıb.**

**Aparılmış ibtidai istintaq zamanı Rafael Cəbrayılovun həmin vəzifədə olarkən qardaşı Cəbrayılov Rauf Kamil oğlu tərəfindən Bakı şəhər sakininə satılmış Bakı şəhəri, Binəqədi rayonu, M.Ə.Rəsulzadə küçəsində yerləşən 2 hektar torpaq sahəsinə mülkiyyət hüquqlarının dövlət qeydiyyatına alınması barədə çıxarışın əldə edilməsində köməklik göstərilməsi ilə əlaqədar ona müraciət etmiş vətəndaşa bu barədə yalandan vəd edərək, həmin adla sözügedən vətəndaşdan 240 min manat məbləğində pul vəsaitini alıb, şəxsi ehtiyaclarına sərf etməsinə və bununla da vətəndaşa külli miqdarda ziyan vurmasına əsaslı şübhələr müəyyən edilib.**

**Qeyd edilən qanunsuz hərəkətləri ilə Rafael Cəbrayılovun deputatların fəaliyyətinin tənzimlənməsi sahəsində qüvvədə olan qanunvericiliyin tələblərinə əsasən vəzifələrini yerinə yetirməli olduğu halda öz qulluq mövqeyindən istifadə etməklə aldatma və etibardan sui-istifadə etmə yolu ilə özgə əmlakını ələ keçirməsinə dair əldə edilmiş kifayət qədər sübutlarla əsaslar müəyyən olunduğundan ona Cinayət Məcəlləsinin 178.3.2-ci (külli miqdarda ziyan vurmaqla dələduzluq) maddəsi ilə ittiham elan edilmiş və barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib. Hazırda Rafael Cəbrayılovun törətmiş olduğu cinayət əməllərinin tam dairəsinin, o cümlədən vətəndaşlara vurduğu ziyanın məbləğinin müəyyənləşdirilməklə zərərin ödətdirilməsi istiqamətində intensiv istintaq aparılır.**

# "ALBAN" məfhumu necə yaranıb?



*Həsən Əliyev*
*Politoloq, sosioloq*

**Bu gün hörmətli prezidentimiz İlham Əliyev cənablarının çevik siyasi və hərbi taktikası nəticəsində Müzəffər Azərbaycan Ordusu erməni işğalına birdəfəlik son qoydu.O,ermənilərin özlərinin uydurduqları "qondarma mifik Qarabağ" xülyalarının üstündən xətt çəkərək, dünya ölkələrinə sübut etdi ki, Qarabağ Azərbaycanın əzəli torpağıdır və "Qarabağ Azərbaycandır!"**

Bu gün "Alban" məfhumu ilə əlaqədar o qədər kitab və məqalələr vardır ki,bu haqda təkrar məlumat verməyə heç bir ehtiyac yoxdur.Bu məqalə oxuculara tarixi-məntiqi mahiyyət daşıyan və bu vaxta qədər "Albanşünaslıqda " öyrənilməmiş yeni elmi tədqiqata həsr olunmuşdur. Nəşrlərdə biri-birinə zidd, çox zaman özləri-özlərini təkzib edən həddindən artıq fikirlərin olduğunu nəzərə alıb, bunlardan məqalədə bir elmi mənbə kimi istifadə edilməmişdir.Hər halda əsl tədqiqat yeniliyi tələb edir.

Gəlin əvvəlcə "Alban" məfhumunun yaranmasının ictimai-siyasi tarixini öyrənək.Tarixdən məlumdur ki,XIX əsrin başlanğıcında İtaliyanın Venetsiya , Fransanın Paris və Rusiyanın Moskva,Sankt Peterburq şəhərlərinin xristian dini mərkəzlərində erməni lobbisi formalaşmağa başlamışdır.Erməni lobbisinin məqsədi ermənilərə torpaq əraziləri əldə edib,özlərinə erməni dövləti qurmaq idi.Ermənilərin bu məqsədlərinə çatması üçün həmin dövrdə Çar Rusiyasında həm siyasi, həm də hərbi şərait yetişmişdi.XIX əsrin əvvəllərində Rus-İran, Rus-Türk müharibələri ermənilərin məqsədləri üçün münbit siyasi mühüt yaratmışdı. Erməni lobbisinin ideoloqları Çar Rusiyasını inandırmağa çalışırdılar ki,ermənilər Azərbaycanın

### *İran və Türkiyə ilə sərhəd zolağında*

***ruslar üçün "bufer" rolunu oynaya bilərlər.Doğrusu Çar Rusiyası Azərbaycanın Qarabağ Xanlığını özünə ilhaq edəndən sonra, erməniləri Qarabağa köçürməsi bu planın başlanğıcı idi.Erməni lobbisi Çar Rusiyasını inandırırdı ki,türk xalqlaqrı onların qan düşmənləridir.Rusiya-Türkiyə müharibəsində ruslar üçün ən etibarlı "müttəfiq" ancaq ermənilər ola bilərlər.Əgər I Dünya Müharibəsinin gedişində olan hərbi xəritələrinə baxsaq, həqiqətən də Çar Rusiyasının işğal etdiyi Türkiyə əraziləri həmin xəritələrdə "Velikaə Armeniə" kimi göstərilmişdir.Çar Rusiyası məhz Türkiyə cəbhəsində erməni hərbi birləşmələrindən məharətlə istifadə edirdi.Türkiyənin hərbi arxivlərində işğal olunmuş ərazilərində ermənilərin dinc türk əhalisinə qarşı törətdikləri misli görünməmiş vəhşilikləri danılmaz sübutlarla öz əksini tapmışdır.Ermənilər işğal olunmuş Türkiyə ərazilərində körpələrdən tutmuş, qocalara qədər türkköklü əhalini amansızlıqla süngüdən keçirmişlər.Onlar türklərə qarşı əsl soyqırım törətmişlər.***

Məlumdur ki,Azərbaycanda və Türkiyədə Alban kilsələrinin bu günə qədər qalması xalqımızın ta qədimdən multikultural ənənələrə sadiq olmasını göstərir. Ermənilər isə, bu kilsələrin xristian dininin əsas atributu olması faktından öz çirkin niyyətləri üçün istifadə etməyə çalışırdılar.Məhz ermənilər xristian olduqlarını əsas gətirərək, Alban kilsələrinin bunlara məxsus olduğunu iddia edir və ermənilərin Azərbaycanda mövcudluğunu həmin kilsələrin yaşı ilə eyniləşdirməyə çalışırdılar. Eyni zamanda dünya ictimaiyyətinə təbliğ edirdilər ki, bu torpaqlar Azərbaycana deyil,xristian dinli qondarma "Alban dövləti"nə məxsus olmuşdur.Aparılan erməni təbliğatının nəticəsi olaraq Rusiya imperatoru I Nikolayın 11 mart 1836-ci il tarixli fərmanına əsasən Alban həvari kilsəsi erməni Qriqoryan kilsəsinin tabeliyinə verildi.Bununla da Azərbaycanda Alban kilsəsi müstəqilliyinə son qoyuldu.

### *Tarixdən məlumdur ki,*

***Ərəb xilafətinin gəlişi ilə Azərbaycanda mövcud olan atəşpərəstlik,bütpərəstlik və xristianlıq demək olar ki, aradan qaldırılmışdır.Yalnız islami qanunlara görə xristianlıq tək Allahı qəbul etdiyi üçün bu dinə məxsus kilsələr toxunulmaz olaraq saxlanılmış,lakin ibadət yeri kimi tərk edilmişdir. Bu boşluqdan istifadə edən erməni lobbisi Alban kilsələrində saxlanılan Azərbaycan hökmdarı Cavanşirin sifarişi ilə həmin dövrdə salnaməçi Musa Kalankatlı tərəfindən yazılmış məhşur salnamənin əsli ermənilər tərəfindən məhv edilərək ,əvəzində 1861-ci ildə Sankt Peterburq mətbəəsində "qədim qrabar" (erməni) dilində özlərinə sərf edən yalançı bir "erməni-alban tarixi" nəşr etdirmişlər.***

Bu ideoloji vasitənin saxtalığı ondan ibarətdir ki,burada müəllifin yaşadığı dövrdən sonrakı 400 ildə baş verən hadisələrdən bəhs edilir.Həqiqətən də "Alban" məfhumu ilə bağlı bütün mənbələrin nəşrlərinin tarixlərinin hamısı 1860 -cı ildən başlanılır.

İndi, konkret olaraq "Alban" məfhumunun yaranmasını öyrənək. Əgər biz "Alban" məfhumuna məntiqi cəhətdən yanaşsaq, bu məfhumun xristianlıqla əlaqədar olduğunu nəzərə almalıyıq. Bu halda , mütləq xristianlığın yaranma tarixi şəraiti diqqətlə öyrənmək lazımdır.Tarixi mənbələrə görə xristianlıq eramızın I əsrinin 2-ci yarısında Roma İmperiyasının şəhər əyalətlərində,əvvəl yəhudilər,az sonra isə digər etnik qruplar içərisində yayılmışdır.Mövcud quldarlıq quruluşunun böhranı,ağır sosial şərait qulların,azad yoxsulların,məzlum xalqların kütləvi üsyanlarına səbəb olurdu.

### *Üsyanların Roma dövləti tərəfindən yatırılmasından sonra*



xalqda ümidsizlik,zülmkarlara qarşı nifrət əhval-ruhiyyəsi geniş yayılırdı.Yeni yaranan xristianlıq mövcud qaydalara,quldarlıq dövlətinə qarşı qulların,məzlumların dini formada yaranan ifadəsi idi.Erkən xristianlıqda müxtəlif narazı qruplar arasında dini razılıq olmasa belə, onları yalnız Roma İmperatorluğuna qarşı nifrət birləşdirirdi.Onları İmperiyanın tezliklə yıxılacağına,onun zülmündən qurtuluşa, yer üzərində İsa başda olmaqla "ilahi padşahlıq" yaranacağına olan ümid birləşdirirdi.

Artıq 2-3-cü əsrlərdə xristianlığın sosial tərkibi dəyişərək tək məzlum qullar yox, ağır vergilərdən təngə gəlmiş varlı adamlar da xristian icmalarına daxil olmağa başladılar.Romada və onun əyalətlərində kilsə təşkilatları və rahiblik təsisatı meydana çıxırdı.Roma İmperatorluğu böyük qüvəyyə çevrilmiş xristianlığı özünə siyasi rəqib hesab edərək, 3-cü əsrdəki yaranmış böhran və sinfi mübarizənin kəskinləşdiyi dövrdə xristianlığı təqib etməyə başladı.

***Xristian dini mənbələrində bu təqiblərə məruz qalmış xristianların içərisində "İsanın din qardaşları" və " xristianlığın ilk şəhidləri" "kimi qəbul edilən Roma əsgərləri, Müqəddəs Albanın , Aronın (Aaron) və Yulisun (Yelisey) adları xüsusi olraq çəkilir.Tarixdən məlumdur ki,hələ e.ə. 43-cü ildə Y.Sezarın ekspedisiyasından sonra romalılar Britaniyanı zəbt etməyə başladılar.Onların burada hökmranlığı təxminən 350 ilə qədər sürmüşdür.***

***Məlumdur ki, Britaniyada Roma İmperiyasının əsgərləri xidmət edirdilər.Bunlardan biri də romalı əsgər Alban idi.Xristian dini mənbələrinə görə bir gün Albanın yaşadığı mənzilə Romadan bir missioner gəlir və onu qonaq saxlamasını ondan xahiş edir. O, 2-3 gün ərzində Albanda xristian dininə inam və sevgi yaradır.***

Alban xristianlığı qəbul edir və əsgər yoldaşlarına xristianlığı təbliğ etməyə başlayır.Bundan ordu başçısı xəbər tutur və həmin missionerin həbsi üçün Albanın mənzilinə əsgərlər göndərir.Alban qonağını ələ verməmək məqsədi ilə onun çuxasını geyinir və özünü onun əvəzinə əsgərlərə təslim edir.Əsgərlər Albanı imperatorun hüzuruna aparır və səhvini etiraf etməyi ondan tələb edirlər.Lakin o,ölümündən qorxmayaraq inamından dönmür və son sözünü ucadan söyləyir: "Mən bütün aləmin yaradıcısı olan Allahın varlığına ibadət və səcdə edirəm!" (I, worship and adore the true and living God who created all things!)

### *Tədqiqatçıların fikrinə görə*

***həmin dövrdə Britaniyada imperatorluq etmiş Septimus Severusun əmri ilə Ver çayının sahilində, uca bir təpənin başında Albanın boynu vurulur.Təxminən həmin ərəfədə Roma Brianiyasının Kaerleon şəhərində xristianlığın təqibi zəminində müqəddəs Aaronun və Yulisin də boynu vurulmuşdur. Xristianların etiraz yürüşlərində bu müqəddəslərin şəkilləri ilə bəzədilmiş bayraqlar hərakatın əsas simvoluna çevrilmişdi.Hərəkatın təşkilatçıları xristianları Roma İmperatorluğundan onların qisaslarını almağa çağırışlar edirdilər.***

Romada təqiblərə qarşı güclənən hərakatlar artıq məcrasından çıxmışdı.

Hakimiyyət tədricən xristian dinin xarakter və əhəmiyyətini,ideologiyasının mahiyyətini dərk edərək, xalq kütlələrini itaətdə saxlamaq üçün, ona arxalanmağa başladı.Xristianların müdafiə etdiyi I Konstantin (306-337 hakimiyyət illəri) bütpərəstlik qalmaqla Romada xristianlığın rəsmi fəaliyyətinə icazə verdi.O, 325-ci ildə xristian dininin yuxarı təbəqə nümayəndələrinin Ümumdünya Kilsə Məclisini çağırdı.Məclisdə "Din rəmzi" qəbul olundu.Romada İmperator hakimiyyəti ilə kilsənin ittifaqı yaradıldı.Əvvəllər təqib olunan xristianlıq dövlət dininə çevrildi.Bütün dinlərdə olduğu kimi xristianlığın da ibadəti üçün əsas sayılan atributu olan kilsələr inşa edilməyə başlanıldı.Məhz bu səbəbdən də bütün dövlətlərdə tikilən qədim kilsələrin inşası xtistianlığın rəsmi qəbul edilməsi tarixinə- IV əsrə təsadüf edir.

### *İmperiyanın bu güzəştlərinə baxmayaraq,*

***artıq Roma İmperiyasını bürüyən xristian dininin dalğası onun hakimiyyətinin süqutuna real zəmin yaratmışdı.Xristian dini Roma əyalətlərində elə bir fanatik dərəcədə güclənmişdi ki,artıq xalq kütləsi imperatorluğa qarşı itaətsizlik nümayiş etdirirdi.Onlar yalnız xristian dininin ruhanilərinə inanır və onların arxasınca gedirdilər.Hakimiyyət ilə dini rəhbərlər arasında güclü nifaq yaranmışdı.Kütlə ilə yanaşı ən varlı adamlar,hətta qoşun başçıları da xristian dininin tərəfdarlarını dəstəkləyirdilər.***

Romada xristian dininə qarşı 300 ildən artıq davam edən amansız təqiblər geniş kütlə arasında İmperiyaya qarşı güclü nifrət yaratmışdır.Onlar İsanın çarmıxa çəkilməsini,onun həvarilərinin edam edilməsini,İsanın" din qardaşı" və xristianlığın "ilk şəhidi" müqəddəs Albanın boynunun vurulmasını bu hakimiyyətdə görürdülər.Onlar bu qisası Roma İmperiyasından almağa köklənmişdilər.Dini rəhbərlər İsanın " zühuruna" çox az qaldığını onlara inandırırdılar.Onları bu zülmdən xilas edəcək nicat yolunu yalnız "İsanın padşahlığında" görürdülər. Xristianlığı rəsmi qəbul edən Roma imperatoru I Konstantinin ölümündən sonra xalq Romada İmperator taxt-tacını yıxıb,burada yalnız xristian dininin hökmran olmasını tələb edirdi.

**Romada başlanan bu hərəkat demək olar ki ,"Xristian inqilabı"na çevrilərək,xristian dini rəhbərlərinin fitvası ilə Roma İmperatorluğunu süquta yetirdi.Onlar Romada imperatorsuz,xristian dini qanunlarına əsaslanan yeni " Dini Dövlət" qurdular.Bundan sonra Roma(Vatikanda) yalnız xristian dinini idarə edən " Mərkəzi Baş Şəhərə" çevrildi.İmperatorluğun mərkəzi isə Konistantinapola(indiki İstanbul şəhəri) köçürüldü və bununla da Roma İmperatorluğu süquta sürükləndi.**

**(ardı var)**

# QARA TORPAQ, MUĞAYAT OL ANAMDAN



*ZAKİR FƏXRİ*

## *ŞƏXSİYYƏT VƏSİQƏSİ*

*Yolumu sapdım, deyəsən,*
*Bu dünyaya azıb gəldim.*
*Göy üzü dərddən çatladı,*
*Qoşulub bir damla suya,*
*Mən o çatdan sızıb gəldim...*
*Gördüm qanadlanır quşlar*
*Bir səsə - Azan tərəfə.*
*Adamlar ardımca gəlir,*
*Gəlir mən azan tərəfə...*
*Gördüm dil açıb çöl-bayır,*
*Göylərdən yağış diləyir.*
*Bir qarı günlərin sayır,*
*Bir qoca ömrün ələyir.*
*Dörd bir yanı duman aldı,*
*Quşlar avaza gəlmədi.*
*Qəriblikdən sərxoş düşdüm,*
*Ruhum namaza gəlmədi.*
*Yolumu sapdım, deyəsən,*
*Bu dünyaya azıb gəldim.*
*Göy üzü dərddən çatladı,*
*Qoşulub bir damla suya,*
*Mən o çatdan sızıb gəldim...*

## *SƏS*

*Bir səsə ilişib qaldım,*
*Yerimdəcə düşüb qaldım.*
*Yolayrıcı çaşıb qaldım,*
*Bu səsin əlindən al məni, Tanrım.*

*Başım üstü bulud idi,*
*Buluddanmı doğdu bu səs?*
*Anam, atam umud idi,*
*Umuddanmı doğdu bu səs?*
*Bu səsin əlindən al məni, Tanrım!*

*Dağ gördüm, gözüm yaşardı,*
*Ruhumu xəyal apardı.*
*Qoyma məni hal apardı...*
*Bu səsin əlindən al məni, Tanrım!*

*Çəkər məni yuvasına,*
*Oynadar öz havasına.*
*Vallah, alışa bilmərəm*
*Dərmanına-davasına,*
*Bu səsin əlindən al məni, Tanrım!*

*Bu səs yaddaşımdan gəldi,*
*Qopub başdaşımdan gəldi.*
*Bu səs göz yaşımdan gəldi...*
*Bu səsin əlindən al məni, Tanrım!*

*Bu səs yaman tutdu məni,*
*Dərya olub uddu məni.*
*Kim sevdi, unutdu məni...*
*Bu səsin əlindən al məni, Tanrım.*

*Dağa-daşa saldı məni,*
*Yüz savaşa saldı məni.*
*Üz tutdum üzü bahara -*
*Üzü qışa saldı məni.*
*Bu səsin əlindən al məni, Tanrım!*

*Yetər bu gördüklərimin*
*Gözlərimi böyütdüyü...*
*Ürəyim dəyirman olub,*
*Dərddi, qəmdi üyütdüyü -*
*Bu səsin əlindən al məni, Tanrım!*

## *XOŞ GƏLDİN, DƏRDİM, XOŞ GƏLDİN!*

*Göylərin yeddi qatından,*
*Qəriblərin ovqatından.*
*Qəmlərimin çatından*
*Keçib, sinəmə tuş gəldin,*
*Xoş gəldin, dərdim, xoş gəldin!*

*Yelkən oldun, üzdü gəmim,*
*Çiçəklədi qüssəm, qəmim.*
*Tumurcuqladı qələmim.*
*Qaşsız baxtıma qaş gəldin,*
*Xoş gəldin, dərdim, xoş gəldin!*

*Sənsiz dünyam həzin düşdü,*
*Hər günümə hüzn düşdü.*
*Döndün, odun, közün düşdü.*
*Boş ruhuma savaş gəldin,*
*Xoş gəldin, dərdim, xoş gəldin!*

*Üz tutdum Söz dərgahına,*
*Od üçün köz dərgahına...*
*Nədənsə öz dərgahına*
*Qayıdıb əliboş gəldin,*
*Xoş gəldin, dərdim, xoş gəldin!*

*Gözündən yüz bulaq oydum,*
*İçdikcə demədim doydum...*
*Mizan-tərəziyə qoydum.*
*Sevgimlə baş-başa gəldin,*
*Xoş gəldin, dərdim, xoş gəldin!*

## *QARA TORPAQ, MUĞAYAT OL ANAMDAN*

*Yükünü çəkəmmədim,*
*Arzusunda bünövrəsini qoyduğu*
*evini tikəmmədim.*
*...Dumanlı köçdən ayrılıb,*
*ocağı başında yanammadım.*
*İşıq olub gözlərinə qonammadım,*
*Qara torpaq, muğayat ol anamdan.*

*Qulaq asmadım*
*xeyirxah dualarındakı*
*yalvarışlara.*
*Damar-damar qəmə dönüb,*
*çökdüm alnındakı qırışlara.*
*Xəbər tutammadım düşəndə xəstə,*
*Saxlaya bilmədim gözümün üstə,*
*Qara torpaq, muğayat ol anamdan.*

*Ölüm bəlli, olum yox.*
*Yeri soyuq düşməsin,*
*Bürüməyə şalım yox,*
*İsti közümü yetir.*
*Külümdən duyuq düşməsin,*
*Qara torpaq, muğayat ol anamdan.*

*Qəbrinə gedən cığırlar,*
*barı, itməsin,*
*İllərin altında qalıb*
*qoy məzarı itməsin.*
*Qara torpaq, muğayat ol anamdan.*

## *TUT ƏLİMDƏN, YOLLAR, MƏNİM!*

*Məni yolundan elədi...*
*Dağlar da durdu qəsdimə.*
*Qəlbimdən bir zərrə dərdi,*
*Götürüb atdım üstünə.*
*Əridi dağlar, əridi...*
*Köz-köz üstümə yeridi...*
*Hər şey adamı aldadır,*
*Acı zəhər də bal dadır...*
*Tut əlimdən, yollar, mənim,*

*Bir gör ruhum nə haldadır...*
*Düşüb gümanda azıram,*
*Batıb dumanda azıram...*
*Bir kor zamanda azıram,*
*Tut əlimdən, yollar, mənim!*
*Tamah çəkir öz yoluna,*
*Günah çəkir öz yoluna.*
*Gəl bu dərdin döz yoluna...*
*Tut əlimdən, yollar, mənim,*
*Apar məni Söz yoluna!*
*Tut əlimdən, yollar, mənim!*
*Qıyma şaxta, sazaqlara...*
*Qəribləri yığ başına,*
*Apar, apar uzaqlara...*
*Apar bizi dağ başına,*
*Tut əlimdən, yollar, mənim!*

## *O AĞLAYAN KİMDİ ELƏ?*

*O ağlayan kimdi elə?*
*Ağlaya-ağlaya gülür...*
*Sinəsini qan aparır,*
*Yarasının düyməsini*
*Bağlaya-bağlaya gülür...*
*Ocağı kül, közü gülən...*
*İçi yanıb, üzü gülən,*
*Göz yaşında gözü gülən*
*O ağlayan kimdi elə?*
*Sığınıb qərib dağlara,*
*Batıb qalıb uzaqlara.*
*Qısılıb ötən çağlara*
*O ağlayan kimdi elə?*
*Baxıb şəkil düşən daşa,*
*Göydə süzən tənha quşa...*
*Uşaqlığıyla baş-başa*
*O ağlayan kimdi elə?*
*Dayanıb yolayrıcında,*
*Gözünün yaşı ovcunda.*
*Son Söz dilinin ucunda*
*O ağlayan kimdi elə?*

## *SƏNSİZ*

*Təki sən xoşbəxt ol, sən xoşbəxt yaşa,*
*Bir daha deməərəm "ölərəm sənsiz",*
*Ömrümü birtəhər vuraram başa,*
*Yaşayıb keçinə bilərəm sənsiz.*

*Ataram qəlbimdən qüssə, qəmi də,*
*Yaşaram vəslinə yetmiş kimi də.*
*Bir içim suyu da, son tikəmi də*
*Səninlə şərikli bölərəm sənsiz.*

*Söylərəm dost, tanış-bilişlərinə,*
*Qurbanam bu yerə gəlişlərinə.*
*Həyatda uğurlu gülüşlərinə*
*Ürəkdən şərikli gülərəm sənsiz.*

*Çalınar kədərim sarı sim kimi,*
*Gəl çilən ruhuma təbəssüm kimi.*
*Məzara baş çəkən bir yetim kimi*
*İlk görüş yerinə gələrəm sənsiz.*

*Zakir Fəxri, hicran boş yuvam olub,*
*Yaşaram gah gündüz, gah axşam olub,*
*Pərvanə soraqlı dilsiz şam olub,*
*İçimdə ney kimi mələrəm sənsiz.*

## *ÖLÜM*

*De, hara getdin baş alıb?*
*Yerin, yurdun bilinmədi...*
*Gördüm ki, dünya boşalıb,*
*Nəydi dərdin, bilinmədi...*
*Üzümü tutdum dağlara,*
*Baxdım ki, dağlar kiçilib...*
*Quşlar qonmur budaqlara,*
*Körpə budaqlar kiçilib...*
*Göz açdım ki, təklənmişəm,*
*Səhrada azan kimiyəm.*
*Qəriblikdə yüklənmişəm,*
*Bir qərib ozan kimiyəm.*
*Gördüm dörd yanı su basıb,*
*Ha əlləşdim, keçəmmədim...*
*Bir az susuzdum mən kasıb,*
*Bir qurtum su içəmmədim...*
*Ağaclar quruyur, gördüm*
*Çiynimə yarpaq tökülür...*
*Gözlərimin nuru gedir,*
*Gözümə torpaq tökülür...*
*Hara getdin, söylə, hara?*
*Kürəklərim buz bağladı...*
*Gözlərimin suyu getdi,*
*Bəbəklərim buz bağladı...*

## *ÇİYNİMDƏ TABUT, GƏZİRƏM*

*Alışdım tək daşımağa,*
*Çiynimdə yük daşımağa,*
*Yer yox bir tük daşımağa,*
*Çiynimdə tabut, gəzirəm.*
*Dolaşıram dağı-daşı,*
*Nə zər, nə yaqut gəzirəm.*
*Düyün-düyün yollarımı*
*Aça-aça oxuyan bir*
*Kökdən düşmüş ud gəzirəm.*
*Çiynimdə tabut, gəzirəm.*
*Gəzirəm dörd bir tərəfi,*
*Bilmirəm yolum haradı.*
*Çəkir məni sirr tərəfi...*
*Ölümü gördüm, deyəsən,*
*Görəsən, olum haradı?*
*Suyuna dodaq dəyməmiş,*
*Köksünə ayaq dəyməmiş,*
*Sinəsinə ox dəyməmiş*
*Gözdən uzaq yurd gəzirəm,*
*Çiynimdə tabut, gəzirəm.*
*Dörd yana meydan sulayan,*
*Səsi ruhunu dalayan,*
*Axirət deyib ulayan*
*Yalqız qalmış Qurd gəzirəm,*
*Çiynimdə tabut, gəzirəm.*
*Balalar çiçək doğulur,*
*Gül doğulur balalar.*
*Balalar göyçək doğulur,*
*...Qul doğulur balalar.*
*Torpaqdan altun doğulur,*
*Daşlardan yaqut doğulur,*
*Nədənsə şair doğulan*
*Çiynində tabut doğulur.*
*Çox göynətdi ürək məni,*
*Dərdsiz ürəyə qurd düşər...*
*Silkələmə, fələk, məni,*
*Çiynimdəki tabut düşər!..*

## *BİR AZ DA GƏLDİM YAXINA...*

*Qopdum odumdan, közümdən,*
*Əllərim qopdu dizimdən.*
*Bir az da qopdum özümdən,*
*Bir az da gəldim yaxına...*
*Keçdim ilanlı yolları,*
*Daşlı, tikanlı yolları,*
*Bazar-dükanlı yolları...*
*Bir az da gəldim yaxına...*
*Bir az da qaçdım tamahdan,*
*Nəfslə çəkdiyim ahdan...*
*Qurtuldum bir az günahdan,*
*Bir az da gəldim yaxına...*
*Aldandım dilə, dilçəyə,*
*Qoca nəfsə - ağbirçəyə!*
*Üz çevirdim gül-çiçəyə,*
*Bir az da gəldim yaxına...*
*Dünya şirə, şirələndim,*
*Hər pətəkdə girələndim.*
*Qəm xəlbirində ələndim,*
*Bir az da gəldim yaxına...*
*Çiynimdən yükləri atdım,*
*Hey üzdüm üzü axına...*
*Addım-addım gəlib çatdım,*
*Bir az da gəldim yaxına...*
*Doğmalarım döndü yada,*
*Evim oldu qərib ada...*
*Dolaşıb payi-piyada,*
*Bir az da gəldim yaxına...*
*İçim yalan, çölüm yalan,*
*Bu daş dərddən ölüm yalan.*
*Çat verdi tikdiyin qalan,*
*Bir az da gəldim yaxına...*
*Gözlərimi bağla, Tanrım,*
*Adəm olan bağlamasın...*
*Ağla məni, ağla, Tanrım,*
*Məni bəndə ağlamasın...*

*Gənc şair Sonuncu Orxan adalet.az saytına müsahibə verib.*

# “O kruqlarda bəzən zəif, ədəbiyyat olmayan mətnlər də paylaşılır...”

**- Orxan Zaman, Sonuncu Orxan, Orxan Əlibəyov... Bir neçə təxəllüsün olub, bu imzalar altında yazmısan. Daha çox hansısan? Ədəbi portretin daha çox hansı təxəllüsün altında gizlənib? Yəqin ki, tez-tez bu cür dəyişimin səbəbi də özünü axtarmaq cəhdləridir..**

- Sonuncu Orxan. Bu, mənə daha çox doğmadır. Digər imzalarda yadlıq hiss edirəm. Birincini istəməyərəkdən seçmişəm, təxəllüs olsun deyə. İkincisini məşhur soyadın daşıyıcısı olduğum üçün (Əlibəyovlar Azərbaycanda tanınmış nəsildir, əsilzadəlik titulumuz var). Üçüncüsü isə sırf özümə məxsusdur. Bu imza daha maraqlı və daha ədəbidir, mənə görə.

**- Baban Cəmil Əlibəyov da yazıçı idi. Görmürsənmi babanı? Necə xatırlayırsan? Yəqin ki, bütün yazdıqlarını oxumusan..**

- Görmüşəm. İki-üç dəfə söhbət də etmişik. Şeirlərimi oxuyub, müəyyən düzəlişlər də etmişdi. Nurlu çöhrəsi var idi.

Səsi tutulmuşdu, dediklərini gücbəla ilə eşitmək olurdu. Ona görə çox narahat etmək istəmirdim onu, az-az yanına gedirdim. Yazdıqlarından "Özümü axtarıram", "Qış macərası", "Qızıl at və torpaq", "Zəmanələrlə üz-üzə" kitabını oxumuşam. "Zəmanələrlə üz-üzə" memuardır. Bizim nəslin keçmişinə yer verilib orda. Babamgilin uşaqlıq xatirələri, bəyliyə görə çəkdikləri məhrumiyyətlər, sovet vaxtı təqib olunmaqları və s. Bu mənada mənim üçün həmin kitab daha maraqlıdır.

**- Orxan, şeir yazırsan ancaq. Adətən müəyyən dövrdən sonra görürük ki, şairlər də nəsrə keçir. Xüsusən də gənclər..Həm də, sənin şeir tərəfin sanki bir qədər görünmür. Yaxud da, özün görünməyi istəmirsən qabarıq şəkildə..**

- Şeirdən başqa hansısa ifadə formasında özümü sınamamışam. Bəlkə də, alınar. Amma eksperiment aparmamışam. İndi ifadə formasına görə nəsr daha populyardır və daha ciddi qəbul olunur. Şeirə bir az dırnaqarası münasibət var. Amma bu poeziyanın tamamilə bir ifadə forması kimi sıradan çıxdığını deməyə dəlalət etmir. Bob Dilan Nobeli şair kimi almışdı. Mən nəsrə keçərəmmi, keçmərəmmi, bilmirəm, açığı.

**- İki şeirlər kitabın var. "Sevgi sonatası", "Çəhrayı yuxular". Birinci kitabın bir neçə il əvvəl çıxıb, ikinci təzəlikcə. Bu qədər aradan sonra reaksiya görə bildinmi? Necə düşünürsən? Adətən, şeir kitabı çox olanlar da ciddi qəbul olunmur. Davamlı olacaqmı səndə də? Yoxsa, itib-batmasin deyə çap edirsən?**

- Səmimi deyirəm. İtib-batmasın deyə çap edirəm. Heç vaxt şeirlərimə ciddi, kütləvi reaksiya olmayıb. Çünki şeirlərimin parıltısı yoxdur. Vurucu misralar yoxdur məndə. Ona görə insanlara maraqlı gəlməmişəm. Bəlkə də, hardasa kimsə təklikdə o şeirləri oxuyub təsirlənər, məni sevə bilər, amma bu heç vaxt kütləvi olmayacaq.

**- Onda özün belə istəyirsən demək ki.. Narazılığın da yoxdur. Çünki hərdən mənfi reaksiyalar da olur ki, bu nə şeirlərdir, qurudur, heç nə yox. Qıcıqlanmırsan belə olanda? Janr olaraq ədəbiyyat adamları söhbəti bilir, amma hər oxucu intellektual olmadığı üçün qınana, tənqid oluna bilirsən...**

- Baxır, hansı reaksiyaya qıcıq oluram. Məsələn, bu gün biri yazıb ki, bu cızma-qaraya şeir demək də çoxdur hələ. Hansı ki, o adam nə vaxtsa bir roman yazıb, o romanda təxmini belə bir cümlə var:"Oğlan köpüklü amerikano içdi, köpük dodaqlarına yayıldı". Amerikanonun sadə, köpüksüz kofe olduğunu bilmir, bunun yazdığı rəyə bax. Belə dəxlisiz adamların rəyinə qıcıqlanıram. Amma tutaq ki, kimsə desə ki, şeir alınmayıb, buna qətiyyən qıcıqlanmaram. Əksinə, təəssüflənirəm ki, şeirin zəif tərəfi nədir? Amma son şeirmə ("Balıq" poetik silsiləsi) maraqlı reaksiyalar da oldu.



**- Özünün ən yaxşı şeirin hansını hesab edirsən ki, müsahibəni oxuyanlar gedib o şeiri oxuyaraq istedadına bələd olsunlar, səni tanısınlar ?**

- "Sənə vurulmuşam əslində..." bu ən sevdiyim şeirimdir.

**- Orxan, ədəbi mühitdə də səni çox susqun görürük. Həm ümumi hadisələrə, həm də ədəbi proseslərin özünə..**

- Belə daha yaxşıdır. Heç kimə qaynayıb-qarışmamaq. Nəyəsə xatir kimisə tərifləməmək, kiminləsə çay içməmək, pivə içməmək, lüzumsuz söhbətlər dinləməmək. Beləsi daha rahatdır mənim üçün. Hadisələrə reaksiya vermək məcburiyyətim yoxdur. İnsanın belə lüksü olmalıdır, məncə.

**- Nəyəsə xatir kimisə tərifləmək deyəndə "kruq ədəbiyyatı" anlayışını nəzərdə tutursan?**

- Yox. Kruqun olmasa belə, bəzən oturub çay içdiyin, araq vurduğun, evində çörək kəsdiyin, siqaret çəkdiyin adamı məcburiyyətdən tərifləyirsən.

Sabah üz-üzə gələndə sənlə mübahisəyə girişməsin deyə. Pulun olmayanda çay alsın deyə. Siqaret istəyəndə ürəklə versin deyə. *(gülür)*

**- Necə baxırsan bu "kruq" söhbətinə? Səncə, olmalıdır? Əksər ədəbi mühit adamları pisləyir, amma elə özləri də "kruqdur". Ümumiyyətlə, bunu həqiqətən pisləmək lazımdırmı? Dünya ədəbiyyatının o qədər yazıçısı var ki, onlar da zamanında "kruq" olub. Amma bizdə buna az qala əxlaqsızlıq kimi baxılsın.**

- Birmənalı münasibət göstərmək olmur. Bunun yaxşı tərəfi odur ki, "kruq"un səni müəyyən mənada əlini çörəyə çatdıra bilər. O da bir yerə kimi.

Məsələn, mən nə sosial şəbəkələrdə, nə ədəbi mühitdə tanınmıram. Amma Ayxan məşhurdur. O hansısa yazımı paylaşanda yaxşı-pis reaksiyalar gəlir. Amma özüm paylaşanda reaksiya çox az olur. Bu mənada yaxşıdır. Amma bir tərəfdən də görürük ki, o kruqlarda bəzən zəif, ədəbiyyat olmayan mətnlər də paylaşılır və yüksək səviyyədə təbliğ olunur. Bu, pisdir.

**- İctimai olaraq da ədəbi proseslər də səni maraqlandırmır? Məsələn, Azərbaycan Yazıçılar Birliyi. Münasibətin necədir, ədəbiyyatı layiqincə təmsil edə bilirlər?**

- Məncə, Yazıçılar Birliyini tənqid hədəfinə çevirmək kultu artıq köhnəlib. Bu artıq qəhrəmanlıq sayılmır. Vaxtında Seymur Baycan, Rasim Qaraca, Şərif Ağayar yıxıbsürüyüblər və düşünürəm ki, AYB ilə haqq-hesab çürüdülüb.

**- Fəaliyyətləri göz qabağında olsa da, münasibət birmənalı deyil. Tərifləyirlər də, pisləyirlər də. Yaradıcı gənc kimi sənin öz mövqeyin necədir? Fəaliyyətlərini bəyənirsən?**

- Birlik olaraq ədəbiyyat adına hansı işləri görüblər? Bunu demək üçün onların fəaliyyətini izləmək lazımdır. Mən AYB haqqında ancaq tənqid oxumuşam. Hər halda yaxşı işləri də var onların. Amma hansı işlər görüblər və görürlər, gördükləri iş hansı səviyyədir, müasir yanaşmalara nə qədər adekvatdır, bilmirəm. Onun üçün də AYB-nin fəaliyyəti haqqında heç bir fikrim yoxdur. Yalandan hamı tənqid edir deyə mən də tənqid edə bilmərəm.

**- Müsahibə üçün təşəkkür edirik.**

- Çox sağ olun, mən də təşəkkür edirəm.

**Söhbətləşdi;**
**Orxan Saffari**

# Ruhun zəlzələsinin poeziyası

**Ağ və qara!**
**Ölərkən də ağa bükülmək, qara torpağa qoyulmaq.**
**Demək dünya yalnız iki rəngdən ibarət imiş.**
**Tanrı nə qədər rəng çalarları yaratsa da...**

Bu sətirlər istedadlı şairə Aida Adıgözəlin sayca ikinci kitabı olan ”Ruhumdakı zəlzələ” (2020-ci il) şeir və esse toplusundadır.

Allah-Təala insanı gözəl bir varlıq olaraq yaratmış və ona öz ruhundan bir ruh üfürmüşdür. Ağıl, yaddaş və iradə kimi qabiliyyətlərlə zənginləşdirərək yer üzünə endirmişdir. Böyük Yaradan sözün sehrini ilk öncə Peyğəmbərlərə öyrətmiş, onlara vəhy vermişdir. Yer üzündə Peyğəmbərlərdən sonra söz xiridarı, söz sehrinin biliciləri şairlərdir. Çünki şairlər də Allahın onlara bəxş etdiyi vergi nəticəsində sözləri uyğun harmoniya ilə səsləndirməyi bacarırlar.

İnsanlar adətən öz məharətlərinə görə yaşıdları ilə müqayisə olunur və özlərindən sonrakılara da örnək olurlar. Hər hansı bir işi görmək istəyi-həyatın bütün sahələri, yaratmaq sözü ilə bağlıdır.

İnsanlar hər sahə üzrə nə isə yaradır. Bax, bu Allahın özündən sonra insana lütf edib, bağışladığı yaratmaq qabiliyyətidir.

Aida Adıgözəl də həmin o yaradıcılığın qulpundan tutan Allahın gözəl bəndəsidir.

İndiki dövrümüzdə baş verən tarixi hadisələr və taleyüklü olaylardan qaynaqlanan ədəbiyyatımız yeni-yeni müəlliflərlə gündəmə gəlir.

Hal-hazırdakı Azərbaycan ədəbiyyatında mövzu zənginliyi, yazı üslubu, mövzuya yanaşma manerası ilə seçilən öncül yazarlarımızdan biridir Aida Adıgözəl.

Onun şeirlərini oxuduqca Azərbaycan ədəbiyyatının şeriyyətinə yeni bir nəfəsin, yeni bir tərzin, yeni bir növün gəldiyinin şahidi olur insan.

Bu tamamilə başqa bir poetik aləmə səyahətdir. Aida xanım şeirlərindəki təzadları ilə, təşbehlərilə, bənzətmələrilə adi danışıq dilində oxucusunu heyrətə salır.

O, bu kitabdakı şeir və esseləri ilə dövrümüzün müasir və aktual mövzularına toxunur. Ancaq ən çox müraciət etdiyi mövzu əlbəttə ki, məhəbbətdir.

***İlahi, bu qızı sevgidən öldür,***
***Basdır şeirlərdə, sözlərin üstə.***

Bir əncir ağacının çiçək açıb, varbəhər gətirməsi prosesini qələmə alsaq, bir kitab yazmaq olar.

Hər bir şairin də ömür yolu çiçək açıb sonra bar gətirən ağaca bənzəyir.

Niyə məhz əncir ağacını misal gətirdim. Çünki, əncir ağacının çiçək dövründən sonra var-bəhər verməsindən əvvəl onun vərəncir adında bir yeyilməyən barı olur. Bunlar ilə əncir ağacı özünün necə bar gətirəcəyini bildirir. Şair ömrü əncir ağacına bənzəyir. Əvvəl çiçəkləyir. Yəni öz kövrək şeirlərini yazır. Bəyənilir, bəyənilmir.



Redaksiyalara gedib-qayıdır. Sonra vərəncir barı gətirir və bununla o, bildirir ki, bundan da şirin, bundan da gözəl bar-bəhəri artıq gətirmək üzrədir. Və sonda öz bəhəri - şeirləri ilə insanları sevindirir. Aida Adıgözəl də belə bir şairədir. Onun hər bir əsəri insanı-oxucusunu duyğulandırır.

Şair özünü yazanda daha da mükəmməlləşir. Çünki özünü yazan, dərdini, sevgisini, xoş gününü bölüşən müəllif oxucusuna daha yaxın olur.

Şairənin hər şeirində, hər bir essesində oxucusunu tərpədəcək qədər bir müdriklik duyulur.

Aida xanım öz şeirləri ilə oxucusunu sirli aləmlərə aparır.

***Usta, ayrılığın şirin yerindən,***
***Ən dadlı günündən bir qab tök mənə.***
***Göz yaşı bol olsun, duzlu sevirəm,***
***Ağrı-əzabından bol-bol çək mənə.***

Paklığa, halallığa, müqəddəsliyə can atmayanın aqibəti yoxdur. Hər zaman dünya qışqırıqla dolanda səmimiyyət qəhətə çıxır. Şairlərin ən birinci vəzifəsi də mütləq bir səmimiyyətin tarazlığını saxlamaqdır yer üzündə.

***Ağzı günə qalan köhnə yurd yeri,***
***Mənəm qıçı sınmış, qapını döyən.***
***Gəlmişəm baş çəkim ocaq yerinə,***
***Ruhu səfil qalmış, yiyəsi ölən.***

Söz haqqın ətəyindən tutanda o söz çox yaşayır. Aida xanımın da şeirləri haqqın ətəyindən tutan misralarla oxucusunun görüşünə gəlir. Onu düşündürür.

***Bumeranq kimidir atılan oxlar,***
***Ondan doqquzu da hədəfə dəysə.***
***Gözümü boyamaz göy qurşaqları***
***Buqələmun kimi rəngin dəyişsə.***

Bu odur... Öz ülviliyilə, öz sadəliyilə və öz şair qəlbilə məhəbbətini şeirlə israr edən gözəl bir xanım.

Çünki şeir yazan, mahnı bəstələyən, rəsm çəkən bir sözlə Allah tərəfindən istedad şəhadətnaməsi alan hər bir kəs pis ola bilməz. Onun yaradıcılığının ruhu-poetik düşüncəsinin nuru, cismi, elmi-ədəbi təfəkkürün təntənəsidir desəm fikrimdə yanılmaram.

***Gedirəm sevgimiz sənə əmanət,***
***Bu şəhər, bu da sən daha əlvida.***
***Gözləmə, əzizim, gözləmə məni,***
***Nə mən, nə də yollar geri qayıdar.***

**Aida Adıgözəlin Vətənə sevgisi, torpağa, elinə, obasına məhəbbəti sadə xalq dilində anlaşılan ruhundan süzülüb gələn müqəddəs hisslərin toplusudur. Bu toplumda Aida xanımın sözü görünür. Sözünün çəkisi, rəngi, ətri duyulur. Hər şeirində, hər essesində bir dünya göz önünə gəlir. Çünki bu əsərlər Aida Adıgözəli öz xalqına tanıdacaq və sevindirəcək. Onun poeziyasıyla tanış olan hər bir kəs inamında yanılmadığına qəti əmin olacaqdır.**

**Mahmud Mayıloğlu**

# FİDAN NİZAMƏDDİN QIZININ "UŞAĞIN DUASI" HEKAYƏLƏR TOPLUSU HAQQINDA BƏSTƏLƏNMİŞ NOTLAR



**İbrahim Yusifoğlu**
***Azərbaycan Yazıçılar və Jurnalistlər Birliyinin üzvü, Prezident təqaudçüsü, AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun əməkdaşı***

***Hər bir ailəyə xoşbəxtlik bəxş edir körpə gəlişi... Ürəklərdə nura, dodaqlarda təbəssümə dönür körpə gülüşü! Bir mahnı kimi qəlbləri ovsunlayır körpə qığıltısı. Günlərin birində bu körpələrin dilindən nəğmələr eşidəndə, şeirlər dinləyəndə, nağıllara qulaq asanda fərəhimizdən yerə-göyə sığmırdıq. Hansısa bir anda bu məsum və günahsız körpələrin baxışlarında kədər və dalğınlıq yanaqlarında göz yaşları görəndə ömrümüzün ən kədərli bağışlanmaz anını yaşayırıq. Bu isə onları bizə daha çox sevdirir, daha çox mehribanlaşdırır.***

Azərbaycan uşaq ədəbiyyatının yaşı qədimdir. İbtidai insanların həyat tərzi, əmək vərdişləri, təsərrüfat işləri, şifahi xalq ədəbiyyatımızda genişliyi ilə öz əksini tapmışdır.

### *Yazılı ədəbiyyatımızda*

uşaq ədəbiyyatı və uşaq mətbuatı yeni inkişaf yoluna çıxmışdır. Müasir dövrümüzdə isə uşaq ədəbiyyatı ilə məşğul olan, gözəl, qəlboxşayan əsərlər yaradan, ədiblərimiz çoxdur. Lakin bu uşaqların qəlbini duyan müəlliflər çoxdur.

Bu müəlliflərdən biridə filologiya üzrə fəlsəfə doktoru Azərbaycan Milli Elimlər Akademiyasının Nizami Gəncəvu adına Ədəbiyyat İnstitutunun ədəbi tənqid şöbəsinin aparıcı elmi işçisi, yazıçı Fidan Nizaməddin qızıdır.

***Dövrü mətbuatda tez-tez uşaqlar üçün yazdığı hekayələrini dərc etdirən Fidan xanımın 2020-ci ildə "Şərq-Qərb" nəşriyyatında "Uşağın duası" adlı kitabı nəşr olunaraq geniş oxucu kütləsinin ixtiyarına verilmişdir. "Uşağın duası" kitabının digər uşaqlar üçün yazılmış kitablardan fərqləndirən cəhətlərdən birisi kitabın bütöv dünyanı bürüyən pandemiya dövründə meydana çıxması və bu qorxunc bəlanın - koronavirusun törətdiyi fəsadlardır.***

Kitabda 26 müxtəlif mövzulu kiçik həcmli hekayələr yer alsa da, onların bir çoxunda koronavirus qorxusunu yaşamış, bu qəfil gələn, gözlənilməz bəlalar törədən, qorxunc hallara yol açan və bunları görən, yaşayan uşaqların həyatından, duyğularından danışılır.

### *"Fidanın yığcam hekayələrinə yığcam ön söz"*

adlı yazısında filologiya üzrə elmlər doktoru, professor Qəzənfər Paşayev "Uşağın duası" kitabı haqqında yazır: "Bu gənc yazıçı haqqında böyük fikirdə olmaqdan çox-çox uzağam. Ancaq Anton Çexovun, Mir Cəlalın və Salam Qədirzadənin hekayələrindəki yığcamlığı Fidanın hekayələrində gördüm və bu məni çox sevindirdi. Bu yığcam hekayələrdə məna dolu mətləblərdən söz açılır. Hekayələrin hamısı kiçikhəcmli, ibrətamizdir. Uşaqlar üçün yazılmış hekayələr elə belə də olmalıdır".

Bu fikirlər hörmətli professorun gənc bir yazıçının yaradıcılığına, onun sənətkarlıq qabiliyyətinə verdiyi layiqli qiymətdir. Və deyərdim ki, çox yerində söylənilən layiqli qiymətdir.

Doğrudan da, iki-üç vərəqli hekayələrin hər birində insan iztitabları çox ustalıqla, real boyalarla təsvir edilmiş, oxucularına təqdim olunmuşdur.

Kitabdakı "Uşaqların duası" adlı müəllif sözü də çox maraqlı və təsirlidir. "Keçid dövrü" deyilən illərin uşaqlarının üzünə həyat doyunca gülmədi: "Şanlı Ordu"nun törətdiyi 20 yanvar qırğını, Sovet ordusunun köməyi ilə erməni qan içənlərinin həyata keçirdikləri Xocalı faciəsi, Qarabağ adlı dilbər güşənin və ətraf rayonların yadellilər tərəfindən işğal edilməsi, respublikaya rəhbərlik edənlərin səriştəsizliynin törətdiyi hərcimərclik məhz onların uşaqlıq illərinə düşmüş, ömrü saf və təmiz xatirələrlə yadda qalan xoşbəxt anlarını əllərindən almışdır.

***XXI əsrin 20-ci illərində isə bütün bəşətiyyəti ən qorxulu bəla - koronavirus ram etdi. Uşaqlar da bu bəlaya turş gəldilər. Bağçalarından, məktəblərindən, dostlarından, oyunlarıdan uzaq düşdülər - uşaqlıq anlarını, illərini itirdilər.***

"Uçurum" kitabın ilk hekayəsidir. Və bu hekayəni həyəcansız oxumaq olmur: "Ölüm qorxusundan hamı eyni cür qorxur - ölüm kimi. Tez-tez düşündüyüm bir məslə vardı: Görəsən, insan ölüm anında kimi düşünür? Nəyi xatırlayır?" Kitabdan nümunə gətirdiyimiz bu və ya digər suallara hegemon dövlətlərin Suriyada törətdikləri dəhşətli müharibə nəticəsində ölüm ayağında can verən uşağın cavabı heyrətamiz və qəlbağrıdıcıdır: "Hər şeyi Allaha deyəcəm!"

Müəllif qəribə bir sualla da oxucusuna müraciət edir: "Bəlkə də, bu səbəbdən dünyanı sarsıdan, hamının ciyərinə ölüm çələngi hörən bu ağır xəstəlik uşaqlardan yan keçir..." Və sonda... "Bu gün Allaha şikayətə gedən o suriyalı uşaq sükut içində boğulan dünyanın yalın küçələrində yaşadıqlarını və yaşaya bilmədiklərini düşünərək uçurumlarda çərpələng uçurur..." Hər nədirsə qəlb göynədən hamını düzlüyə hegemonluqdan uzaq olmaga səsləyən, susmayan bir sədadır.

***Fidan Nizaməddin qızı "Uşağın duası" kitabındakı hekayələrin bir çoxuna mövzuya uyğun olaraq böyük şəxsiyyətlərin müdrik fikirlərindən sitadlar gətirmişdir. "Uçurum" hekayəsində Nitsşenin "Uçurumlar sevənin qanadları olmalı. Yüksək dağlarda buzlar içində könülü yaşamaqdır fəlsəfə...", "Uşaq evində karantin"də Xalid Hüseynin "Uşaqlar qorxu ilə belə mübarizə aparır - onlar yuxuya gedirlər", "Günəşin ad günü"nə Jül Renarın "Hər gün bir stəkan günəş içib, bir çovdar sünbülü yemək lazımdır", "Niyyət"ə Ebussuud Əfədinin "Yarın haqqın divanına varınca, hesab sorar Süleymandan karınca", "Babamın medalları" sənədli hekayəsində Viktor Hüqonun "Sülh bəşəriyyətin xilası müharibə isə cinayətdir", "Son gediş"ə isə Mehmet Akif Ersoyun "Dul kaldı kadınlar, babasız kaldı cocuklar, bir gir yedə bin ailenin matemi çağlar". Bu sitatlar hekayələrin mövzularına uyğun seçilmiş onların mövzuları ilə vəhdət təşkil edirlər.***

### *Odlar Yurdu Azərbaycanımızın*

başının üstünü almış qara buludların dağılması iyirmi səkkiz ildən çox çəkdi. Bu illər ərzində işğal edilmiş torpaqlarımızın düşmən tapdaqlarında inlədi, insanlarımız öz doğma el-obalarından qaççın və köçgünə döndülər.

Evlərə şəhidlər gətirilidi. Bütün bu hisslər Fidan Nizaməddin qızının "Son gedis" hekayəsində özünəməxsus deyim tərzi ilə öz əksini tapmışdır.

Bu hekayədə ata-oğul münasibətləri, dünyanın ən böyük və müqəddəs üçrəngli bayrağına məhəbbət, torpaq uğrunda canını qurban vermiş şəhidə böyük ehtiram, atasız qalmış evin kişilik yükünü hələ bərkiməyən çiyinlərə götürmək kimi missiyanı həyata keçirən bir uşağın obrazı canlandırılmışdır: "Sıra dağlar kimi arxasına dönmədən canını verən, müqəddəs bayrağımızın qucağında, qoruduğu və qanının axdığı torpağa qovuşacaqdı atası". İzdihamın qarşısına çıxıb hasar qapısında atasını qarşılayır, elə bu anda anlayır ki, atası ölümü ilə Şəhidlik zirvəzisə qovuşub, bu andan etibarən bu həyatda atasının əvəzinə yerişlər edəcəkdir. Bu onun mənəvi borcudur.

Kitabdakı hekayələrin hər birisi psixoloji cəhətdən uşaq dünyasını əks etdirir. "Küsmək haqqım..." isə oxunduqdan sonra oxucuda çox böyük əks səda yaradır. Müəllifin səkkiz yaşında atasız qalan qızı Cəmiləyə ünvanladığı bu hekayə çox mənalı və aktual mövzuya toxunulubdur: "Göz yaşımın sayı qədərdi küsməklərim... Həyatdakı sonuncu əzizimin məni tək qoyması kimi küsürəm. Mən küsəndə özümü yer kürəsinin sonuncu insanı kimi hiss edirəm. Məktəbdə coğrafiya kabinetində müəllimin stolunun üzərindəki qlobusu firladan bir uşağın şəhadət barmağı kimi tək tənha qalıram".

Hekayədə küsən uşağın düşüncələri ilə "küsmək" məhvumu bir neçə mənada hallanır:

- Küsmək həyatında ondan əziz biri yoxdur deməkdir;
- Küsmək sönmüş vulkanın tüstüsüdür. Barışanda püskürəcək;
- Küsmək mənim xarakterimin bu həyatdan dönüş hissəsidir.
- Küsmək diqqətsizlikdən doğulan bir körpədir;
- Küsmək həyata sevgi ilə qarışanların şirin qəmzəsidir;

Atasını səkkiz yaşından itirən qızcığaz həyatda küsməyi öyrənir və qəribədir ki, yalnız anasından küsür. Onun üçün dünyanın sonuncu adamı anasıdır.

Qəribədir, hamınının ataanası, əzizləri, doğmaları dünyadan köçür, onlara yetim deyilmir, bəs niyə yalnız uşaqlara yetim deyilir? Hələ qız qəhrəmanımız üçün açılmayan bir sualda cavab gözləyir: "İnsanlar arasında bir ifadə var - yetimdoyuran. Yəni, böyük həcmli boşqab. Bu ifadəni də pis qarşılayır qızcığaz. Ümumiyyətlə bu hissləri duyğuları duymaq üçün hekayənin özünü diqqətlə oxumaq əsasdır. Verilən suallara özün cavab tapmalısan...

"Uşağın duası" hekayələr toplusu cəlbedici tərtibatla hər hekayənin mövzusuna uyğun rəsm əsərləri ilə oxuculara təqdim olnumuşdur.

**Biz elmi-tədqiqat sahəsində bir çox uğurlara imza atmış, filologiya üzrə fəlsəfə doktoru, Prezident mükafatçısı Fidan Nizaməddin qızına bədii yaradıcıl yollarında uğurlar diləyir, uşaqların təzadlı dünyalarını obrazlı şəkildə əks etdirən yeni əsərlərinin işıq üzü görməsini arzulayırıq... Fidan Nizaməddin qızının özünün yazdığı kimi "Uşaq aləmi günəş kimidir, işığı və istisi heç vaxt tükənmir..."**

---

*Qurban Məhərrəmoğlu*



## QƏLƏBƏ BAYRAMI

Şənliklər içində Azərbaycanım,
Bayram yürüşləri keçir hər yerdən.
Cənnət tək bəzənib Nəqşi-cahanın,
Bakıya salam var hər bir ürəkdən.
Zəfər bayrağıdır şəhidlər qanı,
Dünya şahid oldu qələbəmizə.
Düşmənlər yurduna saldıq böhranı,
Onlar diz çökdülər zəfərimizə.

Sevincə qərq oldu şəhərlər, kəndlər,
Nəğmələr bürüyüb bütün ölkəni.
Getdi vətənimdən dərdlər, kədərlər,
Qovduq başımızdan dumanı, çəni.
Gözün aydın olsun , ey gözəl vətən!
Düşmənlər baxdıqca bağrı sökülür.
Sənə alqış gəlir hər dost ölkədən,
Düşmənlər gözündən yaşlar tökülür.

Qələbə bayramı canlı bir əsər,
Müzəffər ordumuz keçir paraddan.
44-gün düşmənə çalmışıq zəfər.
Əsgərlər zövq alır yeni həyatdan.
Ölməzlik rəmzi var hər bir şəhiddə,
Onlar tarix kimi yaşayır hər vaxt.
Qələbə rəmzi var kənddə, şəhərdə,
Onları unutmaz heç zaman həyat.

Həyat davam edir öz axarında.
İlham qayğısı var insanlar üçün.
Onun öz yolu var bütün dünyada,
Bunu dərk edənlər anlasın bu gün.
Yırtıldı düşmənin hiylə maskası,
Onları tanıdı bütün ölkələr.
Vətəndə başladı birlik bərpası,
Susdu Avropadan əsən küləklər.

Daşaltı tarixdi illər keçsə də,
Vardı şəhidlərin qanı bu yerdə.
Bəzəyib vətəni çiçəklər, güllər,
Ana vətənimiz qəm görməz bir də.

## QƏLƏBƏ EŞQİYLƏ SƏN YARANMISAN

Səni bənzədirəm aya, günəşə,
Ömrünü sərf etdin bütün döyüşə.
Tarix nəzər edir bu çətin işə,
Sən türk dünyasının böyük oğlusan,
Qələbə eşqilə sən yaranmısan.
Sənsən davamçısı o, Atatürkün,
Əyilməz dağları çapır külüngün,
Dünyaya hökümdür sənin söz mülkün,
Sən türk dünyasının böyük oğlusan,
Qələbə eşqilə sən yaranmısan.

Biz iki dövlətik, biz bir millətik,
Düşmənlər sanmasın döyüşdə təkik.
Düşməni ram edən böyük qüdrətik,
Sən yürk dünyasının böyük oğlusan,
Qələbə eşqilə sən yaranmısan.
Sənsən yer üzünün məğrur qartalı,
Sənsiz bu dünyanın qarışar halı,
Sənsən vətənpərəst vətən xəyallı.
Sən türk dünyasının böyük oğlusan,
Qələbə eşqilə sən yaranmısan.

Qəddini əyibsən alçaq başların,
Qarşısın alıbsan bəd alqışların.
Düşməni ram edən o çıxışların,
Sən türk dünyasının böyük oğlusan,
Qələbə eşqilə sən yaranmısan.
Haqqa, ədalətə qapı açırsan,
Bütün məzlumlara işıq saçırsan,
Cümlə müsəlmanın haqq dünyasısan,
Sən türk dünyasının böyük oğlusan,
Qələbə eşqilə sən yaranmısan.

Hər sözün, söhbətin tarix yaddaşı,
Qoymadın gözlərdən axsın qəm yaşı.
Unutmaz heç zaman qardaş qardaşı
Sən türk dünyasının böyük oğlusan,
Qələbə eşqilə sən yaranmısan.
Məğlub edilməzsən Tayyıb Ərdoğan,
Sənin amalınla yaşayır dövran,
Terror dünyasını edibsən viran,
Sən türk dünyasının böyük oğlusan,
Qələbə eşqilə sən yaranmısan.

Çox xəstə başları etdin müalicə,
"Makoron" sağaldı, durdu o gecə,
Məhv oldu onlarda çılğın düşüncə,
Sən türk dünyasının böyük oğlusan,
Qələbə eşqilə sən yaranmısan.

*Şərur rayonu, Tumaslı kəndi*



*Vahid Əlifoğlu*

## NƏ GETMƏYƏ, NƏ QALMAĞA ÜZÜM VAR

Kim çəkibsə bu çevrəni, sözüm yox,
Ha axtardım, ha fırlandım, izim yox.
Nə getməyə, nə qalmağa üzüm yox,
Bir az qal var, bir az öl var içimdə.

Dağın dibi, yalın dalı nağıldı,
Gümanlarım it unu tək dağıldı.
Sularında balıqları boğuldu,
Kürüsü çürümüş göl var içimdə.

Nə açarı, nə kilidi hasarın,
Gor evinə çəkilidi hasarın...
Bu gördüyün şəkilidi hasarın,
Arxasına gizli yol var içimdə.

Çoxdu tez qazanan, gec dolandıran,
Durmadı qabağa heç, dolandıran...
Qışda neçə sürü, köç dolandıran,
Yayda örəniyən çöl var içimdə...

## FƏLƏSTİN UŞAQLARI

Uşaq atasından güclü
heç kimi bilməz.
Atalarının
Bir barmaq qurşun önündə,
Nə qədər aciz olduğunu
Öz gözləri ilə gördülər.
Beşikdən tank olmaz,
Yüyrükdən təyyarə.
Gülləyə atılan ilan kimi,
Qaldılar qıvrıla-qıvrıla,
Qaynar qumun üstündə-
Fələstin uşaqları...

Bu dünyanın şərqində
Güllələnən uşaqların
qığıltısı himn deyil
Göz yaşları adi sudu,
İçində bir ovuc duz ərimiş...
Qışqıra-qışqıra,
Hıçqıra-hıçqıra,
Mərmilərin, raketlərin
"Atdöşündə" qaranəfəs...
Yerdə qaçanlardan,
Göydə uçanlardan,
Kürəyini, sinəsini
Nişangahda saxlayandan,
Hər kəsdən, hər şeydən,
Aman dilər, mərhəmət umar-
Fələstin uşaqları...

... Buşun da nəvələri var
Raysın bətni-
Cəhənnəm dərəsi...
.. Qərbin baş nazirləri,
Dəmir nazirləri, daş nazirləri...
Namussuzluğu, fahişəliyi ilə
fəxr edən,
İt nazirləri, quş nazirləri,
Kişi olsalar da,
ata deyillər...
qadın olsalar da,
ana deyillər...
... Cəlladdan törənən də
cəllad olacaq, vallah...
La ilahə illəllah...
... Nəyə nifrət,
Kimə lənət?..
... Gözlərin görə-görə,
Ağlın kəsə-kəsə
Əlac edə bilməyəsən
Sevdiklərinə, əzizlərinə...
Bir gün baxırsan ki,
Öz boy-buxunun
dar ağacıdı özünə,
Əllərin də kəndirdi boğazına.
Və ayaq üstə,
öz əllərinlə.
Öz-özünü boğub öldürmüsən,
Xəbərin də olmayıb...

***

Karvan getdi, dalınca bax,
Bu kəsərsiz qılınca bax.
Yorğana bax, balınca bax,
Yatırtdı nağıllar bizi.

Bəxt karxana sərər, görməz,
Yetişməmiş dərər, görməz...
Allahdan gün görər-görməz,
Səbətə yığırlar bizi...

Göy nə çəkdi, yer bilmədi,
Biçən biçdi, vər bilmədi.
Anasına ər bilmədi,
Bilmədi oğullar bizi...

Nə fərqi var - erkək, dişi,
Tərgitməyək bu vərdişi.
Qurutmağa dəyməz, kişi,
Onsuz da sağırlar bizi...

***

Xoşbəxt günlərimiz harda qurtarır,
Nahaq çəkdirirdin sən, bu hasarı.
Bütün icazələr burda qurtarır,
Niyə aşmalıyam mən, bu hasarı?

Quru xəyallarda yaşayır adı,
Əkmədin, gözləmə biçində heç nə.
Hər şey bu sarayın hasarındadı
Girsəm nə tapacam içində - heç nə.

Tənhalıq ömrümə ələyir qarı
Qonaqsız evlərdə dərd var, azar var.
İndi göy üzünün mələyi - qarı,
Endi yer üzünə, yerdə hasar var...

Eh, giley-güzardı axırda sevgi
Kağız çiçəkləri quşdan kiçikdi.
Vallah, şişirdirsən, bu xırda sevgi
Üst-üstə qoyduğun daşdan kiçikdi...

Sənsiz ölməmişəm illər uzunu,
Arvad söhbətiymiş məni ağrıdan.
Niyə bilməmişəm, illər uzunu,
Hasar həsrətiymiş məni ağrıdan...

Qılıqlı nəfəsə, sevdalı səsə
Ölüm ayağında çatdım həmişə.
Dünyadan nə umdum, nə istədimsə,
Hasara bükülü tapdım, həmişə...

Deyirdim ki, bəlkə çıxdı qanadım,
Göylər yurd yeridi, yer yuvasızdı.
Yaxşı ki, uçmağa yoxdu qanadım,
Yaxşı ki, bu hasar darvazasızdı...

***

Açdım hər sirrimi yoldan keçənə,
Yüz başa bir sınıq qoldan keçənə.
Didilmiş yun qalır koldan keçənə,
Yazdım şeirləri mən nahaq yerə.

Bir çöp itkisinə çoxdu göynəyən,
Aclara nə var ki, toxdu göynəyən.
Mənim dərdlərimə yoxdu göynəyən,
Yazdım şeirləri mən nahaq yerə.

Bülbüldən matahdı millətə, bayquş
Neyləsin ləkəli qeyrətə bayquş?
Biz vətənə yükük, qürbətə bayquş,
Yazdım şeirləri mən nahaq yerə...

Yolsuz yolçuların itiyi sözdü,
Dağılmış evlərin kötüyü sözdü.
Şair balasının yediyi sözdü,
Yazdım şeirləri mən nahaq yerə.
Götürüb daş kimi atdılar məni,
Keçi qiymətinə satdılar məni,
Qoyun sürüsünə qatdılar məni,
Yazdım şeirləri mən nahaq yerə.

Yel vurur, sovrulan külümə heyif,
Sevə bilmədiyim ölümə heyif,
Əlli il çəkdiyim zülümə heyif!
Yazdım şeirləri mən nahaq yerə

Kim bilir, qayğısız yerdə doğulsam,
Gülərəm doyunca dərdə, doğulsam.
Mən şair olmaram, bir də doğulsam,
Yazdım şeirləri mən nahaq yerə...

***

Dərd qovurdu, qəddim, boyum qurudu
Dərdli sinəm oyum-oyum qurudu.
Dəhnəm uçdu, selim-suyum qurudu,
Gözlərimi silməyimdən keçdi tay

Kaman kimi gərilmişəm Vətənsiz,
Sarfa-sarfa dərilmişəm Vətənsiz,
Yüz yol ölüb-dirilmişəm Vətənsiz,
Birdəfəlik ölməyimdən keçdi tay

Sozüm yoxdu yerə enmiş meymuna,
Məclislərdə şirə dönmüş meymuna.
Çox əyildim itə minmiş meymuna,
Bu hikmətə gülməyimdən keçdi tay

Vahid Əlifoğlu zillətə düşdü,
Qısıldı yadlara, minnətə düşdü.
Mənim də qismətim qürbətə düşdü,
O dağlara gəlməyimdən keçdi tay...

***

Bu dünyadı, gün də yazır,
Dağa-daşa çən də yazır.
Bəndə pozur, bəndə yazır,
Fələyin adıymış elə...

Cələdədi sirr, quş gəlməz,
Tora, dənə hər quş gəlməz.
Yüzün yandır, bir quş gəlməz,
Lələyin adıymış elə...

Fırlan görüm, təkər şeytan
Uçuruma çəkər şeytan.
Şah iblisdi, nökər şeytan,
Mələyin adıymış elə.

Yollara bax, yol ağıdı,
Yolçu getmir, dərd dağıdı...
Torpaq qutu qapağıdı,
Bələyin adıymış elə.

Ovcumda gözüm, itmədi,
Gözümdə izim itmədi...
Ha tutdum, üzüm itmədi,
Ələyin adıymış elə...

***

Yıxıldım, anam yıxıldım,
Tutmağa qol da yoxdu heç.
Dediyimi nəynən deyim,
Deməyə dil də yoxdu heç.

Bu yazını yazan yazıb,
Yazdığını sapdan asıb.
Bəydən saman kasıb,
Girməyə kol da yoxdu heç.
Tük tərsinə, dəllək naşı,
Arsız sifət, döndü, qaşı.
Hanı bu dəlinin başı,
Səpməyə kül də yoxdu heç.

Nağıllar pərən-pərəndi,
Axırı dağa dirəndi.
Dörd yanımız it hürəndi,
Getməyə yol də yoxdu heç.

Bitməyən kötük qalmayıb,
Yeməyə kötək qalmayıb.
Tutmağa ətək qalmayıb,
Ətəklik əldə yoxdu heç...

***

Çəmənin xalçası yox,
Mən bu bağı neyləyirəm.
Armudu yox, alçası yox,
Mən bu bağı neyləyirəm.

Duman yenib tül açılmır,
Bülbül ötmür, gül açılmır.
Ağacına əl açılmır,
Mən bu bağı neyləyirəm.

Gələn gəldi, söydü, bitdi
Torpağın su döydü bitdi.
Nar qurudu, söyüd bitdi,
Mən bu bağı neyləyirəm.

Çiçəkləri yağdı elə,
Xəyallarda sağdı elə...
Özü boyda dağdı elə,
Mən bu bağı neyləyirəm...

***

Bir quş idi uçdu belə,
Ha yürüdüm qaçdı belə...
Qurumuş ağacdı belə,
Meyvəsin dərdiyim səngər.

Oyundusa oyun hanı,
Qalx ayağa, boyun hanı?
Sən arxsansa suyun hanı?
Sinəmi gərdiyim səngər.

Kiminsə süzdüyü anam,
Əcəlin özüydü anam.
Yaman qırmızıydı anam,
Yuxumda gördüyüm səngər...

***

Fələk ucadan baxır,
Körpəyə qocadan baxır.
Qapazı bacadan baxır,
Çörəyi tələdən keçir.

Ölüm ömrə qısılanda,
Elə buymuş yazılanda.
Kəndir kimə asılanda,
Kimə də şələdən keçir.
Qazılarmı dərin qardaş,
İstidimi yerin qardaş.
Onsuz da əsgərin qardaş,
Taleyi lülədən keçir...

***

Bu dünyadı, ağrın alım,
Deyib-güləcəkmi hamı?
Kişi kimi, arvad kimi,
Bir gün öləcəkmi hamı?

Dərd də sıxıldığı yerə,
Axar yığıldığı yerə.
Qaçıb dağıldığı yerə,
Qaçıb gələcəkmi hamı?

Dillənəcək bu lal haram,
Başdaşıdı, qalar haram...
Tərəzidi halal-haram,
Çəkib böləcəkmi hamı?

Su döydükcə qapısını,
Damı çöküb, qapı sınıb...
Şəhidliyin qapısını,
Aça biləcəkmi hamı?

***

Gülər dərdə dəli kimi,
Bel sınmayıb beli kimi.
Fələk durub zəli kimi,
Sağılacaq, sağılmış ev.

Nə dəhlizi yeriyəndi,
Nə də daşı əriyəndi.
Nə də daşı əriyəndi.
Göz yaşında çürüyəndi,
Göz yaşında boğulmuş ev.

...Qismətindən çətin uşaq,
Bu dünyadan qədim uşaq.
Kimindi bu yetim uşaq,
Kimindi bu dağılmış ev?..

***P.S.*** Ruhun şad olsun, şair! Dünən Vahidin Haqqa qovuşduğu gün idi.

# ƏLLƏRDƏ... ÖLÜM BİLETİ

*...Səhifədəki "Döyüş" və "Səngərdə" şeirlərindən başqa qalan şeirlərin ən azı 50 yaşı var. Yəni 50-52 il bundan əvvəllər yazılıb. İndi bu şeirləri oxuyub düşünürəm və təəccüblənirəm ki, elə 50 il bundan əvvəl təsadüfən tanış olduğum Səbuhi əsl şair ola-ola indiyədək niyə bircə dənə kitab çap etdirməyib?*

*Səbəbini özü bilir yəqin.*

*İstedadlı insanlar arasında az çap olunmaq, yerli-dibli çap olunmamaq kimi nümunələr olub və çox güman ki, indi də var. Hələ o vaxtlar, universitetin jurnalistika fakültəsində təhsil aldığımız illərdə bu ucaboy, yaraşıqlı və ... utancaq oğlanın yazdığı qeyri-adi şeirlər onun xasiyyəti və istedadı ilə heç cür üst-üstə düşmürdü. Çünki 50-55 il əvvəllər belə şeirlərə, xüsusən sürrealist dünya görüşün poetik ifadəsinə az-az rast gəlinirdi. Oxuculara bu heyranlığı bəxş edən şairlərin özləri də (Vaqif Vəkilov, Ramiz Rövşən, Eldar Baxış, Vaqif Cəbrayılzadə...) nadir hallarda çap olunurdular və onların "bu gizlin" şeirləri hadisəyə çevrilirdi. O vaxtlar belə şeirlərə daha çox mücərrəd şeirlər deyilirdi.*

*Səbuhi belə gözəl hadisələrin iştirakçısı olmadı.*

*Görən hansı səbəb onun mümkün tanınmağını ömrünün gənclik, cavanlıq illərindən qoparıb uzaqlara apardı? Ancaq o, mənimçün hələ də sanki 21, 22, 23 yaşlarında qalıb. Əlimə keçirdiyim bu gözəl şeirləri ilə...*

*Sizə təqdim etdiyim Səbuhi Vəliyev ömrü boyu eyni yerdə işlədi, eyni binaya qədəm basdı.*

*Ucar rayonunda çıxan "Yeni söz" qəzetində ədəbi işçi, şöbə müdiri, redaktor müavini, son 35 ildə də redaktor.*

*Öz müşahidələrimə və həm də eşitdiyimə görə bu yaşa qədər bircə nəfərin də xətrinə dəyməyən bu ləyaqətli insan dahi Füzulinin bütün yaradıcılığını əzbər (!!!) bilən mərhum atasının vəsiyyətlərinə sadiq qalaraq onun arzuladığı kimi yaşayır və çalışır.*

*Mərd, xeyirxah, peşəsinə sadiq, həm də şair Səbuhi!*

***P.S.** Mən bilərəkdən onun şeirlərindən, yalnız ona məxsus olan poetik ifadələrindən nümunələr gətirmədim. Səbuhi hər bir şeirində, hər bir ifadəsində oxucunu öz zövqü ilə tənha buraxır..*

*Məzahir ƏHMƏDZADƏ*



***SƏBUHİ VƏLİYEV***

## QANADLARIN DUELİ

***İngiltərənin 114 sərnişin götürmüş hava layneri qəfildən 3 bombardmançı təyyarə ilə rastlaşmışdır. Qəzetlərdən.***

**Bir vaxt ağlayıblar lal beşiklərə**
**Bir vaxt ağlayıblar kövrəklər kimi .**
**Çırpılıb, atılıb bombalar yerə**
**Nokauta düşən boksçuların**
**Əlindən atılan əlcəklər kimi.**

**Uçur təyyarələr, uçur durmayır .**
**Qanadlar duelə çıxdı bir anda .**
**O gün Ştrausun "Mavi Dunay"ı**
**Susdu bir sərnişin ayaqlarında .**

**İstəklər evlərin içinə endi**
**Elə bil son dəfə baxırdı gözlər .**
**Yaşamaq onlara şirin göründü**
**Yüz on dörd çarpayı ölümü qədər .**

**Orda görünmədi, bilinmədi heç**
**Əllərin kişilik , qadınlıq səddi .**
**Əllərdə qəm vardı, təəssüf vardı.**
**Bir də ağırlaşmış ölüm bileti .**

## QARA HAŞİYƏDƏ BİR QIZ

***Universitet auditoriyalarının birində üstünə qız adı yazılmış və qara haşiyəyə alınmış bir skamya var.***

**Skamya üstündə qara bir ilan**
**Dolanıb bir qızın qar sinəsinə**
**Baxıram boyası mürəkkəb olan**
**Əllərin ovsunçu səliqəsinə**

**Düşdü pəncərəyə qəfil bir yağış**
**Hansı bir əldəsə sızladı çiçək**
**Bu gün etinasız, nəmli bir baxış**
**Susatan qadını incitməyəcək**

**Bu gün ağaclara payız qonacaq**
**Fikirli yarpaqlar düşəcək haldan**
**Nağılsız otaqda diksinən uşaq**
**Alma oyuncaqlar tapacaq yoldan**

**Baxıram, müqəssir barmaqlar itkin,**
**İstədim buraya bir örtük çəkim**
**Üstünə qar, yağış ələnər deyə.**
**Güzgüdən bir ana qorxacaq bu gün**
**Balam gözlərimdən silinər deyə .**

## SƏNİ SEVDİM BİR DAHA

**Bir ömür kimidir hər açan çiçək,**
**Bu dünya belədir yaranışından**
**Hər səhər yataqda oyandığın tək**
**Quşların yuvada oyanışından**
**Səni sevdim bir daha**

**Sənə çox bənzəyən xanım bir qızın**
**Üzündə, gözündə yayılıb qalan**
**Pərişan telinin yaraşığında**
**Səni sevdim bir daha**

**Sənin qızılı saçlarını sevdim**
**Ay işığında, bulaq başında**
**Bulaqla gecənin qonşuluğunda**
**Səni sevdim bir daha**

**Səssizcə çiyninə qonan yarpaqla**
**Bahar küləyinin tanışlığında**
**Səni sevdim bir daha .**
**Mavi gözlərində sönməkdə olan**
**Bizim ulduzların barışığında**
**Səni sevdim bir daha**

## SON DÖYÜŞ

**Son döyüşdür, ay ana**
**Vətəndən bir yel əsdi .**
**Telimi yan daradım**
**Düşmənin əli əsdi**

**Son döyüşdür, ay ana**
**Üzümüzə gün doğdu**
**Çörək istidir - dedin**
**Bəs niyə gözün doldu**

**Son döyüşdür ay ana**
**Zərbə üstündən zərbə !**
**Məni bəyəndirəcək**
**Qonşu qıza qələbə**

## SƏNGƏRDƏ

**Gecədir, aylı gecə**
**Hər tərəf batıb yasa**
**Qartopu havasıdır**
**Snayperlər olmasa**

**Aramızda biri var**
**Yaman qorxaqdır, qorxaq**
**Səngər qız dodağı tək**
**Onu buraxmayacaq**

**Döyüş meydanıdır bu**
**Qorxum yoxdur heç nədən**
**Ölsəm sinəm altında**
**Vətən olacaq, Vətən**

## UCALIB, UCALIB YORULAN CANIN

***"Atamın xatirəsinə" silsiləsindən şeirlər***

**Ucalıb, ucalıb yorulan canın ,**
**Göylərdə qılıncla vurulan canın .**

**Yaralı bir beyt tutub bəsləyə ,**
**Ürək də istəyə, can da istəyə**
**Səs tapa bilməyə, görürsən Allah!**

**Yastıq didim-didim, can didim-didim ,**
**Üzüb çarpayıdan çıxa bilmədin**
**Bir beytin üzünə baxa bilmədin .**
**Nə Füzuliyə gül, nə də anama,**
**Füzuli neyləsin səssiz qalana !**

**Tək qolun sürüşüb, yanına düşüb ,**
**Sən "iki" qiymət də verməzsən ona .**
**Xərçəng-zavalların, tez ol , cavab ver ,**
**Cavabı bilinməz suallarına .**

**Əhlikef dünyadı-gözdən qoymadı ,**
**Elə ağladıq ki, bizdən doymadı.**
**Ömür itkilərdə, ömür savaşda**
**Birdən kişi oldum on iki yaşda .**
**Anam heç doymadı uşaqlığımdan ,**
**Birdən əl saxladı, nəfəs saxladı.**
**Ucalıb ucalıb yorulan canın .**
**Göylərdə qılıncla nurulan canın .**

## SAYIRDIN SƏN DƏ

**Ürəyin qopardı biz olmasaydıq**
**Ağrından-acından göz olmasaydıq**
**Bütün dünyada**
**Təkcə Füzulini qazanıb qalıb**
**Soyuq yatağında uzanıb qalıb**
**Həyatdan bir tikə pay uma-uma**
**Əlini atırdın haraya gəldi.**
**Bircə balaların haraya gəldi**
**Yığışdı başına qu quşları tək**
**İri göz yaşların bəsdi dünyaya**
**Bəsdi damar-damar arıq sinənə**
**Necə də saymışam damarlarını**
**Mən uşaq olmuşam, bilməmişəm heç...**
**Mənim dilim yansın, ciyərim yansın .**
**Sayırdın, nəyisə sayırdın sən də**
**Olub keçənləri, olacaqları**
**Balaca qızına, dilbər qızına**
**Ala bilmədiyin oyuncaqları**
**Daha nə təmənna, daha nə tələb.**
**Dünyanın işinə lap məəttələm**
**Səni atıb getdi yaralı kimi**
**Bircə yaxşılıqlar keçdi əlinə**
**Keçdi dar gününün yarağı kimi**

## FÜZULİ ALLAHIN BAĞIŞLAYACAQ

**Gül balalarına qıymayacaqdın --**
**Əzabdan qol açıb oynayacaqdın .**

**Bir dəli ah çəkdin, sevindin hələ**
**Belə ah çəkməyib Füzuli-Allah**
**qabardı döşün.**
**Belə ah çəkməyib Füzuli-Allah**
**qutarıb işin.**
**Bir dəli ah çəkdin boyum artmadı,**
**Toyum yetişmədi, toyum çatmadı**
**Yapışıb qalxasan toy mağarından .**

**Keçə boğazından bir damcı su ,**
**Keçə boğazından bircə tikə çörək .**
**Hamını, bütün dünyanı**
**Buraya mən şahid çağıram gərək .**
**Doğurdan o zaman uşaq olmuşam.**
**Sənin əzabına aşiq olmuşam**

**...İki yazdın**
**Dedin azdır əzbərçiyə**
**bu da azdır.**
**Əzbərlədin - ağrımızı - acımızı**
**Əzbərlədin- boyu bir qarış bizə gülən bacımızı**
**Əzbərlədin anamızın ağarmayan saçlarını**
**Füzuli-Allahın görür hamısın**
**Füzuli-Allahın bağışlayacaq**

**Şər ötüşər, xeyir gələr**
**Ovcunda su Leyli gələr**
**Məcnun kəsməz qabağını**
**İçib, içib yapışarsan**
**Füzulinin ətəyindən**
**...Fürsətdir deyirəm**
**Leyliyə bu gecə necə nə sayaq baxırsansa bax,**
**Füzuli - Allahın bağışlayacaq**

## ÖLÜM DÖYDÜ QAPINI

***...Mənim həyatımın tragik tərəflərindən biri də nədənsə köməklik umduğum tərəfdən zərər çəkməyimdir. Bu bir sirr olmaya?! Bu, Prometeyin qıfıllanmış zənciri deyil ki, yarəbbi!***

***ATAMIN MƏKTUBLARINDAN***

**Dərmanmı atırsan, aldanma ata**
**Tər olub süzülər, axar alnından**
**Həkimi işə sal, gülüb yalandan.**

**Dirsəklən, yatağın köksü daralsın,**
**Dirsəklən dünyanı dəhşətə salan**
**Xərçəng - zavalların basıb döşündən**

**Füzuli- Allahın gələr köməyə**
**Ah çəkər, qolundan tutub qaldırar.**
**Dərsləri yarımçıq, səsi yarımçıq**
**Bir məktəb özünü atar yollara**
**"Müəllim" bağırar tələbələrin**

**Arzular, nisgillər varaq-varaqdır**
**Keçmir əllərinə sən yazdığın beş.**
**Yenə beş alırlar, amma nahaqdır,**
**Onları vuruşa hazırlamır heç!**

**Sanki oyuncaqdı, qalıb havada,**
**Uşaqlar da işə düşüblər əcəb.**
**Onlar razıdırlar "iki" yazasan,**
**Sənin "iki"lərin düşündürəcək .**

**Demək ədəbiyyat dərsidir daha**
**Füzuli ah çəkir, üzülür tavan,**
**Üzülür tamam**
**Çökür aşağı .**
**Uşaqlar unudur dərsdən qaçmağı**
**Hamısı keçirlər Məcnun tərəfə !**

**Ağrılar kürəkli, sənət diləkli,**
**O, mənim atamdı, mənim atamdı**
**Ölüm utanmadı, heç utanmadı,**
**Döydü qapını, əzildi, güldü.**
**O, mənim atamdı - özgə deyildi.**

**Dərya uşaqlardan, dediyi dərslərdən,**
**Arxayın arxayın, bəlkə də qəsdən**
**Döyülən qapını zərb ilə açdı**
**Uşaqlar yapışdı skamyalara!**
**Onun gözləridir hələ alışır ,**
**Onun "beş"ləridir hələ vuruşur .**
**Uşaqlar beş alır, qisas alırlar!**

## BU DÜNYA

**Nə iz qaldı, nə də soraq**
**Quşları da uçub getdi**
**Bu dünyanın işinə bax**
**Yanımızdan keçib getdi.**

**Çox şey uzaqdan da uzaq**
**Uzaqdısa, yeni deyil**
**"Gəl-gəl" deyən ulduzları**
**Sevgililər yeri deyil.**

**Zaman köhnə vərdişində**
**Xeyirlə şər döyüşündə**
**Adam var ki, yetmişində**
**Sözü hələ yarı deyil.**
**Hərdən çaşır, uşaqlaşır**
**Sorur hərdən**
**Niyə ömür bircə andır?**
**Doğrudanmı yer üzünü işıqladan**
**Göy üzünü yaradandır?!**

**Dünya isə susa-susa**
**Əl uzatdı boğçamıza.**
**Tökdü yerə nəyimiz var**
**Yerinə boş nağıl qoydu.**
**Axırda da Əzrayılla**
**Başımıza ağıl qoydu.**

# "Musiqi bir dəryadır"

***""Segah"ı nəyinsə xatirinə oxumuram. Artıq 18 ildir, bu sənətin içindəyəm, xanəndəlik dərsi alıram. Düzdür, uşaq yaşlarında insan "Segah"ı dərk edə bilmir, heç istədiyin kimi oxuya da bilmirsən, dinləyiciyə çatdıra bilmirsən. Lakin müəyyən bir yaş həddindən sonra insanın qəzələ, "Segah"a meyli artır. "Segah"a bağlı olmağım yaşla əlaqədardır". "Ədalət" qəzetinin qonağı xanəndə Orxan Əbilovdur.***

**-İncəsənətə uşaqlıqdan həvəsli idiniz?**

-Uşaqlıqdan həvəsli olmuşam. Deyilənə görə, 4 yaşım olarkən evdə mahnı oxuyurmuşam. Həmin vaxt mənə nağara almışdılar, o nağara ilə ritm tuturmuşam. Valideynlərim görüb ki, musiqiyə həvəsim var, məni Əhməd Bakıxanov adına musiqi məktəbinə apardılar. O vaxtdan muğam təhsili almağa başlamışam.

**-Muğamın sirlərini kimdən öyrəndiniz? Kimlər daha çox dəstək olub sizə?**

-Musiqi məktəbində müəllimim Gülsüm xanım olub. Daha sonra 2004-cü ildə Bülbül adına orta ixtisas məktəbinə daxil oldum. Burada bir çox sənətkarlardan dərs aldım. Simarə xanım, Firuz müəllim, Qəzənfər müəllim mənim müəllimlərim olub. Qəzənfər müəllim mənə çox dəstək olub. Uğurlarımın çoxsunun səbəbkarı odur. Sonra təhsilimi Mədəni Maarifdə (İndiki Bakı Humanitar Kolleci) davam etdirdim. 4 il də orada təhsil aldım. Hazırda Milli Konservatoriyada Respublikanın Xalq artisti Nəzakət xanım Teymurovanın sinfində dərs alıram.

### *"Muğamı öyrəndikcə öyrənirsən"*

**-Ailənizdə kimsə sənətlə məşğul olubmu?**

-Ailəmdə musiqi ilə məşğul olan heç kim olmayıb. Sadəcə ata tərəfdən səsi olanlar var. Əmilərimin, elə atamın özünün yaxşı səsi var. Sadəcə onlar musiqi ilə məşğul olmayıblar. Zamanında təhsil alıb sənətlə məşğul olsaydılar, indi sayılıb-seçilən ifaçılardan olardılar.

**-"Segah" muğamını daha çox ifa eləyirsiniz...**

-Muğamların hər birini ifa edirəm, sadəcə "Segah" daha yanğılı və qəlbə yaxın olduğu üçün ona çox müraciət edirəm, çox ifa edirəm. Hər bir ifaçının ruhuna yaxın olan bir muğam var, xanəndə var, "Şüştər"i sevir, xanəndə var "Şur" muğamını sevir. Mənim də ruhuma yaxın olan "Segah"dır. Muğamlarımızın hər biri gözəldir. Allah dahi bəstəkarımız Üzeyir Hacıbəyova rəhmət eləsin, muğamlarımızın hər birini nota alıb.

**-"Segah" ürəyin naləsidir. Nəyin nisgili var ki, ürəyinizdə daha çox "Segah"ı ifa edirsiniz?**

-Nəyinsə nisgili var, deməzdim. Mən "Segah"ı nəyinsə xatirinə oxumuram. Artıq 18 ildir, bu sənətin içindəyəm, xanəndəlik dərsi alıram. Düzdür, uşaq yaşlarında insan "Segah"ı dərk edə bilmir, heç istədiyin kimi oxuya da bilmirsən, dinləyiciyə çatdıra bilmirsən. Lakin müəyyən bir yaş həddindən sonra insanın qəzələ, "Segah"a meyli artır. "Segah"a bağlı olmağım yaşla əlaqədardır.

**-İstər xanəndələr, istərsə də digər musiqi sahəsinin ifaçıları deyirlər ki, musiqi dəryadır, yaşdan asılı olmayaraq öyrənmək lazımdır...**

-Çox düzgün deyilib ki, musiqi bir dəryadır. Nə qədər öyrənsən, bu sənin başının ucalığıdır. Qəzənfər müəllim həmişə gözəl bir söz deyirdi, 50 yaşın olsa belə, həmişə öyrənməlisən. Çünki sən desən ki, artıq mən bilirəm, daha öyrənməyəcəm, deməli, sən yaxşı xanəndə deyilsən. Muğamı öyrəndikcə öyrənirsən. Muğamın incəlikləri, dərinlikləri çoxdur. İndiki ifaçıların çoxsu (mən o kəsləri nəzərdə tuturam ki, onları xalq tanımır) "mən xanəndəyəm" deyir. Əslində "xanəndə" sözü çox ağır sözdür. Xanəndə Arif Babayevdir, Alim Qasımovdur, Qəzənfər Abbasovdur və digər sənətkarlardır.

### *"Təhsil önəmlidir"*

**-Bir çox sənətçilər təhsilin olmasını özləri üçün vacib hesab etmirlər. Sizcə, bu düzgündür?**

-Mən bunun əleyhinəyəm. Təhsilsiz bir musiqiçi, tək xanəndə yox, mənə görə uğurlu ola bilməz. Bir insanın yaxşı səsi ola bilər, amma təhsil də önəmlidir. Allah insana istedad və səs verir, amma o səsi idarə etmək üçün mütləq ki, təhsil almalısan. İfaçı təhsil almasa, muğamın növlərini bilməyəcək, səsini düzgün idarə edə bilməyəcək.

**-Muğam sizin üçün nə deməkdir?**

-Neçə ildir, bu sənətdəyəm, bir az öncə dedim. Mən muğamın aşiqiyəm. Muğam dinləyəndə ruhum dincəlir. Muğam mənim



üçün həyatımın yarısı deməkdir. Niyə yarısı deyirəm? Tam şəkildə insan həyatını nəyəsə həsr edə bilməz, bu inandırıcı deyil. Ona görə deyirəm ki, həyatımın yarısıdır. Muğama illərimi vermişəm. Bu günə qədər böyük sənətkarlardan dərs alıram. Muğamdan kənar qala bilmərəm.

**-Muğamı ifa edəndə nə hisslər keçirirsiniz?**

-Muğam ifa edəndə məni dinləyənlərin reaksiyasına daha çox diqqət yetirirəm. Tamaşaçıların baxışları, alqışları bax bunları beynimdə canlandırıram. Çalışıram ki, dinləyicilər məndə qüsur tapmasınlar. Mən muğamı o qədər səliqəli ifa etməliyəm ki, onu dinləyici anlaya bilsin. Bir də dinləyici muğamdan professional şəkildə anlayışı olan şəxs də ola bilər. Bax ona görə məsuliyyətli olmalıyam. Nəzərə alıram ki, məni izləyən şəxslər həm də sənətkarlardır.

**-Məcnun obrazını ifa etmək kimi bir arzunuz varmı?**

-Hər bir ifaçı kimi mənim də arzumdur "Məcnun"u oynamaq. Bu obrazı canlandırmaq böyük bir məsuliyyət tələb edir. "Məcnun" obrazını layiqli şəkildə canlandırmaq istəyərəm. Necə ki, sənətkarımız Mənsum müəllim "Məcnun" adını alıb, mən də istəyərəm, bu sənətdə "Məcnun" olum.

**-Nə vaxtsa ifa etsəniz, Leyli rolunda tərəf müqabilinizin kim olmasını istərdiniz?**

-"Leyli" obrazında oynayacaq xanımlarımız çoxdur. Gözəl səsi olan ifaçılarımız, gözəl görkəmli xanım xanəndələrimiz çoxdur. Məsələn, Kamilə xanım Nəbiyeva gözəl xanəndədir. Onun kimi bir çoxunun adını çəkə bilərəm. Efirlərdə olmayan bir neçə xanəndələrimiz də var ki, onlarla da oynamaq istəyərəm. Efirlərdə tez-tez görünməsələr də, o xanəndələrimiz güclü səsə malikdirlər. Bax o xanım xanəndələrlə də Opera səhnəsinidə çıxış etmək istəyərəm.

**-Muğamatımızın bu günkü vəziyyəti sizi qane edirmi?**

-Bu gün muğamımızın vəziyyəti yaxşıdır. Ustad sənətkarlarımızın yetirmələri çoxdur, hələ də tələbələr yetişir. Bu gün muğam gözəl xanəndələrimizin nəzarəti altındadır. Respublika Prezidenti Cənab İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın mədəniyyətə, o cümlədən muğama diqqət və qayğıları nəticəsində bu gün muğamımız dünyada təbliğ olunur. Buna görə Cənab Prezident İlham Əliyevə və Birinci xanım Mehriban Əliyevaya təşəkkür edirəm.

### *"Muğamı dinləyən çox azdır"*

**-Tez-tez indiki gənclərin muğama bir qədər laqeyd olmaları barədə giley-güzar eşidirik. Bu haqda nə deyərdiniz?**

-Bu sual çox gözəl bir mövzunu əhatə edir: "Gənclərimizin muğama olan həvəsi". Bu gün məni də gənclərimizin muğama olan həvəsi qane etmir. Çünki gənclər daha çox bayağı mahnıları dinləyirlər. Bu mahnıları mən "bir aylıq" mahnılar adlandırıram, çünki 1 ay ömürləri olur, 1 ay gündəmdədirlər, vəssalam. Bilmirəm, bu nə ilə bağlıdır. Muğamı dinləyən gənc çox azdır. İstəyərdim, muğamımız gənclər tərəfindən dinlənilsin. Muğam dərin bir sənətdir.

**-Demək olarmı ki, xəyalınızdakı yerə çatmısınız, ya hələ var?**

-Əslində xəyalımdakı yerə çatmaq üçün bir addım atmışam. O yerə çatmaq üçün bir çox nailiyyətlər əldə eləməliyəm. "Əməkdar artist" adı, daha sonra "Xalq artisti" adı almalıyam. Bunlar üçün də illər lazımdır. Ona görə deyirəm ki, hələ bir addım atmışam. Çalışıram ki, sənətlə bağlı bir səhv etməyim. Məqsədim xəyalımdakı yerə çatmaq üçün düzgün addımlarla irəliləməkdir.

**Rövşən Tahir**

## *Əfran İsmayılov: "Bu oyun sxemi ilə milli çətin ki, qələbə qazansın"*



**"Səbail"in yarımmüdafiəçisi Əfran İsmayılov milli komandamızın DÇ-2022-nin seçmə mərhələsindəki çıxışları ilə bağlı açıqlama verib.**

Ə.İsmayılov Qol.az saytına deyib ki, milli 3 oyuna çıxıb, hər birində də məğlub oldu: "Bunlar ikisi rəsmi görüş idi. Mən ən azı Qətərlə oyunda qələbə, Serbiya ilə oyunda heç-heçə gözləyirdim. Serblərlə doğma meydanda oynasaq da, qalib gələ bilmədik. Mənə bir şey mənə maraqlı gəldi ki, 3 oyunda eyni sxem, eyni müdaifə xətti, eyni sistem oldu. Baxırsan ki, yarımmüdafiəçi müdafiəçidir.

Oyuna baxanda görürsən ki, səkkiz müdafiəçi var, onlardan altısının mövqeyi elə müdafiədir. Real baxsaq, bu cür oyunla qol vurmaq ehtimalımız demək olar ki, yoxdur. Cinah yarımmüdafiəçiləri demək olar ki, yoxdur, hücuma meyilli oyunçular yoxdur, bu da qol vurmamaq üçün böyük amillərdir. Bu oyunlarda gördük ki, qol vurmaqda geri də qaldıq. Bundan sonra yenə səfərdə seçmə oyunlar var. O oyunlar bu iki oyundan çox ağır olacaq.

Deyərdim ki, bu oyun sxemi ilə çətin bir şey edək. Olar bilər ki, mütəxəssislərin fikri başqadır. Amma mənim fikrimcə, bu, qəribə sxemdir. 6 nəfər müdafiəçi, digər mövqelərin oyunçuları da müdafiəyə çəkilib, xüsusən hücuma meylli futbolçular.

Bu üzdən 6 yox, 8 müdafiəçi ilə oynayırıq. Hücumçu da qabaqda qaçır, arxadan ona kömək istənilən qədər gəlmir.

Belə olduğuna görə topsuz oynayırıq. Bu da səhvlərə gətirib çıxarır, qollar buraxırıq və məğlub oluruq. İnşallah, təki qələbə olsun. Amma bu cür məsələlərə fikir verməsək çətin qələbə görərik".

Təcrübəli futbolçu milli komandaya fayda verə biləcəyindən də danışıb:

**"Əlbəttə, millidə oynamaq istəyirəm, gənc futbolçuların yanında təcrübəli futbolçuların olması vacibdir. Rauf var, Rahid var, mən varam. Həqiqətən deyirəm, milliyə böyük faydam dəyə bilər. Görünür, məşqçinin seçimi başqadır, 6-8 müdafiəçi ilə oynayır. Amma yenə də deyirəm, hər zaman orda ürəyimizi, canımızı qoymağa hazırıq. Milli bizim qürur mənbəyimizdir. Həmişə də elə olub. Gənc futbolçuların yanında təcrübəli və hücuma meylli futbolçular olsa, komandaya böyük faydası olacaq".**

Lənkəran rayonun İstisu qəsəbə sakini Abdullayev Sultan Məhərrəm oğluna 27 dekabr 2000-ci ildə dövlət tərəfindən verilmiş 42 BG 317 nömrə nişanlı OKA avtomobilinə verilmiş texniki pasportu itdiyi üçün etibarsız sayılsın.

***

Lənkəran rayonu R.Dadaşov adına Sütəmurdov kənd tam orta məktəbinin 1999-cu il buraxılış ilinin məzunu Hüseynov Seymur Həsənəli oğluna məxsus Attestat (332513) itdiyi üçün etibarsız sayılsın.

***

Astara rayonu Giləkəran kənd sakini Şirinov Ağababa Ağaala oğluna Astara rayon Aqrar İslahat Komissiyasının 2 iyul 1999-cu il tarixli 18 saylı qərarı ilə verilmiş Torpaq sahəsinin plan və ölçüsü AN№229753 itdiyi üçün etibarsız sayılsın.

***

Abşeron rayonu, Mehdiabad Bələdiyyəsi tərəfindən, Torpaq alqı-satqısına dair İmanov Ədalət Baloğlan oğlunun adına verilmiş 25 dekabr 2003-cü il tarixli, 17 nömrəli aktın qərarı itdiyi üçün etibarsız sayılır.

Qəşəm İsabəyli, Nadir Rüstəmov, Bahadır Əliyev, Nizami Hüseynov, Rəna Muradova, Sədaqət Ağamalıyeva, Xədicə Babayeva, Almaz Məmmədova, İxtiyar Müseyibov, Natiq Qurbanov tələbə yoldaşları **Sürəyya Nusalovaya** anası

**Firdovus xanım Nusalovanın**

vəfatıyla bağlı dərin hüznlə başsağlığı verirlər.

**Allah rəhmət eləsin.**


**Təsisçi və baş məsləhətçi:** Aqil ABBAS

**Baş redaktor:** İradə TUNCAY

Qəzet "Ədalət" qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və "Son dakika" MMC Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.
kod: 200112 h\h
Müxbir hesab: 0137010001994
S.W.I.F.T. Bik: AIIBAZ 2xhesab N: 38070019411100451111 VÖEN: 1300456161
İndeks:0107 Qeydiyyat nömrəsi 100

Ünvan: Bakı AZ.1073 Mətbuat prospekti, 529-cu məhəllə, "AZƏRBAYCAN" nəşriyyatı, 6-cı mərtəbə.
Telefon: 538-05-50, 538-51-31. 534-55-98 Faks: 539-80-26
adaletqezeti@rambler.ru
adaletqezeti@mail.ru, adaletqezeti@box.az

Tiraj: 2000
Sifariş: 79
Çapa imzalanmışdır: 02.04.2021